www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15-16 noyabr 2014-cü il Şənbə № 280 (5989) Qiyməti 40 qəpik

**Xəbər**

## QAT üzvləri Kəlbəcər girovları üçün aclıq aksiyasına başladı

yazısı səh.11-də

**Gündəm**

### Hakimiyyətlə müxalifət arasında dialoq gəlişməsi



**Əli Həsənov:** "Partiya rəhbərlərinin ictimai-siyasi vəziyyəti müzakirə etmək təşəbbüsünə hörmətlə yanaşırıq"

yazısı səh.3-də

### Məhkəmə azərbaycanlı biznesmeni həbsdən buraxmadı

yazısı səh.6-da

### Mirvari Qəhrəmanlının ailəsinə qoyulan qadağa götürüldü

yazısı səh.3-də

### Müsavatdakı narazılar üç şərt irəli sürdülər

yazısı səh.8-də

### Müəllimlərə kredit ödətdirən direktorun adı daha bir cinayət işində

yazısı səh.14-də

### Paytaxtın "yağlı parkomat tikəsi" uğrunda mübarizə daha da qızışdı

yazısı səh.12-də

### Dörd hərbi komissar işdən çıxarıldı

yazısı səh.11-də

### İlin sonunda əfv ərizəsi yazan siyasi məhbuslar azad edilə bilər

yazısı səh.12-də

*Azərbaycandan İrəvana növbəti xəbərdarlıq:*

### "Dərhal vurulacaq!"

yazısı səh.10-da

### Ziya Məmmədovun oğlu Amerikada ziyafət verdi

yazısı səh.13-də

### Ev dustağı olan şirkət rəhbəri şəhərdə gəzir

yazısı səh.11-də

### İrana bağlılıqda ittiham olunan Nardarandan reportaj...

yazısı səh.15-də

# Azərbaycanlı oliqarx müflis olur

# BEYNƏLXALQ BANK "AST TELMAN"IN MÜLKÜNÜ ƏLİNDƏN ALDI

Telman İsmayılov krediti qaytara bilmədiyi üçün bank yəhudi biznesmenin daşınmaz əmlakının bir hissəsini öz mülkiyyətinə keçirib; ümumi dəyəri 140 milyon dollar olan yarımçıq qalmış mehmanxana ərazisində torpağın bir sotunun qiyməti milyon dollardan yuxarıdır; iş adamının borcları isə milyarda çatır...




yazısı səh.6-da

# Seçkilərə bir il qalmış: siyahılı parlament təcrübəsindən imtina ediləcəkmi?

Artıq hakimiyyət də anlayır ki, indiki taleyüklü mərhələdə Azərbaycana daha təmsilçi Milli Məclis lazımdır; deputat korpusunun ənənəvi formalaşma prinsipi dəyişməsə, itirən həm də iqtidar olacaq

yazısı səh.9-da



### Sumqayıt sələfiləri liderinin həbsinin yeni təfərrüatları

yazısı səh.5-də



### Sərdar Cəlaloğlundan Milli Şura rəhbərliyinə sərt ittihamlar

yazısı səh.13-də



### Professor İlham Rəhimova Bolqarıstanın ali mükafatı verildi

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014

# APA 10 yaşını qeyd etdi

**Noyabrın 16-da "APA-Holding"ə daxil olan Azəri-Press Agentliyinin (APA) ilk bülleteninin yayılmasının 10 ili tamam olur. Musavat.com xəbər verir ki, agentlik öz yubileyini noyabrın 14-də Kempinski oteldə keçirib.**





APA 2004-cü il yanvarın 8-də Ədliyyə Nazirliyində qeydiyyatdan keçib və həmin il noyabrın 16-dan fəaliyyətə başlayıb. Agentlik Azərbaycan, rus, ingilis, ərəb və fransız dillərində xəbər xidməti göstərir. Xəbər xidməti xüsusi bülletenlər və "on-line" sistemi ilə həyata keçirilir.

Agentliyin müştəriləri arasında Azərbaycanda fəaliyyət göstərən xarici səfirlik və konsulluqlar, diplomatik missiyalar, beynəlxalq təşkilatların təmsilçilikləri, dövlət strukturları, nazirliklər, maliyyə qurumları, beynəlxalq maliyyə təşkilatlarının ölkəmizdəki nümayəndəlikləri, xarici şirkətlər, yerli və xarici biznes strukturları da var. Azərbaycanda nəşr olunan və yayımlanan 150-dən çox kütləvi informasiya vasitəsi APA-nın abunəçisidir. Abunəçilər sırasında ölkənin aparıcı iqtidar və müxalifət mətbuatı, müstəqil media qurumları üstünlük təşkil edir. Ölkənin əksər qeyri-hökumət təşkilatları, xarici dövlətlərdə fəaliyyət göstərən diaspor qurumları da APA-nın daimi abunəçisidir.

Agentliyin www.apa.az, www.apasport.az ünvanlı internet saytları fəaliyyət göstərir. Bundan başqa, APA-nın gündəlik xəbərlərini mobil telefon vasitəsilə wap.apa.az və m.apa.az ünvanından da oxumaq mümkündür.

APA-nın Azərbaycanın bütün bölgələrində, həmçinin ABŞ, Türkiyə, Rusiya, Gürcüstan, Fransa və Mərkəzi Asiya respublikalarında ofisləri fəaliyyət göstərir.

Agentlik Avropa Şurasında, Dövlət Departamentində, Rusiya XİN-də rəsmi qeydiyyatdan keçib.

**APA dünyanın bir çox analitik mərkəzləri, o cümlədən ABŞ-ın "Stratfor" Qlobal Məlumat Şirkəti ilə əməkdaşlıq edir.**

❑ SEVİNC

## Əflatun Amaşov "Yeni Müsavat" qəzetini təbrik etdi



**Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov "Yeni Müsavat" qəzetinin 25 illik yubileyi münasibətilə qəzetin redaksiyasına təbrik məktubu yollayıb. Məktubda deyilir:**

"Mətbuat Azərbaycanda sivil cəmiyyət quruculuğunda hər zaman öndə olan müstəsna ictimai institut kimi özünü təsdiqləmiş, xalqın istək və arzularının ifadəçisi qismində çıxış etmişdir. Bu missiyanı üzərinə götürmüş kütləvi informasiya vasitələri insanlara həqiqətləri çatdırmaqla yekun nəticə etibarilə demokratik dəyərlərin qərarlaşmasına mühüm töhfələr vermişlər. 25 il öncə fəaliyyətə başlamış "Yeni Müsavat" qəzeti də belə kütləvi informasiya vasitələrindəndir.

"Yeni Müsavat"ın və eləcə də onunla eyni vaxtda nəşr olunmuş digər mətbu vasitələrin məqsədi doğma Vətənimizi müstəqil görməyə köklənmişdi. Onlar bu amal uğrundakı mücadiləni öz səhifələrinə daşımaqla şərəfli missiya yerinə yetirdilər. Ötən müddəti xarakterizə edərkən bütün bunları və eyni zamanda "Yeni Müsavat" qəzetinin prinsiplərinə sadiqliyini, hadisə və proseslərə yanaşmadakı özünəməxsus dəst-xəttini vurğulamaq lazımdır. Məhz belə məxsusi keyfiyyətləri nəşri cəmiyyətə yaxından tanıtdırıb.

25 illik fəaliyyət yoluna malik "Yeni Müsavat" üçün gərgin yaradıcılıq axtarışları, qayğılar və bir sıra məziyyətlər də xasdır. Sadaladıqlarım mətbu orqanın özünü fərqli baxışların səsləndiyi tribuna kimi təsdiqləməsində həlledici rol oynayıb. Hesab edirəm ki, qəzetin uğurunu şərtləndirən başlıca amil də budur. Nəşrin 25 illiyinə ən böyük hədiyyə onun geniş və rəngarəng oxucu auditoriyasıdır.

"Yeni Müsavat"ın kollektivinə 25 yaşı ilə bağlı xoş duyğularımı çatdırarkən qəzetin peşəkar media vasitəsi olaraq rəhbər tutduğu prinsip və dəyərlərə bundan sonra da sadiq qalacağına əminəm. Arzu edirəm ki, nəşr daha böyük yubileylərinə qovuşsun, uğurları bol olsun.

Xoş gününüz mübarək, əziz həmkarlar!

❑ **Əflatun AMAŞOV,**
**Azərbaycan Mətbuat Şurasının sədri"**

## "Reklam haqqında" qanun Milli Məclisdə müzakirə edildi

**Əli Həsənov:** "Qanun layihəsi süründürməçiliyin, bürokratik əngəllərin və digər neqativ halların qarşısını almalıdır"

**"Reklam haqqında" qanun layihəsi üzərində iş davam etdirilməlidir. Bunu Azərbaycan Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov "Reklam haqqında" qanun layihəsinin Milli Məclisin İqtisadi siyasət komitəsində müzakirəsi zamanı deyib. Gün.Az-ın məlumatına görə, Ə.Həsənov qeyd edib ki, layihədə mübahisə yaradacaq və reklam fəaliyyəti subyektlərinin narahatlığına səbəb ola biləcək müddəalarla bağlı ciddi müzakirələr aparılmalıdır.**

"İşçi qrup həm müvafiq dövlət orqanlarından, həm də reklam istehsalçısı və yayımçılardan daxil olmuş təklifləri diqqətlə araşdırmalı, reklam bazarının inkişafına xidmət edən əsaslı rəy və təklifləri nəzərə almalıdır".

Prezident Administrasiyası rəsmisi vurğulayıb ki, təklif olunan qanun layihəsi reklam bazarının inkişafına xidmət etməklə yanaşı, həm də yerli və xarici şirkətləri reklama həvəsləndirməli, reklam subyektlərinin fəaliyyətinə yersiz müdaxilələrin, ağır maliyyə sanksiyalarının, süründürməçiliyin, bürokratik əngəllərin və digər neqativ halların qarşısını almalıdır: "Bundan başqa, qanun layihəsində reklamın verilməsi, hazırlanması və yayılması prosesini ağırlaşdıran, reklam subyektlərinin fəaliyyətini məhdudlaşdıran bir çox müddəalar yenidən nəzərdən keçirilməli, prosedur qaydaları maksimum sadələşdirilməli və şəffaflaşdırılmalı, sui-istifadə amili istisna edilməlidir".

Müzakiərlərdə Milli Məclis üzvləri, bir sıra KİV rəhbərləri, aidiyyəti qurumların təmsilçiləri iştirak edib.

❑ ELŞAD

## İŞİD və "Əl-Qaidə" kürdlərə qarşı birləşdi

**Musavat.com Türkiyə mediasına istinadən xəbər verir ki, İŞİD və "Əl-Qaidə" terror təşkilatları kürdlərə qarşı birləşmək qərarı alıblar.**

Verilən məlumatlara görə, hər iki terror təşkilatı arasında gizli görüş keçirilib. Görüş ilə əlaqədar məlumatı müxalif cəbhə komandiri Əbu Muzafer də təsdiqləyib.

Onun sözlərinə görə, İŞİD ilə "Əl Qaidə" hazırda hələlik hərbi qarşıdurmaların reallaşmadığı Suriyanın şimalındakı kürd milislərə qarşı ortaq hərəkət etmək mövzusunda razılığa gəliblər.

Həmin toplantının Kobanini tam olaraq nəzarətə götürmək məqsədilə keçirildiyi deyilir. Əsas anlaşmanın da bu barədə olduğu iddia edilir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Erməni samboçular Bakıya gəlir

**Erməni samboçuları 2015-ci ilin iyununda Bakıda birinci Avropa oyunlarında iştirak edəcəklər. ANS PRESS-in məlumatına görə, bu məsələ Ermənistanın Sambo Federasiyasının iclasında müzakirə edilib.**

İclasda kişilər arasında 57 və 90 kiloqram çəki dərəcələrində və qadınlar arasında 52 kiloqram çəki dərəcəsində ən güclüləri müəyyənləşdirmək üçün yarış təşkil etmək qərara alınıb.

Avropa Oyunlarına hazırlıq məqsədi ilə erməni samboçularının iki beynəlxalq yarışda iştirakı planlaşdırılıb. Ermənistan Milli Olimpiya Komitəsinin müvafiq maliyyə dəstəyi olacağı təqdirdə, Ermənistan Sambo Federasiyasının qarşısına Bakıda ən az iki medal qazanmaq hədəfi qoyulacaq.

Rüşvət üzrə reytinq cədvəlində Azərbaycan 197 ölkə arasında 140-cıdır.

Trace İnternational adlı biznes təşkilatı özünün Qlobal Rüşvət Riski İndeksi adlı göstəricisini tədqim edib.

Trace Matrix adlanan bu indeks hər bir ölkə üzrə 100 ballıq sistemlə hesablanır. İdeya ondan ibarətdir ki, hər bir ölkədə iş görən iş adamı burda ondan rüşvət istəniləcəyi riskini qiymətləndirə bilsin.

Nigeriya, məsələn, 100 baldan 97 bal yığıb. Bu o deməkdir ki, burda rüşvətsiz iş görmək praktiki olaraq mümkün deyil.

İndeksbiznesin hökumətlə qarşılıqlı əlaqələri, korrupsiya əleyhinə qanunların vəziyyəti, hökumətin və vətəndaş cəmiyyətinin açıqlığı, şəffalığı, medianın durumu kimi sahələrə qiymət verilməsi əsasında müəyyən olunur.

197 ölkə arasında Azərbaycan rüşvət riskinə görə 140-cı yeri tutur. Müqayisə üçün, Gürcüstan 11-ci, Ermənistan 87-ci, Rusiya 134-cü yerdədir. Biznesə rüşvət riskinin ən az olduğu ölkələr İrlandiya, Kanada, Yeni Zelandiya, Honq Konq, İsveç və başqalarıdır.

Ən axırıncı yerdə Nigeriyadır. Özbəkistan 194-cüdür.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

## «Sevil» massivinin mülkiyyətçiləri yenə aksiya keçirdi

**Noyabrın 14-də lSevil» yaşayış massivinin mülkiyyətçiləri Abşeron Rayon İcra Hakimiyyətinin binası qarşısında aksiya keçiriblər. Onlar «Sevil» yaşayış massivi ilə bağlı yaranmış probleme aydınlıq gətirməsini istəyiblər.**

İcra hakimiyyətinin binası qarşısından çıxarılan aksiyaçılara bələdiyyəyə müraciət etmək məsləhət görülüb.

Polis jurnalistlərə foto və video çəkiliş aparmağa icazə verməyib.

Xatırladaq ki, bir neçə ay öncə tikinti şirkəti olan «Sevil» Massivi MTK-nın təsisçisi Aynur Zeynalov və direktoru Elçin İsmayılov həbs olunublar. Onlar qanunsuz torpaq almaqda, vergidən yayınmada ittiham edilirlər.(azadliq.info)

## Azərbaycan nefti 80 dollardan aşağı düşdü

**Dünya birjalarında neftin qiyməti yenə düşüb. Nyu-Yorkun NYMEX birjasında "Layt" markalı neftin bir barreli 2,97 dollar ucuzlaşaraq 74,21 dollar, Londonun İCE birjasında isə "Brent" markalı neftin bir barrelinin qiyməti 3,63 dollar azalaraq 77,49 dollar olub.**

Dövlət Neft Şirkətinin marketinq və iqtisadi əməliyyatlar idarəsindən AzərTAc-a verilən məlumata görə, "AzəriLayt" markalı neftin bir barrelinin qiyməti London birjasında 2,52 dollar azalaraq 79,99 dollar təşkil edib.

## İlham Mirzəyevin səhhəti pisləşib

**Tanınmış teleaparıcı İlham Mirzəyevin səhhəti yenidən pisləşib. Bu barədə azvision.az-a İ.Mirzəyevin vəkili Xanlar Bayramzadə məlumat verib. O bildirib ki, teleaparıcı bir aydan artıqdır xəstəxanada müalicə olunur: "İlham Mirzəyev baş və bel ağrılarından əziyyət çəkir.**

Ona görə də artıq bir aydan çoxdur ki, Bakı İstintaq Təcridxanasının tibb məntəqəsində müalicə olunur. Onun səhhəti yaxşı deyil. Ağrıları var".

Qeyd edək ki, İlham Mirzəyev Nərimanov Rayon Məhkəməsinin hökmü ilə 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. O, Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirləndirilib.

## Orxan Pamuk kitablarına qadağa?

Ölkəyə gətirilən bədii ədəbiyyatla bağlı təlaş var

**Heydər Əliyev adına Bakı Hava Limanının gömrük məntəqəsində baş verən pozuntular barədə zaman-zaman yazırıq. Bunlardan biri də ölkəyə gələn vətəndaşlarımızın keçdiyi yoxlama, baqajlarının yoxlanması ilə bağlı prosedurlar zamanı yol verilən pozuntulardır. Bu günlərdə Türkiyə səfərindən Azərbaycana qayıdan vətəndaşlarımızdan birinin başına ilginc hadisə gəlib. Özü ilə xeyli sayda kitab gətirən ziyalımız ciddi yoxlamadan keçib. Onun gətirdiyi kitablar siyahısında Orxan Pamukun müəllifi olduğu kitablar olub. Gömrükçülər kitabları xüsusi həssaslıqla yoxlayandan sonra ziyalımızı O.Pamuku niyə oxuduğuna görə qınayıblar, ona "bu adam ermənipərəstdir" deyə irad tutublar. Qarşı tərəf isə onlara O.Pamuk kitablarının Azərbaycan dilində nəşr olunduğunu xatırladaraq, onların "qadağan olunmuş ədəbiyyat" siyahısına salınmadığını deyib. Bununla da problem yoluna qoyulub.**

Xatırladaq ki, daha öncə Azərbaycanda qadağan olunmuş dini ədəbiyyatlardan ən təhlükəlilərinin adları açıqlanıb.

Hüquq-mühafizə orqanlarından verilən məlumata görə, son illər respublikada təhlükəli dini cərəyanlara qarşı mütəmadi əməliyyatlar həyata keçirilib. Bu əməliyyatlar zamanı müxtəlif dini təriqətləri və cərəyanları təbliğ edən xeyli sayda dini ədəbiyyat müsadirə olunub. Amma onların sırasında heç zaman Türkiyə ədəbiyyatı və O.Pamukun adı olmayıb.

❑ SEVİNC

## Hava kəskin soyuyacaq

**Noyabrın 16-dan ölkə ərazisində hava soyuyacaq, temperatur 4-6 dərəcə enəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Umayra Tağıyeva Trend-ə deyib ki, noyabrın 17-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişiləcəyi, noyabrın ikinci ongünlüyünün sonuna kimi havanın qeyri-sabit keçəcəyi gözlənilir.**

Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 4-6 dərəcə enəcək. Noyabrın 17, 18, 19-da gündüz saatlarında havanın temperaturu 8-10 dərəcəyə yaxın olacaq.

Noyabrın 16-sı axşamdan noyabrın 18-i səhərə kimi şimal küləyinin arabir güclənəcəyi gözlənilir. Bu müddət ərzində tutqun hava şəraiti üstünlük təşkil edəcək. Havanın fasilələrlə yağıntılı olacağı ehtimal edilir.

Respublikanın rayonlarında isə proses noyabrın 16-da qərb rayonlarından başlayaraq müşahidə ediləcək.

**Başsağlığı**

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Famil Cəfərliyə qayınatasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Saxarov mükafatı siyasi məhbuslara təqdim edildi

## Mükafatçılar arasında Müsavat başqanının 3 müavini var

**Siyasi dustaqlara verilən Saxarov mükafatının təqdimetmə mərasimi başlayıb. Təqdimat Norveçin paytaxtı Oslo şəhərində, Bristol hotelində keçirilib. Bu barədə NİDA Vətəndaş Hərəkatının üzvü Ülvi Həsənlinin Facebook səhifəsində məlumat yayılıb. Mərasimdə iştirak edən Ülvi Həsənli yazır ki, törənin açılışını Norveç Helsinki Komitəsinin icraçı direktoru edib.**

Məlum olduğu kimi, bu il Saxarov mükafatı hazırda həbsdə olan Azərbaycanın vicdan məhbuslarına və siyasi dustaqlara da toplu halda verilib. Onların hər birinin fotoları təqdimat zamanı zalda quraşdırılmış monitorda göstərilib.

Təqdimatda **tanınmış belaruslu hüquq müdafiəçisi, keçmiş siyasi məhbus Ales Bialiatski** çıxış edib, sonra da İntiqam Əliyevə dəstək olaraq, onun şəkli olan köynəyi geyinib. O deyib ki, bir vaxtlar onun da şəkli bu zalda nümayiş etdirilib.

Osloda Norveç Helsinki Komitəsinin insan hüquqları üzrə fəxri mükafatı simvolik olaraq Azərbaycandakı 100-ə yaxın siyasi məhbusa təqdim olunub. Hüquq müdafiəçilərinin yaxınlarının Norveç ictimaiyyətinin, Azərbaycandan gələn qonaqların iştirakı ilə keçirilən tədbirdə mükafatı məhbusların yaxınları qəbul edib.

**Xatırladaq ki, mükafatçılar sırasında Müsavat başqanının üç müavini- Tofiq Yaqublu, Yadigar Sadıqov və Fərəc Kərimov var.**

"Azadlıq" radiosunun təqdim etdiyi videoreportajda tədbir iştirakçılarından bəzi sitatlar yer alıb. Onları təqdim edirik.

**Norveçin xarici işlər üzrə dövlət katibi:** "Mənim işimin bəlkə də ən böyük üstünlüyü Azərbaycandan və dogər ölkələrdən olan insan haqları müdafiəçiləri ilə görüşməkdir.

**Keçmiş Belarus siyasi məhbusu:** "Hələ iyun ayında İntiqam Əliyev mənim şəklimlə köynək geyinmişdi. İndi də mən onun şəkli olan köynəyi geyinirəm".

Arif və Leyla Yunusun qızı: "Bu şəkli sonuncu dəfə biz bir yerdə olanda çəkmişəm. İndi atam bir məhbəsdə, anam başqasında. Mənim bu dünyada onlardan başqa heç kimim yoxdur, onları geri istəyirəm".

**Norveçin Bakıdakı keçmiş səfiri Steynar Gil:** "Azərbaycan hakimiyyətinə sözüm? Siyasi məhbuslar dərhal azad olunmalıdır".

❑ Sevìnc TELMANQIZI

# Britaniya şahzadəsinin səfəri və tənqidlər...

## **Zəfər Quliyev:** "Azərbaycan hakimiyyəti bu kontaktdan siyasi divident götürmək istəyir"
## **Zahid Oruc:** "Azərbaycan beynəlxalq aləmdə dostlarının dairəsini genişləndirməklə məşğuldur"

**Xəbər verdiyimiz kimi, Britaniya kraliçasının oğlu, Yorq hersoqu, şahzadə Endryü prezident İlham Əliyevlə görüşmək üçün Bakıya gəlir. Bu barədə Britaniya mətbuatı yazıb. Azərbaycan prezidentinin dostu kimi tanınan şahzadənin Bakıya səfərinin "şəxsi xarakter daşıdığı" bildirilir və səfərin məqsədləri barədə məlumat verilmir.**

Bununla belə məlumdur ki, şahzadə Endryü Britaniyanın ticarət-iqtisadi maraqlarının təmin edilməsi üçün şəxsi əlaqələrindən istifadə edir. Bukinhem Sarayından şahzadənin Bakıya səfərini təsdiq ediblər, ancaq bildiriblər ki, kral ailəsinin üzvlərinin şəxsi səfərləri ilə bağlı şərh vermirlər.

Səfərin hansı mənbədən maliyyələşdirildiyi də açıqlanmır. Kral ailəsinin üzvlərinin şəxsi səfərləri Britaniya büdcəsindən maliyyələşdirilmir. Şahzadə Endryü bundan əvvəl də dəfələrlə Bakıda səfərdə olub.

Amma şahzadənin daha öncəki Azərbaycan səfərləri də Britaniya mətbuatında birmənalı qarşılanmayıb və tənqidlərlə müşayiət olunub. Yerli ekspertlər isə səfərin mahiyyəti və məqsədi ilə bağlı fərqli düşüncədədir.



**Politoloq Zəfər Quliyev** hesab edir ki, şahzadənin Azərbaycan səfərində ciddi biznes maraqları var. Onun fikrincə, siyasi motiv və siyasi məsələlər ilk növbədə o qədər maraqlı deyil: "Bizim iqtidar uzun illərdir ki, həm Britaniya ilə, həm ABŞ-ın burdakı səfirlərinin Azərbaycana bağlılığının qalmasından fəal formada istifadə edir. Bununla da biznes, enerji sahəsində maraqları ödəməklə, reallaşdırmaqla özünün də, ölkənin də həm lobbiçilik sahəsində, həm siyasi məsələlərin irəli sürülməsi, gündəmə çıxarılmasında bu adamların köməyindən də istifadə edir. Yəni, hər iki tərəfin burda maraqları var. Ona görə Britaniya şahzadəsinin əsas maraqları biznes maraqlarıdırsa, Azərbaycan hakimiyyəti bu kontakta gedəndə istər-istəməz ölkə üçün siyasi dividentlər götürmək niyyətindədir və hətta deyərdim, götürür də".

**Z.Quliyev hesab edir ki, Britaniya mətbuatının bu məsələdə mövqeyi də anlaşılandır. Onun sözlərinə görə, Britaniya mətbuatı siyasi duruma görə bu ölkədə bu cür, bir az qapalı formada alınan kontaktlara hər zaman mənfi baxırlar:** "Ona görə ki, hesab edirlər ki, siyasi fiqurlar, kral ailəsinin üzvləri, Britaniyanın siyasi dairələrinə daxil olan adamlar, eyni zamanda hansısa başqa bir ölkə ilə biznes kontaktlara gedirlərsə, hansısa bir işlə bağlı əlaqələr yaradırlarsa, bu, ilk növbədə Britaniya ictimaiyyəti üçün də şəffaf formada aparılmalıdır. Onlar bilməlidirlər ki, bunun məqsədi nədir, pərdə arxasında nələr baş verir. Burda başqa niyyət var. Bu isə Britaniyanın siyasi davranış qaydalarına uyğun gəlmir. Ona görə də bu cür münasibət başadüşüləndir".

**Deputat Zahid Oruc** da bildirdi ki, Britaniya mediasında buna qədərki dövrdə kütləvi olmasa da, epizodik şəkildə tənqidi mövqelər yer alıb. Onun fikrincə, bu, normal haldır: "Düşünmürəm ki, buna görə nə Britaniya şahzadəsi səfər fikrindən daşınacaq, nə də Azərbaycan hakimiyyəti bu sayaq səfərlərlə bağlı korrektələr edəcək. Dünyada məcik diplomatiya, beynəlxalq əlaqələr, lobbi birlikləri kimi anlayışları politoloji ədəbiyyata biz gətirməmişik. Bu cür səfərlər Britaniya siyasətinin də ayrılmaz hissəsidir. Ətraf aləmimizdə və beynəlxalq siyasi münasibətlərdə bu cür səfərlər mühüm rol oynamırmı?"

**Müsahibimiz bildirdi ki, qarşı tərəfin də bu səfərlə bağlı mühüm planları var. Onun sözlərinə görə, hər səfər siyasi və iqtisadi tərəfləri ilə yadda qalır:** "Odur ki, mən bu səfərlə bağlı tənqidlərin dərəcəsindən, yönləndirilməsindən, hansı dairələrdən qaynaqlanmasından asılı olmayaraq, onu yüksək qiymətləndirirəm. Britaniya parlamentində və yüksək dairələrdə Azərbaycanla dostluq münasibətlərində olan şəxslər var. Azərbaycan özünün beynəlxalq əlaqələrdə dostlarının dairəsini genişləndirməklə məşğuldur. Britaniya şahzadəsi ilə bağlı münasibətlər, prezidentin etibarlı dost, yaxşı siyasi tərəfdaş olduğunu göstərir. İlham Əliyevin bu mövqeyi millətin mənafeyinin qorunmasına hesablanır".

❑ Sevìnc TELMANQIZI

# Hakimiyyətlə müxalifət arasında dialoq gəlişməsi

## **Əli Həsənov:** "Partiya rəhbərlərinin ictimai-siyasi vəziyyəti müzakirə etmək təşəbbüsünə hörmətlə yanaşırıq"

**Mirmahmud Mirəlioğlu: "Bizim təklifimizə reaksiya müsbətdir və biz də hesab edirik ki, bu müsbət reaksiya işin xeyrinə olacaq".**



Əli Həsənov

Noyabrın 12-də KXCP qərargahında Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin toplantısında hakimiyyət-müxalifət dialoqu ilə bağlı təşəbbüs irəli sürülüb. Quruma daxil olan bir qrup siyasi partiya rəhbəri ölkədəki ictimai-siyasi vəziyyəti müzakirə etmək üçün Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla görüş təklif ediblər.

Məsələ ilə əlaqədar "Yeni Müsavat"a açıqlamasında Əli Həsənov bildirib ki, hakimiyyətlə siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri arasında dialoq demokratik inkişafın zəruri şərtlərindən biridir və vətəndaş cəmiyyətinin daha da dərinləşməsinə xidmət edir. Azərbaycan hakimiyyəti ölkədə fəaliyyət göstərən bütün ictimai-siyasi təşkilatlarla dialoqa və əməkdaşlığa həmişə hazırdır. Azərbaycanın ictimai-siyasi həyatında iştirak etməyin siyasi və hüquqi normaları, seçkilər, sağlam siyasi rəqabət, insan hüquq və azadlıqlarının təmin edilməsi və digər məsələlərə dair səmərəli müzakirələr aparıla bilər. Hesab edirik ki, bu sahədə kifayət qədər təcrübə də toplanmışdır. Ayrı-ayrı vaxtlarda ictimai-siyasi qurumların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşlər keçirilmiş, fikir mübadiləsi aparılmış və irəli sürülən dəyərli rəy və təkliflər nəzərə alınmışdır.

Buna görə də bir sıra siyasi partiya rəhbərlərinin ictimai-siyasi vəziyyəti müzakirə etmək təşəbbüsünə hörmətlə yanaşırıq. Dialoqla bağlı konkret təkliflər olarsa, onları nəzərdən keçirməyə hazırıq".

**KXCP sədri Mirmahmud Mirəlioğlu "Yeni Müsavat"a bildirdi ki, dövlət rəsmisinin cavabı onu qane edir:** "Ona görə də bura nəsə əlavə etməyə ehtiyac yoxdur. Bizim təklifimizə reaksiya müsbətdir və biz də hesab edirik ki, bu müsbət reaksiya işin xeyrinə olacaq. İşlər uğurla gedərsə, hazırlanan təkliflər paketi də masaya qoyulacaq. Hazırda proses gedir , ona görə də geniş danışmağa lüzum görmürəm".

❑ E.PAŞASOY

# Mirvari Qəhrəmanlının ailəsinə qoyulan qadağa götürüldü

## Hüquq müdafiəçisinin nəvəsi və yeznəsi qızının yanına gedə bildi

**Bir müddət əvvəl ölkəni tərk edən hüquq müdafiəçisi Mətanət Əzizovanın ailə üzvləri də onun yanına gediblər. Hüquq müdafiəçisinin oğlu Camal və həyat yoldaşı Eldar Əzizov bir neçə gün onun yanında qaldıqdan sonra Bakıya qayıdıblar.**

Bu barədə "Yeni Müsavat"a danışan M.Əzizovanın anası, hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı qeyd edib ki, yeznəsi və nəvəsinin ölkədən çıxmasına qoyulan qadağa artıq götürülüb: "Həm diplomatik korpuslar, həm beynəlxalq təşkilatlar, həm özüm bununla bağlı dəfələrlə müraciət etmişdim. Ailəsi də ərizə ilə müraciət etmişdi. Baş prokurora edilən bir neçə müraciətin nəticəsi oldu, nəhayət sanksiyalar götürüldü. Ancaq düşünürəm ki, birdəfəlik olmayacaq".

**M.Qəhrəmanlı deyib ki, M.Əzizova və həyat yoldaşı hazırda ciddi şəkildə müalicə olunurlar:** "Mətanət Praqada müalicə olunur. Yeznəm və nəvəm onun yanına getdilər və qayıtdılar. Yeni ildə onların yenidən Praqaya getməsi gözlənilir. Eldar orada həkim müayinəsindən keçəcək".

**Bununla belə, M.Qəhrəmanlı deyib ki, ailəsi və özü birdəfəlik ölkədən getmək niyyətində deyil:** "Heç Mətanət də orada birdəfəlik qalmaq üçün müraciət etməyib. Müvəqqəti olaraq oradadır, bir xarici təşkilat da onu işə götürüb ki, tibbi sığortası olsun və müalicə oluna bilsin. Özümə qaldıqda, heç vaxt ölkəni tərk etmərəm. Ağır günlərim olub, bu altı ayda çəkdiklərimi də heç bir anaya arzulamıram. Ancaq bu ölkə mənim ölkəmdir və buradan çıxıb başqa yerdə yaşamağı ağlıma belə gətirmirəm".

**Hüquq müdafiəçisinin sözlərinə görə, nəvəsi və yeznəsinin ölkədən çıxmasına qoyulan qadağa ilə bağlı Dövlət Sərhəd Xidməti ilə məhkəmə çəkişməsində uduzublar:** "İddiamız təmin olunmadı. Yəni onların ölkədən çıxmasına qoyulan qadağa götürülmədi. Məlum oldu ki, bizə sanksiyanı Sərhəd Xidməti yox, Baş Prokurorluq verib. Məhkəmədə onlar göstərdilər ki, dövlət başçısının sərəncamı var və Baş Prokurorluq məhkəmə qərarı olmadan da ölkədən çıxmağa qadağa qoya bilər, sanksiya verə bilər. biz növbəti instansiyaya müraciət etmək istəyirdik. Ancaq sonra diplomatik korpusun nümayəndələrinin, beynəlxalq təşkilatların köməyi ilə müraciətlər ünvanladıq və iki həftə əvvəl sanksiyalar götürüldü. Amma nə qədər müddətə, bunu bilmirik".

❑ RÖYA

**Müsavat Partiyasının qurultayından ay yarım müddət keçsə də, nəticələrlə razı olmayan şəxslərin narazılıqları davam edir. Narazıların geriyə addım atmaq fikrində olmadıqları müşahidə olunur. Baş verənlər və digər aktual mövzularla bağlı suallara aydınlıq gətirmək üçün Müsavat Partiyasının başqanı Arif Hacılı noyabrın 12-də "Yeni Müsavat"ın qonağı oldu. Müsavat başqanının maraqlı açıqlama və mesajlarla zəngin müsahibəsinin üçüncü-sonuncu hissəsini təqdim edirik.**

# "Düşünürəm ki, Hikmət Hacızadə zarafat edib"

## Müsavat başqanı Arif Hacılı gündəmdəki məsələlərdən danışdı: "Müsavat Partiyasında öz fəaliyyətini, üzvlüyünü dondurmaq kimi bir vəziyyət nəzərdə tutulmur"; "Ermənistan hərbi helikopterinin vurulması tamamilə qanunidir"

*(əvvəli ötən sayımızda)*

***- Müsavat Partiyasının müəyyən "kleşə"ləmiş siyasəti var. Yeni başqanı "kleşə" siyasi istiqamətlərdən hansınısa dəyişmək fikri varmı? Məsələn, Rusiyaya münasibət, ABŞ-a münasibət, İrana münasibət və s. Bunları ona görə deyirik ki, onlarla bağlı illərdir Müsavat Partiyasının bəlli bir siyasəti var. Bu siyasət nəticəsində də təşkilata xaricdən dəstək sıfır şkalasındadır. Konkret olaraq, Rusiya ilə bağlı nə düşünürsünüz, Müsavatın Rusiyanın demokratik düşərgəsi ilə, oradakı azərbaycanlılarla fəaliyyət proqramı istiqamətində nələrsə varmı?***

- Müsavat Partiyası oturuşmuş bir siyasi təşkilatdır. Müsavat Partiyasının siyasətinin müəyyənləşməsi kimin partiyanın başqanı olmasından asılı deyil. Yəni Müsavat Partiyasının xarici siyasətində hər hansı həlledici dəyişikliklərin olacağı barədə fikir səsləndirmək üçün heç bir əsas yoxdur. Amma biz mövcud olan siyasətin daha qabarıq, daha ciddi şəkildə həyata keçirilməsinin tərəfdarıyıq. Bilirsiniz ki, Müsavat Partiyasının bir çox ölkələrdə müttəfiqləri var. Bizim müttəfiqlərimiz Gürcüstanda, Ukraynada, Avropanın bir çox ölkələrində fəaliyyət göstərir. Bir sıra ölkələrdə hakimiyyətdə olan müttəfiqlərimiz var ki, onlarla münasibətlərimizin daha sıx olmasına çalışacağıq. Mən Müsavat Partiyasının başqanı seçildikdən sonra İsa Qəmbərlə birlikdə Varşavaya səfər etdik. Bu səfərimiz zamanı postsosialist ölkələrinin nümayəndələri ilə görüşdük. Partiya içində olan müəyyən bu nüanslar aradan qalxdıqdan sonra mənim Gürcüstana və Türkiyəyə səfər etmək niyyətim var. Gürcüstanda bizim müttəfiqlərimiz hakimiyyətdə koalisiya ortağıdır. Bizim o şəxslərlə həm də dostluq münasibətlərimiz var. Eyni zamanda Türkiyədə olan siyasi partiyalarla Müsavat Partiyasının əlaqələrini daha da inkişaf etdirmək üçün qardaş ölkəyə səfər etmək orada fəaliyyət göstərən partiyaların rəhbər şəxsləri ilə görüşərək, müəyyən müzakirələr aparmaq niyyətindəyəm. Bu işə hazırlıq gedir. İstər Rusiyada, Ukraynada, Polşada fəaliyyət göstərən bir sıra siyasi təşkilatlarla, demokratik qüvvələrlə əlaqələrimiz var. Biz bu əlaqələri gücləndirməliyik. Müsavat Partiyasında xaricdə yaşayan müsavatçılarla iş, hesab edirəm ki, kifayət qədər yaxşı qurulub. Bu işi daha da yaxşılaşdırmaq niyyətindəyik. Xüsusilə, Rusiyada, Ukraynada və Türkiyədə yaşayan azərbaycanlılarla əlaqələrimizi genişləndirməklə bağlı müəyyən təkliflər hazırlanıb. 2015-ci ildə bu istiqamətdə ciddi irəliləyişlərin olacağı qənaətindəyəm.

***- Rusiyanın iqtidarı ilə necə, münasibətləri nə cür düşünürsünüz?***

- Rusiyanın hakimiyyət dairələri münasibətlərimizin yaxşılaşacağını düşünmürəm...

***- Niyə düşünmürsünüz?***

- Azərbaycanın gələcək inkişafı ilə bağlı Rusiyada indi hakimiyyətdə olan qüvvələrlə Müsavat Partiyasının düşüncələri arasında antoqonist ziddiyyət mövcuddur.

**"Təəssüf ki, AXCP özünü yeganə müxalifət partiyası elan edir; bu, Azərbaycan cəmiyyətinin maraqlarına uyğun deyil"**

***- Rusiya hakimiyyətinin Azərbaycan hakimiyyəti ilə münasibətləri gərginləşsə də Müsavat Partiyası müttəfiqlik istiqamətində addım atmaz?***

- Biz Rusiyanın Azərbaycanın strateji rəqibi olduğunu bilirik. Hal-hazırda Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir. Rusiya rəsmi şəkildə Ermənistanla hərbi müttəfiqdir. Müstəqil Dövlətlər Birliyi çərçivəsində və digər münasibətlər çərçivəsində olan müqavilələrdən başqa Rusiya ilə Ermənistan arasında həm də hərbi müttəfiqlik münasibətləri mövcuddur. Eyni zamanda Azərbaycan ərazilərinin işğal olunmasında Rusiyanın hərbi birləşmələri bilavasitə iştirak edib, Ermənistana dəstək verib. Hazırda Rusiyanın hərbi bazaları Ermənistan ərazisində yerləşir. Rusiyada bu gün ümumiyyətlə, Azərbaycanın müstəqil bir dövlət kimi mövcud olmasına qarşı olan qüvvələr hakimiyyətdədir. Ona görə də təbii ki, belə qüvvələrlə Müsavat Partiyasının münasibətlərinin istiləşməsi qeyri-mümkündür. Amma təbii ki, əgər Rusiyada demokratik qüvvələr hakimiyyətə gələrsə və Azərbaycanla Rusiya arasında bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurmağa hazır olan hakimiyyət formalaşarsa, Rusiyada olan siyasi qüvvələrlə Azərbaycanda olan siyasi qüvvələrin münasibətləri də müsbətə dəyişə bilər.

**"Azərbaycanın gələcək inkişafı ilə bağlı Rusiyada indi hakimiyyətdə olan qüvvələrlə Müsavat Partiyasının düşüncələri arasında antoqonist ziddiyyət mövcuddur"**

***- Ölkənin daxili siyasəti ilə bağlı Müsavat başqanı olaraq bəzi məsələlərə münasibətinizi bilmək istəyirik. Müxalifət düşərgəsi 2013-cü il prezident seçkilərindən sonra pərakəndə vəziyyətdədir. Birləşmək üçün müxtəlif təşəbbüslər edilir, amma bunların ciddi bir nəticələri yoxdur. Müsavat Partiyasının başqanı olaraq, Milli Şura, AXCP, Ümid Partiyası, KXCP və digər müxalifət komponentləri ilə münasibətləri necə quracaqsınız? Müsavat Partiyası yeni bir blok yaratma təşəbbüsü göstərə bilərmi? Blok təşəbbüsü göstəriləcəksə, bu, ənənəvimi olacaq?***

- Bu məsələlərdə söhbət konkret olaraq, mənim öz şəxsimdən gedirsə, heç bir kompleksim, heç bir problemim yoxdur. Yəni bundan əvvəl hansısa təşkilatlarda olan insanların, onların rəhbərlərinin şəxsən mənə olan münasibəti Müsavat Partiyası ilə həmin təşkilatlar arasında olan münasibətlərə təsir edə bilməz. Mən Azərbaycan Xalq Cəbhəsi Partiyası ilə, Klassik Xalq Cəbhəsi Partiyası və digər siyasi təşkilatlarla Müsavat Partiyasının müttəfiqlik münasibətlərinin qurulmasının tərəfdarıyam. Bu barədə dəfələrlə öz mövqeyimi açıqlamışam. Təəssüf ki, hələlik AXCP-dən bizim bu xoşməramlı çağırışlarımıza müsbət cavab verilmir. Təəssüf ki, Azərbaycan Xalq Cəbhəsi Partiyası özünü Azərbaycanda yeganə müxalifət partiyası elan edir. Bu da hesab edirəm ki, Azərbaycan cəmiyyətinin maraqlarına uyğun deyil. Azərbaycanda Müsavatdan, AXCP-dən, KXCP-dən başqa da müəyyən müxalifət qüvvələri, müxalifət birlikləri var. Elə hazırda rəhbəri həbsxanada olan REAL Hərəkatı, NİDA Gənclər Təşkilatı və digər qüvvələr də Azərbaycanda müxalifət qüvvələrinin təmsilçiləri kimi fəaliyyət göstərir. Biz çalışacağıq ki, xüsusilə 2015-ci ildə keçiriləcək parlament seçkiləri ərəfəsində müxalifət qüvvələrinin konsolidasiyasına nail olaq. Ancaq bizim hədəfimiz yalnız bu deyil. Bizim hədəfimiz və bəlkə də ilk hədəfimiz Müsavat Partiyasının özünün strukturlarını gücləndirmək, Müsavat Partiyasının təsir imkanlarını artırmaq və bunun hesabına Müsavat Partiyasının resurslarını artıraraq, Azərbaycan cəmiyyəti ilə, Azərbaycan xalqı ilə bütünləşmək siyasətini həyata keçirməkdir. Hesab edirəm ki, Müsavat Partiyasının ölkədəki siyasi proseslərə təsir imkanları həlledici şəkildə artdıqdan sonra digər siyasi qüvvələrlə əməkdaşlıq və müttəfiqlik münasibətlərinin qurulması işi də asanlaşacaq.



**"Partiya içində olan müəyyən bu nüanslar aradan qalxdıqdan sonra Gürcüstana və Türkiyəyə səfər etmək niyyətim var"**

(Dünən Arif Hacılı ilə əlaqə saxlayıb son iki gündə Müsavatdaxili proseslərə və ölkədə baş verən ciddi hadisəyə də münasibətini müsahibəyə əlavə etdik - Red.)

***- Arif bəy, Məclis üzvü Hikmət Hacızadə Müsavat üzvü kimi fəaliyyətini dondurduğunu bəyan edib. Hikmət bəy Kamil Xəlilbəyli adında partiya üzvünün MNTK tərəfindən Müsavatdan xaric edilməsinə etiraz olaraq, bu addımı atdığını bəyan edib və Kamil Xəlilbəylinin partiya üzvlüyü bərpa olunmayınca donunun açılmayacağını da bəyanatında şərt kimi irəli sürüb. Hikmət Hacızadənin bu addımı gözlənilən idimi? Uzun illərin müsavatçısı olan Hikmət bəyin belə bir addım atmasına münasibətiniz necədir?***

- Düşünürəm ki, Hikmət Hacızadə zarafat edib. Çünki Müsavat Partiyasında öz fəaliyyətini, üzvlüyünü dondurmaq kimi bir vəziyyət nəzərdə tutulmur. Mərkəzi Nəzarət Təftiş Komissiyası Müsavat Partiyasının qurultay tərəfindən seçilmiş müstəqil bir orqanıdır və yalnız qurultay qarşısında hesabat verir. Hər hansı bir qurumun MNTK-nın qərarını ləğv etmək hüququ yoxdur.

***- Nizamnamə pozuntusuna yol verdikləri üçün Müsavat üzvlüyündən xaric edilən bir neçə nəfər Müsavat Partiyasının qərargahı qarşısında etiraz piketi keçirəcəklərini bəyan ediblər. Piketi keçirsələr partiya rəhbərliyi tərəfindən necə qarşılanacaq?***

- Müsavat Partiyasının bir rəqibi var. O da Azərbaycan hakimiyyətidir. Müsavat Partiyası strukturlarında hal-hazırda siyasi məhbusların azadlığa buraxılması, ölkədə demokratik islahatların keçirilməsi və digər məzmunlarda kütləvi aksiyaların keçirilməsi planlaşdırılır. Əgər Müsavat Partiyasının bəzi üzvləri hesab edirlərsə ki, onların hədəfi ölkədəki avtoritar rejim yox, Müsavat Partiyasıdır bu da onların öz seçimidir. Mövcud qanunlara uyğun hər hansı bir aksiya keçirəcəklərsə və müəyyən qətnamə qəbul edib bizə təqdim eləyəcəklərsə, biz bu məsələni müzakirə edəcəyik.

***- Noyabrın 12-də Azərbaycan hərbçisinin ölkəmizin hava məkanında uçuş həyat keçirən Ermənistan hərbi vertolyotunu vurmasına Müsavat başqanı olaraq münasibətiniz necədir? Azərbaycan cəmiyyətinin bu hadisəyə reaksiyasını necə qiymətləndirirsiniz?***

- Azərbaycan ordusunun addımı tamamilə qanunidir. Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin hava məkanını uçuşlar üçün qapalı elan edib. Bu baxımdan orada Ermənistan hərbi helikopterinin vurulması tamamilə qanunidir. Hər bir dövlətin öz ərazisini və ya ərazisinin bir hissəsini uçuşlar üçün qapalı məkan elan etmək, hava məkanını pozan xarici qüvvəni zərərsizləşdirmək hüququ var. Azərbaycan da bu hüquqdan faydalanıb. Odur ki, beynəlxalq birliyin helikopterin vurulması ilə əlaqədar ajiotaj yaratması tamamilə yersizdir.

Azərbaycan cəmiyyətində isə helikopterin vurulması ilə əlaqədar ruh yüksəkliyinin yaranması məni sevindirir. Bu, o deməkdir ki, Azərbaycan xalqı öz ərazilərini nəyin bahasına olur-olsun azad etmək əzmindədir və bu hadisənin cəmiyyət tərəfindən böyük əks-səda ilə qarşılanması da təsdiq edir ki, əgər döyüş əməliyyatları-ikinci Qarabağ müharibəsi başlasa, onun nəticəsi heç də birinci Qarabağ müharibəsində olduğu kimi olmayacaq, fərqli olacaq. Düşünürəm ki, bu həm də Ermənistan cəmiyyətinə, silahlı qüvvələrinə bir mesaj olacaq. Ermənistanda işğalçı əhval-ruhiyyəsində olan kəsimin bu məsələ ilə əlaqədar mövqelərinə təsir göstərəcək.

❑ **Hazırladı: Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014

**Xəbər verildiyi kimi, Sumqayıtda sələfi fəallardan biri saxlanılıb. DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, 1978-ci il təvəllüdlü Zöhrab Şıxəliyev tutulub. Onun üzərinə baxış zamanı sandıqçasında 3 patronu olan "Valter" markalı tapança aşkarlanıb.**




# Sumqayıt sələfiləri liderinin həbsinin yeni təfərrüatları

## Dini Komitə sədri həbslərin davamının olacağını anons etdi, ölkənin üçüncü şəhəri radikal dini cərəyanların məskəninə çevrilib...

Əməliyyat tədbirlərinin davamı olaraq Z.Şıxəliyevin Corat qəsəbəsində yaşadığı evə də baxış keçirilib. Bu zaman həyətdə qanunsuz inşa edilmiş məscid və mədrəsə kimi istifadə olunan yeraltı tikili aşkarlanıb. Orada və evində aparılan axtarış zamanı isə 3 ədəd qumbara, 48 müxtəlif çaplı patron, 6 ədəd partladıcı detonator, 2 ədəd təhlükəsizlik kamerasının yaddaş qurğusu, habelə yayılması qanunla qadağan edilmiş 500 ədəd dini ədəbiyyat və 210 ədəd disk tapılaraq götürülüb. Araşdırma aparılır.

Qeyd edək ki, Şıxəliyev bir neçə ay əvvəl Sumqayıtda öz evini sələfilərə ibadət və məclislər keçirmək üçün ayırmaqla gündəmə gəlib. Mətbuata müsahibəsində o, evini ibadət və din dərsləri üçün ayırdığını, məscid tikməyə hazırlaşdığını söyləmişdi. Ancaq sonadan baş verən qəza nəticəsində Z.Şıxəliyevin tikməyə hazırlaşdığı məscid tikilisi uçub dağılıb. O özü isə iş adamı olduğunu və mənsub olduğu icmaya dəstək verdiyini bildirmişdi.

Ötən gün **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı** Sumqayıtda keçirilən əməliyyat zamanı Z.Şıxəliyevin Saxlanılmasına münasibət bildirib. APA-nın məlumatına görə, M.Qurbanlı bildirib ki, DİN-in apardığı əməliyyat tamamilə qanunauyğun və zəruri olub. O qeyd edib ki, əməliyyat başqa ərazilərdə də həyata keçiriləcək: "Hüquq-mühafizə orqanları Azərbaycanda ictimai sabitliyi qorumaq üçün nə lazımdırsa, edirlər. Eyni zamanda ölkədə dini zəmində kimlərinsə bu kimi hallara yol verməsi halları aşkar ediləcəksə, qarşısı qətiyyətlə alınacaq".

**Komitə ölkədə bəzi şəxslərin terror qrupları yaratmağa çalışdığını, ancaq hökumət orqanları tərəfindən bunun qarşısının alındığını deyib:** "Bu adamlar faktiki olaraq terror şəbəkəsi kimi bir qurumu yaratmağa cəhd edirdilər. Bütün normal ölkələrdə bu cür hərəkətlərin qarşısı necə alınırdısa, bizdə də elə qətiyyətlə alındı. İctimaiyyət də hüquq-mühafizə orqanlarımızın dini radikallara qarşı mübarizəsini müdafiə edir. Bizim komitənin də əsas vəzifələrindən biri bu cür zərərli radikalların ideoloji kökünü kəsmək, təmizləməkdir. İşimizi təbliğat və təşviqat yolu ilə gücləndiririk. Sumqayıtda olanda da oradakı insanlara fikrimizi çatdırmışdım ki, kimlərsə Azərbaycanda qarışıqlıq yaratmağa cəhd edəcəklərsə, qarşısı alınacaq".



Zöhrab Şıxəliyev

**Sələfi liderlərindən Qamət Süleymanov** isə avropa.info-ya açıqlamasında Zöhrab Şıxəliyevin silah-sursat saxlamasına inanmadığını deyib. Ancaq görünən odur ki, Sumqayıtda radikal qruplara qarşı əməliyyatlar davam edəcək. Çünki xüsusən də son illərdə bu şəhərdə radikal dini qrupların tərəfdarlarının fəallaşması hökuməti narahat edir.

Yada salaq ki, Sumqayıtda ötən ilin dekabrında radikal dini qrupların tərəfdarları arasında silahlı qarşıdurma olub. Ümumiyyətlə, Sumqayıt son illərdə dini cəhətdən xeyli dərəcədə fəal bir şəhərə çevrilib. Bir sıra silahlı dindar qruplar məhz bu şəhərlə bağlıdır. 2007-ci ildə ölkədə radikal vəhhabilərə qarşı keçirilən əməliyyatlar zamanı ilk dəfə Sumqayıtdan bir qrup şəxs həbs olunmuşdu və o zaman "Sumqayıt camaatı" camaatı ifadəsi meydana çıxmışdı. Həmin vaxt saxlanılanlardan biri də ərəb "Əbu Cəfər" ləqəbli Naif Əbdülkərim əl-Bədəvi olub. Onunla birlikdə daha 17 nəfər MTN tərəfindən həbs olunaraq müxtəlif müddətlərə azadlıqdan məhrum edilib. Bundan başqa, 2008-ci il Bakıda Nərimanov rayon "Cümə" məscidində ("Əbu Bəkr" məscidi) baş verən terror aksiyası ilə bağlı "Sumqayıt camaatı"nın adı keçirdi. Bu qruplaşmanın rəhbəri Azər Misirxanovun adı cinayət işlərində hallanır.

Yeri gəlmişkən, bu qruplaşmanın daha bir üzvü Samir Mehdiyev o zaman istintaqdan yayınaraq gizli yollarla Pakistanın Penjebura, oradan isə Kvetta şəhərinə gəlib. 2010-cu ilin yanvar ayında Milli Təhlükəsizlik Nazirliyinin əməliyyat məlumatı əsasında Samir Mehdiyev Pakistan ərazisində saxlanılıb. 2010-cu il martın 16-da S.Mehdiyev Azərbaycana gətirilib. Həmin vaxt cinayət işində Azər Misirxanov, İlqar Mollaçiyev və Telman Abdullayevin yaratdıqları "Sumqayıt camaatı" silahlı birləşmənin tərkibində "Sahil camaatı" adlı daha bir qrup mövcud olduğu qeyd edilir.

2011-ci ildə Suriyada hökumətə qarşı vuruşan silahlı birləşmələrdəki azərbaycanlılar arasında Sumqayıtdan, o cümlədən "Sumqayıt camaatı"ndan çoxlu sayda insanlar olub. Bunlardan "Cundu-Şam'' silahlı qruplaşmasının tərkibində vuruşan "Sumqayıt camaatı"nın əmiri, "Talış Aqil" ləqəbli Aqil Hacıyev olduğu və bu şəxsin "ən-Nusra" qruplaşması tərəfindən əsir alınaraq edama məhkum edildiyi bildirilirdi.

Bundan əlavə, Suiryada döyüşlərdə öldürülən sumqayıtlılardan biri - "Əbu Yəhya əl-Azəri" "Sumqayıt Camaatı" adlanan dini cərəyanın nümayəndəsi, əsl adı Nicat olan biri idi. Nicat Ömər Şişaninin başçılıq etdiyi "Mühacir və Ənsar Ordusu" briqadasının tərkibində azərbaycanlılardan ibarət qrupa rəhbərlik edib və döyüşlərdə öldürülüb. Hal-hazırda Suriyada savaşan radikal islamçı qrupların tərkibində Sumqayıtdan çoxlu sayda döyüşçülərin olduğu bildirilir.

**Ekspertlərə görə, Sumqayıtda dini təbliğat güclü olub və şəhərdə müxtəlif din və məzhəblərin tərəfdarları çox fəaldır. Bunun bir səbəbi keçid dövründə Sumqayıtda işsizliyin geniş yayılması, missionerlik fəaliyyətinin güclü olmasıdırsa, digər səbəb ənənəvi Azərbaycan şəhərlərindən fərqli olaraq Sumqayıtın "gənclər şəhəri" olması, ənənəvi adətlərin burda ölkənin fərqliliyinə görə yayılması ilə əlaqələndirilir. Müstəqilliyin ilk illərində müəyyən mənada diqqətdən kənarda qalan və böyük işsizlik bumu yaşayan "gənclər şəhəri"ndə xarici missionerlər böyük ölçüdə kök ata bilib. Təbii ki, missioner fəaliyyətlərinin arasında radikal dini cərəyanlar daha çox ağırlıq təşkil edib.**

❑ **Hüseyn DƏMİRÇİ**

## "Sədərək"dəki vəhhabilərlə bağlı şeyxin qudası yox, qardaşı danışıb...

**"Yeni Müsavat"ın ötən sayında "Sədərək"in sahibinin başı dərddə - onu bitirirlər" başlıqlı yazıda "...Hələ bir neçə ay öncə deputat Hacı Qalib Salahzadə parlamentdəki çıxışında "Sədərək" bazarının vəhhabi yuvasına çevrildiyini demişdi",- cümləsi də yer alır. Bu fikrin müəllifi Hacı Qalib Salahzadə deyil, şeyxin qardaşı, deputat Cavanşir Paşazadədir. O, açıqlamasında konkret olaraq belə demişdi: "Azərbaycan böyük ticarət mərkəzlərində, o cümlədən "Sədərək" bazarında vəhhabi təriqətinə mənsub insanlar çoxluq təşkil edir və həmin yerlərdə hüquq-mühafizə orqanları nəzarəti gücləndirməlidirlər".**

Yanlışlığa görə üzr istəyirik.

Qeyd edək ki, həmin fikirlərlə ətraflı bu linkdə tanış ola bilərsiniz:

http://qafqazinfo.az/xeber-birinci-novbd-vhhabilrin-yd-bu-bazarlar-lv-olunmaldr-t74998.html

# Vurhavur və neftin qiyməti



**Samir SARI**

**Başımız qarışıb "Vur, komandir, vur" başlıqlı yazılar yazmağa, dünyada qlobal proseslər gedir. Artıq əli qələm, klaviatura tutan, təbi, həvəsi, vaxtı olan yazı-pozu adamları az qala hərəyə bir "vur, komandir, vur" başlıqlı yazı yazmışıq. Düzdür, bəzən həmin yazıların başlığı sırf təsadüf üzündən başqa cürdür, amma hamısının məzmunu eynidir: "vur, komandir, vur".**

Prinsipcə, mən düşmənin canlı qüvvəsinin və cansız texnikasının vurulmasının əleyhinə deyiləm, hətta tərəfdarıyam ki, daima bizi öldürmək, yurdumuzu yağmalamaq istəyən başıxarab, beynipozuq düşmən yerindəcə vurulmalıdır, heç mıqq da edə bilməməlidir.

Amma ellikcə "vur, vur" deyə bu məsələyə baş vurmağın da yeri yoxdur. Vuran vurub, xidmətini edib, mükafatını alıb, məsələ bitib. Biz də uzun illərdən sonra rəqib qapısına qol vurmağın ləzzətini, coşqusunu yaşamışıq və təkrar-təkrar yaşayırıq. Yaxşı ki, düşmən helikopterinin vurulması anı videoyazıya alınıb, arada yenidən baxırıq. Futbolda da belədir: vurulan qolların təkrarına baxmaq ləzzət edir.

İntəhası, başımızın vurhavura qarışdığı vaxt neftimizin qiyməti dünya bazarında 80 dollardan aşağı düşüb. Yəni bu xüsusda verilən bədbin proqnozlar doğrulub. Dərindən düşünəndə bu xəbər qanımızın qaralmasına səbəb olmalıdır, amma hələlik dərindən düşünmürük.

Əvvəlcə Teksas (ABŞ ştatının adını acığa əsl variantında yazıram, belə olmalıdır) neftinin qiyməti düşmüşdü, ardınca xəbər gəldi ki, bəs Azərbaycan neftinin də qiyməti 80 dollardan aşağı düşüb. Neçə vaxtdır, deyirdilər, neftin qiyməti bir az da düşəcək. Budur düşüb, iqtisadçılar demişkən, psixoloji həddən də aşağı enib.

Bu o deməkdir ki, ölkəmizə gələn yaşıl pullar azalacaq. Pul da elə şeydir ki, o az olanda yaxşı silahlar almaq olmur. Yaxşı silahlar olmayanda göydə quşu gözündən, helikopteri gövdəsindən vurmaq ehtimalı azalır. Belə olanda erməni pilot hava maşınına minib səngərimizin üstündə o tərəf-bu tərəfə uçur, lotuluq edir, sonra qayıdıb öz bazasına gedəndə xidmət yoldaşlarına deyir: "Ara, sən öl, türklər helikopterin səsini eşidib qorxulardından səngərə tülkü kimi girmişdilər".

Amma neftdən gələn pullar çox olanda adam yaxşı silahlar alır, "yer-hava", "İqla" kimi silahlar tədarük edir və erməni pilot bazasına qayıdıb yekə-yekə danışa bilmir, uzağı iki helikopterdən biri qayıdır, o da yerə qonan kimi "ay astvas, dəhşət" deyib bayılır.

Adamın pulu az olanda nəinki səngərdə "vur, komandir, vur" demək olmur, heç stadionda futbolçuya da "vur" deyə bilmirsən. Qayıdıb adam deyirlər, nəynən vurum, necə vurum.

İndi deyirlər ki, Rusiyanın bahalı neftdən gələn pulu artıq düşüb deyə, "vur-vurum" eləyir, gah Gürcüstana, gah Ukraynaya cumur. Düz deyirlər, neft dollarları çox olmasa rus hərbi maşını qonşu dövlətlərə girməzdi, hünəri çatmazdı, Malayziya təyyarəsini göydə vurub salmazdı (Yeri gəlmişkən, o təyyarəni "vur, komandir, vur" tövsiyəsindən sonra vurmuşdular, amma o sərnişin təyyarəsiydi, hərbi helikopter deyildi).

Onu da deyirlər ki, böyük dövlətlər neftin qiymətini ona görə qəsdən, süni şəkildə endirirlər ki, Rusiyanın pul azalsın, aqressiv olmasın.

Bu fikir çox geniş yayılıb. Hətta bizim məhəllənin politoloq-taksiçilərinin şərhi bundan ibarətdir ki, Qərb Rusiyanı boğmaq üçün neftin qiymətini aşağı salır. Onlar bu informasiyanı hardan alır, bu qənaətə necə gəlirlər, bilmirəm, amma bu xüsusda onlar politoloq Vəfa Quluzadə qədər bilirlər və onun qədər danışırlar.

Taksiçi-politoloqlar ermənilərin hərbi helikoperinin vurulmasına görə də çox əndişəlidirlər, deyirlər, dünya birliyi bu cür hərəkətləri alqışlamır, üstəlik, ermənilər də atəşkəsi pozacaqlar, yenə təmas xəttində qırğın olacaq.

**Hər halda əsas odur ki, neft daha da ucuzlaşmasın, əlimiz aşağı düşməsin. Gördüyünüz kimi, dünyada ermənilərin dayısı, havadarı çoxdur, bizim də güman yeriмiz bircə bu neftdir.**

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2012



## Məhkəmə azərbaycanlı biznesmeni həbsdən buraxmadı

### Akif Sayadov Komi Prokurorluğunda "bespredel" hökm sürdüyünü deyib

**Komi Dövlət Şurasının deputatı, azərbaycanlı biznesmen, "Uxtaneftegazgeologiya" ASC-nin baş direktoru Akif Sayadov barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsinə nail ola bilməyib.**

Virtualaz.org Komi KİV-lərinə istinadən xəbər verir ki, Sayadovun vəkilləri onun barəsində oktyabrın 27-də seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilməsi üçün Ali Məhkəməyə müraciət ediblər. Komi Ali Məhkəməsi apelyasiya müraciətinə noyabrın 13-də baxıb və rədd edib.

Azərbaycanda da geniş biznesi olan Akif Sayadov oktyabrın 27-də başqasının ona etibar edilmiş əmlakını mənimsəmək ittihamı ilə həbs edilib. Ona qarşı həmçinin "terrorçu qruplaşmaları maliyyələşdirmək" ittihamının irəli sürülə biləcəyi də açıqlanıb. Sayadov Komi Respublikasının mülkiyyətində olan "Uxtaneftegazgeologiya" şirkətinin 42 milyon rubl vəsaitini mənimsəməkdə günahlandırılır. İstintaqın bildirdiyinə görə o, şirkətin adından bağladığı müqavilələrdə korrupsiyaya və mənimsəmələrə yol verib. Həmçinin o, 2009-cu ilin yanvarından 2013-cü ilin martına qədər 60 dəfə Azərbaycana gedib-gəlib və bu zaman təyyarə biletlərini, yol xərclərini şirkətin hesabından ödəyib.

Sayadov isə bildirir ki, əslində həmin müddət ərzində şirkətin işinə görə dəfələrlə Moskvaya uçmalı olub, oradan isə tez-tez xəstələnən nəvəsinə baş çəkmək üçün Azərbaycana gedib. Sayadovun bildirdiyinə görə, həmin səfərlər üçün biletləri şirkətin mühasibatlığına təqdim etməyib. İl yarım əvvəl isə Azərbaycana səfərlərə görə xərclədiyi pulların hamısını şirkətə qaytarıb.

Məhkəmədə vəkillər Sayadovun səhhətinin yaxşı olmadığını, onun ikinci qrup əlil olduğunu, ürək xəstəliyindən və onkoloji xəstəlikdən əziyyət çəkdiyini bildiriblər. Vəkillərin bildirdiyinə görə, Sayadov son vaxtlar 6 kimyaterapiya kursu keçib. O, hər 28 gündən bir bu kursu təkrar etməlidir. Təcridxanada isə bu müalicə kursunu həyata keçirmək mümkün deyil. Həmçinin vəkillər Sayadovun çoxsaylı mükafatlara layiq görüldüyünü, Rusiyanın fəxri neftçisi olduğunu əsas gətiriblər.

**Məhkəmə iclasında Sayadovun xəstə və əzgin durumda olduğu görünüb. O, Komi Prokurorluğunu söyüb və bildirib ki, prokurorluq onu fiziki olaraq məhv etməyə çalışır. Sayadov Komi Prokurorluğunda "bespredel" hökm sürdüyünü deyib**

## Professor İlham Rəhimova Bolqarıstanın ali mükafatı verildi

### O, "Doktor Xonoris Kauza" elmi dərəcəsinə layiq görüldü

**Sofiya şəhərində hüquq elmləri doktoru, professor İlham Rəhimova Bolqarıstan Elmlər Akademiyasının "Doktor Xonoris Kauza" ali mükafatı təqdim olunub.**

Musavat.com-a verilən eksklüziv məlumata görə, təqdimat mərasimindən öncə professor Rəhimovun Bolqarıstanın hüquq üzrə tanınmış mütəxəssis və elm adamları, qanunvericilik orqanları, ədliyyə, məhkəmə, prokurorluq nümayəndələri, media və QHT təmsilçiləri ilə görüşü keçirilib.

Görüşdə Bolqarıstanda, həmçinin digər Balkan ölkələrində 90-cı illərdən etibarən aparılan dövlət quruculuğu və hüquq siyasəti, ədliyyə strukturlarının mövcud vəziyyəti və aparılan islahatlar, Bolqarıstanın Avropa Birliyinə tamhüquqlu üzvlüyünün ardından bu sahədə baş verən proseslər və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Eyni zamanda, İ.Rəhimovun müəllifi olduğu "Cinayət və cəza", "Cinayət və cəzanın fəlsəfəsi" kitablarının hüquq elminə verdiyi töhfələrdən, əsərlərin alim və tədqiqatçılar üçün əhəmiyyətindən söhbət açılıb. Bolqarıstan elm və ictimaiyyət nümayəndələrinin təkidli istəklərindən sonra, hər iki kitabın bolqar dilinə tərcüməsi və hüquq dərsliyi olaraq tövsiyyəsi qərarlaşdırılıb.

Professor İlham Rəhimov geniş nitqlə toplantı iştirakçılarına xitab edib.

Sofiya simfonik orkestrinin mini resitalından sonra keçirilən təntənəli mərasimlə mükafat Bolqarıstan Elmlər Akademiyasının prezidenti, akademik S.Vodeniçarov və Rəyasət Heyəti üzvləri tərəfindən İ. Rəhimova təqdim edilib. Mərasimdən sonra İlham Rəhimov və qonaq heyət üzvlərinin şərəfinə ziyafət təşkil olunub.

**Səfər çərçivəsində professor İlham Rəhimov Bolqarıstanın vitse-prezidenti xanım Marqarita Popova, parlament sədrinin müavini Yanaki Stoylov və Sofiya meri xanım Yordanko Fandıkova ilə görüşüb. Görüşdə fikir mübadiləsi aparılıb, əməkdaşlıq perspektivləri müzakirə olunub.**







## Azərbaycanlı oliqarx müflis olur

## Beynəlxalq Bank "AST Telman"ın mülkünü əlindən aldı

### Krediti qaytara bilmədiyi üçün bank yəhudi biznesmenin Moskvadakı daşınmaz əmlakının bir hissəsini öz mülkiyyətinə keçirib; ümumi dəyəri 140 milyon dollar olan yarımçıq qalmış mehmanxana ərazisində torpağın bir sotunun qiyməti milyon dollardan yuxarıdır; iş adamının borcları isə milyarda çatır...

**İş adamı Telman İsmayılovun("AST Telman") daha bir biznes obyekti əlindən çıxıb. Moskvada ümumi dəyəri 140 milyon dollar olan yarımçıq qalmış mehmanxananın aktivlərinə Azərbaycan Beynəlxalq Bankı əl qoyub. Belə görünür ki, T.İsmayılov nə vaxtsa Beynəlxalq Bankdan da iri məbləğdə kredit götürübmüş və indi o, krediti qaytara bilmədiyi üçün bank yəhudi biznesmenin daşınmaz əmlakının bir hissəsini öz mülkiyyətinə keçirib. Nikitski bulvarında mehmanxana tikintisi üçün nəzərdə tutulan torpaq sahəsini T.İsmayılovun "AST" şirkətlər qrupu 2004-cü ildə icarəyə götürüb. Oliqarx orada lüks otel-apartament inşa etməyə hazırlaşırdı. Lakin Moskva meriyasının Arxitektura Şurası layihəni bəyənməyib. Şura bu ərazidə otel inşasının ümumi arxitektura ansambla zidd olacağını bildirib.**

T.İsmayılovun icarəyə götürdüyü torpaq sahəsinin yerində "Solovinlərin evi" kimi tanınan və Moskva aristokratiyasına məxsus dördmərtəbəli tarixi mülk yerləşir. Bu ərazidə isə torpağın bir sotunun qiyməti milyon dollardan yuxarıdır. Moskva şəhərinin İnvestisiya layihələrinin reallaşdırılması və şəhər quruculuğu Komitəsinin («Moskomstroyinvest») rəhbəri Konstantin Timofeyev hələ bir müddət əvvəl bildirmişdi ki, əgər ilin sonuna qədər «AST» şirkətləri qrupu həmin torpaq sahəsi ilə bağlı yeni layihə təqdim etməsə və ya ərazini başqa investora verməsə, torpaq sahəsinin geri alınması barədə qərar verəcəklər.

Bu ilin iyul ayında isə Kiyevin keçmiş meri Leonid Çernovetskinin kürəkəni Sergey Yançukovun "Manqazeya" şirkəti T. İsmayılov barəsində Kipr məhkəməsinə şikayət edib. İddiada T. İsmayılovun şirkətə olan 100 milyon dollar borcunun geri qaytarılması tələb olunurdu. İddiaçı tərəf məhkəməyə müraciətində qeyd edib ki, 2010-cu ilin sentyabrında "Sezaria LTD" şirkəti Telman İsmayılovun "Tandum LTD" şirkətinə 1 illik 10%-lə 50 milyon dollar kredit verib. Bu kredit üzrə faizlər hər ay ödənilib və 2011-ci ilin fevralında "Tandum LTD" "Sezaria LTD" daha bir kredit götürüb. Bu dəfə də kreditin həcmi 50 milyon dollar olsa da, amma vəsait iki illiyə götürülüb. Bundan sonra borcun ödəmə müddətlərini uzadan müqaviləsi imzalanıb. Bu müqaviləyə əsasən şirkət bu krediti ödəməyəcəyi təqdirdə öhdəliklər Telman İsmayılovun üzərinə düşür. Ancaq buna baxmayaraq ödəmələr edilməyib. Məhz bu



səbəbdən "Sezaria LTD" şirkəti Kipr məhkəməsinə müraciət edib. Kipr məhkəməsi isə "Mardan Palace"nin bank hesablarını dondurub.

"Manqazeya"nın iddia etdiyi əmlaklar, eləcə də Türkiyədə olan lüks otel kompleksi "Mardan Palace", 3-cü idman dairəsində olan "Safisa" şadlıq sarayı, Qaribaldi küçəsində yerləşən "Marina" ticarət mərkəzləri də vardı. Bu aktivlərin ümumi qiymətini 1,6 milyard dollar qiymətində dəyərləndirilir.

"Manqazeya" qrupunun nümayəndələri "Kommersant" qəzetinə bildiriblər ki, həqiqətən Nikita bulvarı 6/20 ünvanda yerləşən mehmanxana Azərbaycana aid olan Beynəlxalq Bankın nəzarətini keçib.(ANS). Bu da T. İsmailovun borcların yerinə aktivlərin verilməsini kölgə altına qoyur.

2009-cu ildə "Çerkizovsk" bazarının Putinin göstərişi ilə bağlanmasından sonra T. İsmayılov Rusiyanı tərk edib və faktiki olaraq Moskvadakı biznes fəaliyyətini dayandırıb. "AST Telman" ləqəbli oliqarx Rusiyadakı biznes aktivlərini oğulları Ələkbər və Sərxanın, habelə qohumu Zaur Mərdanovun adına rəsmiləşdirib.

T.İsmayılovun əsas nağd gəlirləri «Çerkizovsk» bazarından daxil olduğu üçün bazarın bağlanmasından sonra onun gəlirləri kəskin azalıb. Məlumatlara görə, T. İsmayılov «Bank Moskva»ya olan 107 milyon dollar kredit borcunu ödəmək üçün Moskvada ona məxsus olan «Praqa» restoranını və «Tropikano»nu artıq satıb.

T.İsmayılovun Türkiyədə də işləri yaxşı getmir. Onun 1,5 milyard dollarlıq «Mardan Palace» oteli ziyanla işləyir. İş adamı Türkiyənin dövlət bankı olan «Halk Bank»a on milyonlarla dollar borcludur.

"Mardan Palace" otelinə yatırılan pulları geri qaytarmağın çətin olduğunu iqtisadçılar əvvəlcədən hesablamışdılar. Oteldə nömrələrin qiyməti bir neçə yüz dollardan bir neçə min dollara qədər dəyişir. Dəbdəbəli açılış mərasimi sayəsində məşhurlaşan otelin müştəriləri arasında əvvəllər varlı ərəb şeyxləri, Hollivud ulduzları, iri biznesmenlər olurdu. Ancaq son vaxtlar müştərilər azalıb, Türkiyə qəzetləri yazmışdı ki, mövsüm olmasına baxmayaraq, oteldə yerlərin yarısı boş qalır. T. İsmayılov atasının adını verdiyi otelə yatırdığı pulları geri qaytara biləcəyinə əslində özü də əmin deyildi və müsahibələrinin birində demişdi ki, ola bilsin yatırdığı investisiya heç vaxt qayıtmasın.

**Qeyd edək ki, "AST Telman" azərbaycanlı oliqarxlardan təşkil olunmuş, şərti adı "Milyarderlər İttifaqı" adlanan qurumda təmsil olunurdu. Azərbaycan hakimiyyəti ilə münasibətləri onsuzda yaxşı olmayan T.İsmayılov bu ittifaqa qoşulandan sonra ümumiyyətlə Bakıya gəlməyi yasaq olunub.**

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014

# “Güzgünü sındırmaq olmaz...”

## Ənvər Ağazadə: “Çünki sınıq güzgüdə hakimiyyət özü də çox eybəcər görünəcək”

**Bələdiyyə seçkilərinə start verilsə də, ölkədə seçki abı-havası hiss olunmur. Müxalifət partiyalarının çoxu seçki mühitinin, bələdiyyələrin statusunun olmamasını əsas gətirərək seçkiyə qoşulmadı. Təbii ki, hakim partiya olan YAP bu seçkilərdə inzibati resursları hesabına iştirak edir. Müxalifət partiyaları arasında yalnız Ümid partiya şəklində seçkilərə qatılıb.**



Seçkilərə hazırlığın vəziyyəti ilə bağlı **Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə** suallarımızı cavablandırıb. Ənvər bəylə müsahibəni oxuculara təqdim edirik.

***- Ənvər bəy, seçkilərə hazırlıq necə gedir?***

- Demək olar ki, bu ilin əvvəlindən etibarən bələdiyyə seçkilərinə hazırlıqlarla bağlı partiya müxtəlif tədbirlər həyata keçirib. Partiya funksionerləri dəfələrlə rayonlara səfərlər ediblər, yerli təşkilatlar tərəfindən ilkin namizədlər siyahısı hazırlanıb, regional müşavirələr və namizəd olacaq şəxslərlə görüşlər təşkil olunub. Hətta bir neçə rayonda belə görüşlərdə partiyanın sədri, millət vəkili İqbal bəy şəxsən özü iştirak edib. Yerlərdə partiya fəallarına və namizəd olacaq şəxslərə partiyanın seçkilərə qatılmasının səbəbi və əhəmiyyəti izah olunub. Seçkiyə start verilənə qədər 700 bələdiyyə subyekti üzrə 4000 nəfər namizədimizi müəyyənləşdirmişdik. Təəssüf ki, bir çox namizədlərimizin sənədlər DSK-ya təqdim olunmamış belə onlara namizədliklərini geri götürməklə bağlı təzyiqlər edildi və bəziləri təzyiqlər qarşısında dirəniş göstərmədi.



***-Bəs, nə səbəbdən dediyiniz kimi bəzi namizədlər belə tezliklə namizədliyini geri götürdü?***

- Əsas səbəbdən biri namizədlərin bələdiyyə üzvü seçilməkdə maraqlarının olmaması, digəri isə qohumlarına, ailə üzvlərinə və özlərinə olunan təzyiqlərdir. Onların qohumlarının işdən çıxarılmasının biz də tərəfdarı deyilik. Biz yalnız partiya olaraq üzvlərimizə seçki prosesində iştirak etməsini tövsiyə edirik. Bunun da əsas səbəbi yuxarıda qeyd etdiyim kimi seçki prosesinin, seçki ənənəsinin sıradan çıxmasına imkan verməmək və xalqı prosesə cəlb etməkdir. Buna istədiyimiz qədər nail ola bilməsək də, bütün təzyiqlərə baxmayaraq tutduğumuz bu siyasi xətti davam etdirəcəyik. Bu gün hakimiyyət ölkədə müxalifət partiyalarının çox zəif və tərəfdarlarının olmadığını nümayiş etdirmək istəyir. Əslində bu çox yanlış siyasətdir. Müxalifəti sıradan çıxarmaq olmaz. Müxalifət hakimiyyətin eyiblərini göstərən güzgüdür. Bu güzgüyə baxıb eyibləri düzəltmək lazımdır, güzgünü sındırmaq yox. Çünki sınıq güzgüdə hakimiyyət özü də çox eybəcər görünəcək.

***- Artıq məlumdur ki, yerlərdə namizədlərə təzyiqlər göstərilir. Seçki mühiti də yoxdur. Belə bir şəraitdə seçkidə iştirak etməyin əhəmiyyəti varmı?***

- Keçirdiyimiz görüşlərdə bizə ən çox verilən suallardan biri bu idi ki, bələdiyyələrin heç bir səlahiyyəti, yerlərdə iş görmək üçün maddi resursları yoxdur. Seçkilər isə qeyri-demokratik və ədalətsiz keçirilir. Bələdiyyə üzvlüyünə namizəd olan şəxslərə müxtəlif vasitələrlə təzyiqlər edilir. Belə bir şəraitdə seçkidə iştirak etməyin əhəmiyyəti varmı?

Bu sualı verənlər sözsüz ki, haqlıdırlar və mövcud reallıqdan çıxış edirlər. Bizim partiya olaraq məqsədimiz seçki prosesini sıradan çıxmağa qoymamaqdır. Seçki ilə bağlı barışmadığımız mövcud reallıqları dəyişməkdir. Bunun üçün biz seçkiyə qatılırıq. Baş verən qanun pozuntularına etirazımızı bildiririk. Bəzi qanun pozuntularının aradan qaldırılmasına nail də oluruq. Çox istərdik ki, digər müxalifət partiyalar da seçkilərdən kənarda qalmayaydı. Bu prosesin getməsinə daha çox təsir edərdi, daha çox insanı seçkiyə cəlb edərdi və ən azından hakimiyyətin məsuliyyətini artırardı.

***-Bəs namizədlərə hansı formada təzyiqlər göstərilir?***

-Bir neçə gün əvvəl baş verən pozuntular və namizədlərimizə olan təzyiqlərlə bağlı partiya adından bəyanat vermişik. Oktyabrın 6-dan etibarən Ümid Partiyasından bələdiyyə seçkilərində namizəd olacaq partiya üzvlərinə qarşı total hücumlar başlayıb hələ də davam edir. Belə ki, MSK-ya təqdim olunmuş namizəd olacaq şəxslərin siyahısı həmin qurum tərəfindən rayon icra hakimiyyətlərinə göndərilib. DSK-lara sənəd təqdim olunmamış yerli icra hakimlərinin göstərişi ilə partiyadan namizədlikləri irəli sürüləcək şəxslər həmin siyahı üzrə icra hakimiyyətlərinə çağırılır, evlərinə polis göndərilir, onların qohumlarına, ailə üzvlərinə və özlərinə təzyiqlər edilir, namizədlərin sənədləri DSK-ya təqdim olunmadan qanunsuz olaraq namizədliklərinin irəli sürülməsindən xəbərsiz olduqları və namizədlikdən imtina ilə bağlı onlardan ərizə alınır. Bu demək olar ki, bütün bölgələrdə baş verir. Ola bilsin ki, bəzilərində bir az yüngül, bəzilərində isə daha ağır formada aparılır. Sabirabad, Lerik, Lənkəran, Ağcabədi, Cəlilabad, Salyan , Ağsu və başqa bölgələrdə bu proses daha intensiv aparılır. Baş verənlər ciddi qanun pozuntusudur və seçkilərin nəticələrini indidən şübhə altına alır, hakimiyyətin məqsədini bir daha ortaya qoyur və hakimiyyətin seçki prosesinə yanaşması ilə bağlı təsdiq edir. Lakin bütün təzyiqlərə baxmayaraq biz prosesi sona qədər aparacağıq.









**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# İqbal Ağazadə APA-nı təbrik etdi

**Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Vüsalə Mahirqızını APA-nın yaranmasının 10 illiyi münasibətilə təbrik edib. Təbrikdə deyilir: “Hörmətli Vüsalə xanım! Sizi və APA Holdinqin bütün əməkdaşlarını 10 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, işlərinizdə və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.**

Siz öz istedadınız, təşkilatçılığınız və yaradıcılıq qabiliyyətinizlə bu gün Azərbaycan mətbuatının, jurnalistikasının inkişafında özünəməxsus yeri olan, bir-necə dildə xəbərlər yayan, təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində maraqla izlənilən böyük bir mətbuat holdinqi yaratmısınız. Bu 10 illik zaman cərçivəsində çox böyük nailiyyətlər qazanmısınız. İnanıram ki, ölkəmizin demokratikləşməsində, azad mətbuatın inkişafında APA-nın özünəməxsus yeri olacaq.

Hörmətli Vüsalə xanım, bir daha Sizi və bütün kollektivinizi ürəkdən təbrik edir, gələcək fəaliyyətlərinizdə uğurlar diləyirəm.

**❑ Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə**



YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014



# Mikroblar, seçkilərə!

Zamin HACI
zaminhaci@gmail.com

**Keçən yazıda söz verdiyim mövzuya - bələdiyyə seçkilərinin təşviqat plakatları mövzusuna toxunacağam. Yəqin hər biriniz küçədə-filanda görmüsünüz, Mərkəzi Seçki Komissiyası xalqı bələdiyyə seçkilərində iştirak eləməyə çağıran, A 2 formatlı, palaz boyda plakatlar çap edib.**

Plakatlar hardasa 10 fərqli məzmundadır (məzmun haqda az sonra). Bunların 10 cür çap edilməsi istər-istəməz bizi tiraja baxmağa məcbur edir. Plakatların sağ aşağı küncündə bunların hamısının “Parlaq Print” MMC adlı naməlum bir təşkilat tərəfindən çap edildiyi yazılıb. “Naməlum” ona görə yazıram ki, özüm bir “print”, yəni, çap sahəsi zəhmətkeşi olsam da bu gülməşəkər MMC-nin adını ilk dəfə oxuyurdum. Çağdaş dövrümüzdə adı “Google” axtarış sisteminə məlum olmayan bir quruma yetərincə böyük dövlət vəsaiti etibar edilərmi? (Vəsait haqda da az sonra).

İnternetdə bu “məşhur” şirkət haqda cəmi 1 məlumata rast gəlinir, bu da onun ünvanı haqda məlumatdır: Yasamal rayonu, Şərifzadə-80, ev 6. Maraqlıdır ki, bu adresdə bir neçə belə MMC qeydiyyatdan keçib, ehtimal etməyimizə əsas var ki, bunlar hamısı MSK sədri Məzahir müəllimə doğma şirkətlərdir. Pis mənada “doğma” yazmıram, el bilir ki, Məzahir müəllim hələ universitetdə talon paylayan vaxtlarından bəri necə kristal adamdır. Yoxsa biz ona “nə üçün plakat çapı tenderlə, müsabiqə ilə keçirilməyib, bu fırıldaqdan nə qədər qatlamısan, utanmırsanmı bu qədər xırdaçılıq edirsən” tipli suallar verib özümüzü şərə sala bilmərik. Böhtandır. Yaraşmaz. Ağsaqqal adamdır. Elçiliyə-zada aparsan alınacaq qızın üstündə bir dənə də oğlan verərlər.

Plakatların tirajına gələk. Təsəvvür edin, bunlar hər biri 100.000 (yüz min) tirajla çap edilib! Yalnız birində 80.000 yazılmışdı. Çeşid və tirajı vurub-toplasaq belə çıxır ki, Məzahir müəllim bələdiyyə seçkilərində təşviqat məqsədi ilə... 1 milyon ədədə yaxın təkcə plakat çap edibdir! (Buklet-muklet, yaddaş kitabçası-zad sayılmadan). Yenə çap işi ilə məşğul olan yoldaşların dediyinə görə, bu ölçüdə plakatların 1 ədədinin çapı orta hesabla 10 qəpiyə başa gəlir. Belə çıxır ki, MSK bu mənasız plakatların çapına 100 min manatdan çox dövlət vəsaiti xərcləyibdir.

“Belə çıxır” niyə yazdım, onu da izah edim. Azərbaycanda 125 seçki dairəsi var. 1 milyon seçki təşviqatı plakatını bu dairələr arasında bölsək hər dairənin qismətinə 8 minə yaxın plakat düşür. 8 min A2 formatlı plakatı dairə ərazisinə yapışdırsaq, həmin dairədə bir salamat divar qalmaz, bəlkə adamları tutub belinə də plakat yapışdırarlar, hələ artıq qalar. Deməli, tiraj böyük ehtimalla yalandan yazılıb.

Nəhayət, adamlardan söz düşmüşkən, bu il bələdiyyə üzvlüyünə 20 minə yaxın adam seçilməlidir, Allah qoymasa. Hər bələdiyyə üzvünə 50 plakat düşür. O cümlədən, Azərbaycanda seçici sayı 5 milyon 50 min nəfərdir. Orta hesabla, yenə hər 5 adama 1 plakat düşür. Bu xərci tualet kağızına sərf edib bələdiyyələrə hədiyyə versəydilər daha məzmunlu olardı.

Məzmun demişkən, Məzahir müəllim əksər plakatlara nədənsə... böyüdücü şüşə şəkli qoyub. Hətta birində mikroskop təsviri var idi. Bu nə deməkdir? Yoxsa seçicilər siyahılarda öz adlarını çox çətin tapırlar, Məzahir müəllim gileyini, seçki saxtakarlığını bu cür simvolik işarə edir, hakimiyyətə üsyana qalxmışdır? Qətiyyən. Yuxarıda yazdığımız kimi, Məzahir müəllim “əsl müsəlmandır”.

**Böyüdücü şüşə o deməkdir ki, azərbaycanlı seçicilər mikrobdur, virusdur, bakteriyadır, birhüceyrəli canlılardır, hakimiyyət onlara ancaq bu gözlə baxır. Uğur olsun, mikroblar!**

# Müsavatdakı narazılar üç şərt irəli sürdülər

## Partiyadan onlara sərt cavab verildi; “Təşkilatla üzvlərin, yaxud üzvlərlə partiyanın münasibətləri bəyanatlarla deyil, nizamnamə ilə tənzimlənir”




**Müsavat Partiyasının narazı üzvləri noyabrın 14-də partiyanın rəhbərliyi qarşısında şərtlərini yer aldığı bəyanat yayıblar. Musavat.com-a daxil olan bəyanatda 18 nəfər üzv Müsavat Partiyasının rəhbərliyi qarşısında məsələ qaldıraraq onun həlli üçün 3 şərt qoyub.**

**Bəyanatda bildirilir ki, son zamanlar Müsavat Partiyasında hazırkı rəhbərlik tərəfindən bir qrup üzvlərin iradəsinə təzyiq yolu ilə partiya daxilindəki idarəçilikdən narazı olan, onun gələcəyi ilə bağlı narahatçılıq keçirərək konkret mövqelərini bölüşən üzvlərə qarşı “cəza vermək” çağırışlarını əks etdirən bəyanatların qəbulu, tənqidi mövqedə olan üzvlərin bəzilərinin partiya sıralarından çıxarılması, digərlərinin isə cəzalandırmaq məqsədilə mərkəzi orqanlara dəvət edilməsi ciddi narahatçılıq doğurmaqdadır:** “Müsavat Partiyası Qubadlı rayon təşkilatının qərarı ilə partiya üzvü Məhəbbət Muradovun və partiyanın Mərkəzi Nəzarət-Təftiş Komissiyasının qərarı ilə partiyanın Qaradağ rayon təşkilatının üzvü Kamil Xəlilbəylinin partiya sıralarından kobud nizamnamə pozuntuları ilə çıxarılması üzvlər arasında mərkəzi orqanların və hazırkı rəhbərliyin fəaliyyətinə etimadsızlığın artmasına, eləcə də qeyri-qanuni, qeyri-demokratik qərarlarla partiyada repressiyaların başlanması ilə bağlı məlumatların yayılmasına səbəb olub. Müsavat Partiyası Divanının sonuncu toplantısında partiya üzvləri Müsavat Partiyası başqanlığına sabiq namizəd Səxavət Əlisoy və partiyanın MNTK-nın keçmiş üzvü Əlövsət Talışxanlının Divanın növbəti iclasına çağırılması ilə bağlı qərarı, Sumqayıt şəhər təşkilatının üzvü, keçmiş siyasi məhbus Ənvər Əhmədin partiya sıralarından xaric olunması məsələsinin müzakirəyə çıxarılması hazırkı vəziyyətin daha da gərginləşdirilməsinə gətirib çıxarıb”.

**Bəyanatı imzalayan 18 nəfər (Qubad İbadoğlu, Vurğun Əyyub, Hikmət Hacızadə, Mehman Cavadoğlu, İbrahim İbrahimli-MNTK-nın sabiq sədri, Məryəm Oruclu, Fəxrəddin Bağırov, Hökümə İbrahimli, Adil Qeybulla, Ellada Məmmədli, Dünyaxanım Cahan, Hüseyn Məlik, Sədaqət Paşayeva, Lətafət Məlikova, Tural Abbaslı, Rafiq Bəy İsmayıl, Asif Məmmədli, Allahverdi Orucov) Müsavat Partiyasının hazırkı rəhbərliyi qarşısında aşağıdakı məsələləri qoyublar və onların təcili həllini tələb ediblər:** “Partiya daxili demokratiyanın inkişafı üçün yaradılan baryerlər aradan qaldırılsın, siyasi plüralizm, fikir müxtəlifliyi, söz və ifadə azadlığına əməl olunsun, fərdi azadlıqlara hörmət olunaraq şəxsi mövqelərə görə partiya üzvlərinin cəzalandırılması çağırışlarına son qoyulsun.

Partiya üzvlüyündən mövqelərinə görə çıxarılmış Elman Elxanoğlunun, Məhəbbət Muradovun və Kamil Xəlilbəylinin hüquqlarının bərpası olunması üçün konkret addımlar atılsın və bu barədə qərar vermiş strukturlar məlum qərarlarına yenidən baxaraq onu nizamnamə normalarına uyğunlaşdırsınlar. Partiyada ikitirəliyə, bölüşdürücülüyə şərait yaradan, dialoq, polemika imkanlarını məhdudlaşdıran, birlik və həmrəyliyə əks mövqe ifadə edən bəyanatların qəbuluna son qoyulsun".

**Narazıların bəyanatına Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı** münasibət bildirdi. S.Soltanlı dedi ki, narazı olan kimsə varsa, aidiyyəti partiya orqanlarına şikayət edə bilər, bəyanat yazıb mediada yaymaqla iş həll edilmir: “Bu, növbəti şoudur. Onlar səmimidirlərsə, partiyanın müvafiq orqanlarına rəsmi şəkildə yazılı müraciət edə bilərdilər. Bəyanat yazıb mediada yaymaq səmimiyyətdən yox, başqa məsələlərdən xəbər verir. Kimlərinsə partiyanın işini iflic etmək cəhdləri əbəsdir. Belə məsələləri şişirtmək, şou göstərmək lazımsız fəaliyyətdir. Onlar qəzet və saytlara deyil, bu məsələlərlə bağlı Müsavat Partiyasının strukturlarına müraciət etməlidir. Bu haqda Müsavat Partiyası qərar verə bilər. Belə bəyanatlara qalsa, 200 insan müraciət edə bilər ki, Vurğun Əyyub və Səxavət Soltanlı partiyadan çıxarılsın. Biz o zaman nə etməliyik? Partiya ilə üzvlərin, yaxud üzvlərlə partiyanın münasibətləri bəyanatlarla deyil, nizamnamə ilə tənzimlənir”.

**S.Soltanlı onu da qeyd etdi ki, Nizamnamə pozuntusuna yol verdikləri üçün partiyadan çıxarılan şəxslər 6 aydan sonra üzv olmaq üçün yenidən Müsavat Partiyasına müraciət edə bilərlər. Bu insanların narahatçılığı üçün əsas yoxdur:** “Müsavat Partiyasının nizamnaməsinə görə üzvlərin qəbulu və çıxarılması rayon təşkilatlarının özəklərində, Şura, İdarə Heyəti, Divan və MNTK tərəfindən apa-rıla bilər”.

**Müsavatın müttəfiqi olan Əhrar Partiyasının sədri Vaqif Hacıbəyli** isə dünən özünün facebook səhifəsində qeyd edib ki, faciə tək onda deyil ki, Qubad İbadoğlu və qeyriləri yalan danışır. Əsas faciə odur ki, Musavat camaatı daxilində bu cür yalanların bəzən ayaq tutub yerimməsi üçün şərait var: “Bu şəraitin yaranmasının əsas səbəbi də Müsavatın mənəviyyat simvolları kimi qəbul etdiyimiz bəzi simaların tam üzdə olan bu həqiqətlərdən bixəbər kimi özlərini aparıb, yaxşı halda susqunluq nümayiş etdirmələri, pis halda Müsavata qarşı hakim irtica tərəfindən aparılan mənəvi terrora açıq və ya üstüörtülü siyasi dəstək vermələridir. İndi Müsavat ətrafında yaradılan bu situasiyada susmaq və mövqe bildirməmək də hər bir vicdanlı adamdan məsuliyyət tələb edir. Mən adlar çəkmirəm. Lakin bəzi adamların bu gün guya siyasət aparıb özlərini bu situasiyanın fövqündəki kimi göstərmək cəhdləri də günümüzün acı reallığıdır. Xeyirlə şər, haqla nahaq, yalan və həqiqət üz üzə gələndə mövqesizlik, bitərəflik əslində mənəviyyatsızlıqdır”.

V.Hacıbəyli ikinci statusunda isə yazıb ki, o adlar çəkməmişdi, amma Müsavatın mənəviyyat simvolları kimi qəbul etdiyimiz bəzi adamların da imzaları ilə paylaşılan bəyanatda bir sıra tanınmış müsavatçılar partiyadaxili “repressiyalara” etiraz bildiriblər. Repressiyalara misal olaraq üç nəfərin adı çəkilir, onlardan biri də qadın müsavatçını söydüyü üçün partiyadan çıxarılan şəxsdir: “Bu cür söyüşün şəxsi yazışmada işlədilməsi həmin şəxsin cinayət məsuliyyətindən azad olunması üçün hüquqi əsas ola bilər, lakin bu hal onu siyasi və mənəvi məsuliyyətdən azad etmir. Qubadlıdan olan müsavatçının da mövqeyi buradan hamıya məlumdur. Əvvəlcə bütün körpüləri yandırmaq, hətta Müsavatın rəhbərliyini ”hakimiyyət tulaları" adlandıranlara dəstək vermək, bundan sonra hemin partiyada qalmaq üçün mücadilə etmək nə dərəcədə məntiqlidir? Başlıcası, insanlara qarşı açıq həqarət edənləri nə adla müdafiə etmək olar? Mən bu adamların hansı kriteriyalar əsasında hərəkət etdiklərini anlamaqda çətinlik çəkirəm. Amma bu adamların mövqeyinin Müsavatdakı qeyri-sağlam proseslərin təşəkkülündəki yeri və rolu mübahisəsizdir. Müsavat birbaşa hakimiyyətin planlaşdırdığı və yönətdiyi mənəvi terror aksiyasıyla üz-üzədir və bunun qarşısı alınmalıdır".

❑ **E.SEYİDAĞA**

# Seçkilərə bir il qalmış minimum gözləntilər işığında

**Azərbaycanda növbəti parlament seçkilərinə tam bir il qaldı. Ölkədə bu seçkilərin yaxınlaşdığına heç nəyin dəlalət etmədiyinə təəccüblənməyə dəymir. Hələlik siyasi gündəmdə dekabr bələdiyyə seçkiləridir. Hərgah, bələdiyyə seçkiləri mahiyyət etibarilə bizdə ənənəvi olaraq nə KİV-lərin, nə də cəmiyyətin və siyasi elitanın (iqtidar və müxalifət düşərgəsinin) diqqətini çəkmir və qapalı, formal rejimdə keçir.**




# Siyahılı parlament təcrübəsindən imtina ediləcəkmi?

## Artıq hakimiyyət də anlayır ki, indiki taleyüklü mərhələdə Azərbaycana daha təmsilçi Milli Məclis lazımdır; deputat korpusunun ənənəvi formalaşma prinsipi dəyişməsə, itirən həm də iqtidarın özü olacaq...

**Parlament seçkiləri isə ayrı məsələdir. Ötən illərdə bu seçkilərə ölkənin bütün qüvvələri -hakimiyyət, müxalifət, kütləvi media, müxtəlif sosial qruplar və ali qanunverici orqanda təmsilçilik arzulayan ambisiyalı fiqurlar olduqca böyük maraq göstərdilər. Lakin 2010-cu ildəki, faktiki, rəqabət elementlərindən xali mübarizə nəticəsində, tamamilə birpartiyalı, nəzarət altında olan parlamentin formalaşması ilə başa çatan seçkilərdən sonra onlara maraq həm cəmiyyətdə, həm də müxalifət düşərgəsində xeyli söndü.**

Əgər qarşıdakı bir ildə iqtidar parlament seçkilərinə və deputat korpusunun formalaşdırılmasına münasibətini dəyişməsə, o zaman cəsarətlə ehtimal eləmək olar ki, gələnilki seçkilər də təxminən bələdiyyələr kimi, “səssiz” rejimdə keçəcək. O halda parlament hər hansı mübahisə və intriqalardan bütünlüklə məhrum olacaq, çünki nəticə öncədən bəlli olacaq.

Son illər hakimiyyət strukturları cəmiyyətin bütün sferalarını demokratik seçkilərin keçirilməsini praktiki olaraq mümkünsüz edən və seçki prosesində hər hansı rəqabətliliyi və yarışı aradan qaldıran bir vəziyyətə çatdırmaqda çox uğur qazanıb. Növbəti seçkilərə qalan bir illik müddətin analizi böyük əminliklə söyləməyə əsas verir ki, əgər hakimiyyətin yeni deputat korpusunun formalaşmasına münasibətdə yanaşmasını dəyişməsə, o halda gələn ilki seçki kampaniyası öz formallığına görə əvvəlki bütün seçkiləri kölgədə qoyacaq.

Belə ehtimal üçün əsaslar bəs deyincədir: problem ondadır ki, toplum seçki prosesinə etimadını xeyli dərəcədə itirib, ona laqeyddir və siyasətsizləşib; müxalifət elə dağınıq, marginal və zəif duruma çatdırılıb ki, nə seçkilərdə iştirak, nə də boykot ona siyasi divident vəd eləmir; QHT və KİV-lərin demək olar, hamısı hakimiyyətin sərt pressinqi və ya nəzarəti altındadır ki, bu da sonuncuya seçki prosesinə zəruri monitorinq və informasiya müşayiətçiliyi yaratmağa imkan yaradır.

Görünür, beynəlxalq təşkilatlar da qarşıdakı parlament seçkilərinə xüsusi maraq göstərməyəcək və yalnız formal iştirak və aşağıdakı ənənəvi növbətçi qiymətləndirmə ilə kifayətlənəcəklər: seçkilər beynəlxalq standartlara uyğun olmayıb, bununla belə ... doğru yolda irəliyə daha bir addım atılıb. Ancaq hara doğru yolda addım atılıb - teatrlaşdırılmış seçki tamaşaları və öncədən seçki nəticələri bəlli olan sovet keçmişinə? Bu cür perspektiv nəyimizə lazımdır ki?..

Gələn ilki parlament seçkiləri müstəqillik dönəmində sayca 4-cüsüdür. İlk ikisi (1995 və 2000) Heydər Əliyevin prezidentliyi dövrünə təsadüf edir. Hər iki seçki saxtalaşdırma və parlamentin sovet dövrünə xas olan “siyahı” ilə formalaşması rejimində keçib. 2005-ci il seçkiləri də istisna olmadı, hərgah o, bir qədər fərqli siyasi şəraitdə - yeni hakimiyyətin “patronajlığı” və beynəlxalq birliyin ciddi nəzarəti altında keçmişdi. Fəqət, bu reallıqlara və gözləntilərə rəğmən, seçki prosesi əvvəldən axıradək öncələrdəki imitasiya sxemi üzrə getdi və yenə də ali qanunverici orqanın “siyahı” əsasında formalaşması ilə yekunlaşdı. 2010 seçkiləri isə lap “neosovetizm”in apofeozu (zirvəsi, təntənəsi - red.) oldu: seçkilər ifrat dərəcədə formal atmosferdə reallaşdı və yüz faizli sözəbaxan, idarəolunan və nüfuzsuz bir Məclisin yaranması ilə yadda qaldı.

Xatırlatmağa dəyər ki, sovet dövründə parlamentə (SSRİ və müttəfiq respublikaların Ali Sovetlərinə) seçkilər açıq-aşkar formal xarakter daşıyıb. O zaman seçicilərin iradəsindən asılı olmayaraq o şəxslər deputat olurdular ki, namizədlikləri öncədən ali partiya orqanları tərəfindən müəyyənləşirdi. Totalitar sovet dövlətində qanunverici orqanda kişilərin və qadınların, kommunistlərin və bitərəflərin, həmçinin, müxtəlif etnosların, peşələrin, sosial təbəqələrin və yaş qruplarının təmsilçilərinin hansı faizdə olması ilə bağlı gizli və planlı bir qəlib vardı. Bu direktiv qəlibə uyğun surətdə də ali partiya orqanları artıq seçkilərədək “lazımlı deputatların” siyahısını tutaraq, məhz onların seçilməsini (təyin edilməsini) təmin edirdilər.

Əfsuslar olsun ki, Azərbaycanda illərdir məhz parlamentin bu cür “siyahı” ilə formalaşdırılmasının modifikasiya olunmuş formasından istifadə olunur. Ancaq əgər əvvəllər seçki prosesi az “sovetsayağı” idisə və cəmiyyətdə böyük maraq doğururdusa, həmçinin özündə rəqabətlilik və yarış kimi demokratik elementlər daşıyırdısa, axır bir neçə ildə seçki prosesi bütünlüklə liberal halədən və siyasi intriqadan məhrum formal prosedurun əsirinə çevrilib.

Üstəlik, parlamentin “siyahı” üzrə formalaşmasına yanaşmanın özü yaxşı tərəfə dəyişməyib. Əgər əvvəllər “planlı siyahılarda” müxalifət, vətəndaş cəmiyyəti təmsilçiləri, müstəqil qruplar və şəxslər üçün müəyyən kvota nəzərdə tutulurdusa, son parlament seçkilərində bu minimal kvotalar da kəsilib. Nəticədə ilk dəfə olaraq, biz faktiki surətdə siyasi plüralizmin bütün elementlərindən məhrum olan parlament qazanmışıq.

İnanmaq istərdik ki, belə “birsimalı” parlament təcrübəsinin perspektivsizliyini və zərərini indi ölkənin ali hakimiyyət strukturları da dərk edir. Bu yaxınlarda Ramiz Mehdiyevin dövlət strukturlarına yüksək peşəkarlığa malik, yaradıcı və perspektivli kadrların lazım olması barədə bəyanatı, həmçinin hakimiyyət dəhlizlərindən bəzi dolayı “informasiya sızmaları” daha rəqabətli və intriqalı parlament seçkiləri modelinə qayıdılacağını, habelə yeni deputat korpusunun formalaşdırılması məsələsində pozitiv yeniliklərin olacağını güman etməyə əsas verir.

Əlbəttə ki, hakimiyyətin həqiqi dürüst seçkilər keçirməyə və ali qanunverici orqanın “siyahı” ilə formalaşmasından imtina etməyə hazır olduğunu söyləmək tez olardı. Lakin əgər deputat mandatlarının “alınıb-satılması”na xidmət edən bütün korrupsioner yarıqlar qapadılsa, əgər “siyahılı yanaşmaların” özü ayrı-ayrı namizədlərin hər bir yer uğrunda mübarizəsinin mümkünlüyü kimi başa düşülsə, onda bu, irəliyə doğru müəyyən addım olacaq.

Əgər hakimiyyət hələlik real rəqabətli və plüralist seçki prosesinin elektoral variantını istəmirsə və ya buna qərar verə bilmirsə, o zaman heç olmasa, özünün kadr yenilənməsi hədəflərinin işığında plüralizm və rəqabətliliyin idarə olunan, özü üçün təhlükəsiz, ölkə üçünsə daha məqbul variantını, həm də seçkilərə buraxılan namizədlərin ifrat seleksiyası çərçivəsində sınaqdan çıxara bilər. Bu, parlamentin “siyahı üzrə” formalaşması kimi arxaik sovet üsulu ilə Qərbin azad seçkilər modeli arasında aralıq kompromis faza olardı.

**Söz düşmüşkən, hazırkı mərhələdə İran seçki təcrübəsinin azca dəyişdirilmiş formasından da istifadə eləmək olar: hansı ki, seçkilərədək namizədlərin seçilməsi və seçkiyə buraxılmasının sərt seleksiyası aparılsa da, seçkilərin özü düzgün keçirilir. Hər halda artıq hamı anlayır ki, indiki həyəcanlı, problemli və taleyüklü mərhələdə Azərbaycana seçki gedişində hakimiyyətlə cəmiyyətin birgə səyləri ilə formalaşa biləcək, milli-dövlət maraqlarına və müasir dövrün tələblərinə cavab verəcək daha təmsilçi parlament lazımdır.**

❑ **Analitik xidmət**

# Bir il siyasi burulğanda



Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Düz bir il əvvəl, elə bu günlərdə bütün dünyanın gözü Ukraynaya dikilmişdi, əsas xəbər başlıqları da bu ölkə ilə bağlı idi. Məhz bu ölkənin hansı səmtə üz tutacağı Avropanın, eləcə də dünyanın gələcək taleyini müəyyən edəcəkdi...**

Avropa ilə assosiativ sazişin imzalanmasına vur-tut iki həftə qalırdı. Ölkənin əsəblərini tarıma çəkən səbəblər də göz önündə idi. Son ana kimi prezident Viktor Yanukoviç qətiyyətli mövqe nümayiş etdirmədi. Əslində ölkə də onu gözləyən sınaqları göz altına almışdı...

İndi o günlər haqda fikir demək asandır. Amma az qala 350 il böyük rus şovinizminin hədəfində olan Ukrayna da Rusiyadan birdəfəlik üzülüşmək üçün belə tarixi fürsəti əldən vermək istəmirdi. Əslində ukraynalıların ruslara “moskal” deməyi, rusların isə “xoxol” kinayəsi məhz əsrlər boyu formalaşan nifrətin təzahürləri idi. Tarix boyu Rus imperiyası demək olar ki, bütün qanlı-qadalı müharibələri məhz Ukrayna ərazisində aparmışdı və tapdanan da Ukrayna xalqı olmuşdu. Hətta II dünya müharibəsini də bu ölkənin əhalisinin böyük bir hissəsi müstəmləkə zülmündən qurtarmaq fürsəti saymışdı. Axı məhz müharibədən bir qədər əvvəl sosializm quruculuğunun yaratdığı aclıq epidemiyasının qurbanı da bu xalq olmuşdu. Ukrayna “qolodomorda” 7 milyon insan itirmişdi. Daim kinayə və təhqirlə üz-üzə qalan bu olaylar tarixi yaddaşda silinməz izlər buraxmışdı. Rus imperiyasından gördüyü zülmün qədərinə görə yalnız Polşa bu ölkə ilə müqayisə oluna bilərdi.

Bir il əvvəl Ukraynada yaşananlar əslində bütün zülmlərin qarşılığında intiqam almaq fürsəti idi. İndi bütün səbəbləri ölçüb-biçəndə, istər-istəməz bir qənaətə gəlirsən: Ukraynanın başqa seçimi də yox idi...

Yadındadırmı, lap son məqama qədər Yanukoviç Avropa Birliyi ilə assosiativ sazişə qol çəkmək qərarını bildirmədi. Yalnız son məqamda imza atmaqdan imtina etdi. Bu olduqca primitiv bir gediş idi. Rusiya isə həmin günlərdə bu ölkəyə bütün mümkün güzəştləri təklif etdi. Amma kükrəyən qəzəbi, nifrəti ovutmaq üçün bu yetərli olmadı...

2013-cü ilin 21 noyabrı tarixə XXI əsrin ən möhtəşəm günü kimi yazıldı - Maydan hərəkatı başladı. İndi kimsə iddia edə bilər ki, bütün bunlar əvvəlcədən düşünülmüş plan əsasında həyata keçirilirdi. Amma üç aydan çox sürən aramsız mitinqlərin özəyində bir istək dayanırdı - Rusların caynağından xilas olmaq!

Sonrakı olaylar nə qədər qanlı-qadalı olsa da, bu xalqın nəyin uğrunda mübarizə apardığına haqq qazandırdı. Ruslar bu dəfə ən ifrat yol tutdular - Krımı işğal etdilər, ən həyasız formada iki vilayətdə separatizm ocağını alovlandırdılar... İndi hadisələrin axarının hansı səmtə yönələcəyi haqda qəti fikir yürütmək çətindir - amma bir şey bəllidir, Putinin yeni imperiya yaratmaq istəyi iflasa uğradı. Hətta tamah dişini qıcadığı başqa respublikaları zor gücünə işğal etsə belə, ona qarşı mübarizənin Ukrayna nümunəsi var...

Biz bir toplum kimi Rusiyanın niyyətlərini həyata keçirməsi yolundakı Ukrayna səddindən sonra da həyəcanlı anlar yaşayırıq. Bu 23 ildə pis-yaxşı nə qazanmışıqsa onun puç olacağı qorxusu başımızın üstünü alıb. Qərb bir qədər geciksə də, Ukraynanı Rusiyanın çəngindən qoparmaq üçün mümkün resursları işə saldı. Çox təəssüflər olsun ki, qeyri-müəyyənlik zolağında qalan Azərbaycan üçün belə qətiyyət nümayiş etdiriləcəyinə də ümid etmirik. Bunun üçün bizim ölkə işdə, əməldə Avropa ilə bir sırada dayandığını sübuta yetirməli idi. İndi bizim bu cür ehtiyatkarlığımızın qarşılığında Qərbin radikal addım atıb, bizi Rusiyanın hədələrindən qoruyacağı da xəyali təsir bağışlayır...

Tarixin təkəri geriyə fırlanmır. Müəyyən çalarlarda olmuşlar təkrarlanır, amma istənilən nəticəyə heç kim nail ola bilmir. İndi hansısa bir bölgəni, ya da ayrıca bir dövləti dünyadan təcrid edib idarə etmək mümkün deyil. Dünya qlobal informasiya məkanına dönüb. Ən azından mütləq şərtləri də qəbul etdirmək mümkün deyil.

**Ukraynada son bir ildə baş verələr dünyada necə fundamental dönüş yarandığına bir nümunədir. Nədənsə Rusiya prezidenti və onun komandası məhz onun ölkəsinin dominantlıq etdiyi bir sistemin - SSRİ-nin dağılmasının tarixi zərurət olduğunu dərk etmirlər. Rusların özünü də əzablı günlər yaşamağına sürükləyirlər.**

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Azərbaycandan İrəvana növbəti xəbərdarlıq:

# "Dərhal vurulacaq!"

## Müdafiə Nazirliyi: "Hansı silahdan istifadə olunub-olunmaması ilə bağlı heç bir qadağa yoxdur"

## Azad İsazadə: "Ermənilər bununla demək istəyirdi ki, "biz sərbəstik, istənilən yerə uça bilərik"



**Azərbaycan Müdafiə Nazirliyi Ermənistana məxsus hərbi helikopterin vurulduğu ərazidəki son vəziyyəti açıqlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, noyabrın 12-də Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən Ağdam rayonunda vurulmuş Ermənistana məxsus hərbi helikopterin düşdüyü ərazidə hazırda vəziyyət normaldır, sakitlikdir.**

Müdafiə Nazirliyi bəyan edir ki, erməni tərəfinin iddia etdiyi kimi, heç də helikopterin düşdüyü yerdə intensiv atışma getmir. "Trend"in məlumatına görə, helikopterin qalıqlarının və həlak olduğu ehtimal edilən erməni hərbçilərinin meyitlərinin ərazidən çıxarılması əməliyyatları ilə bağlı məlumat verilməyib.

***

Dağlıq Qarabağda qeyri-qanuni şəkildə keçirilən hərbi təlimləri izləmək üçün Azərbaycanın işğal olunmuş torpaqlarına gələn Ermənistan prezidenti Serj Sərkisyan noyabrın 13-də işğalçı rejimin ordusunun komanda heyəti ilə müşavirə keçirib.("Media forum") Sərkisyan Azərbaycanın işğal altında olan Qarabağ zonasına hərbi vertolyotla gəlib. Cani prezidentin hərbi vertolyotdan endiyi Xocalı aeroportundan foto və videokadrlar da yayılıb. Sərkisyan onu qarşılayan hərbçilərlə görüşəndən sonra işğalçı ordunun təlimlərini izləyib. 2008-ci ildə ilk dəfə prezident seçiləndən bəri Serj Sərkisyan 18-ci dəfədir Dağlıq Qarabağa gəlir.

### Sərkisyan blef edib, yoxsa?..

Maraqlıdır, əgər Azərbaycan Hərbi Hava Qüvvələri ölkənin hava məkanına tam nəzarət edirsə, erməni prezident necə olub onların nəzərindən yayınaraq Xankəndi aeroportuna enib?

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı S.Sərkisyanın işğal olunmuş ərazilərə gəlməsinə şübhə ilə yanaşdığını vurğuladı: "Erməni mənbələrinin bu barədə məlumatının nə dərəcədə doğru olduğunu deyə bilmərəm. Azərbaycanın hava məkanı tam nəzarətdə saxlanılıb. Düşmən yaranmış ajiotajı səngitmək üçün bu metoddan istifadə edə bilər". V.Dərgahlı erməniləri dezinformasiya yaymaqda ittiham etdi: "Ermənilər bundan əvvəl məlumat yaymışdı ki, öncə cəbhədə "İqla"dan istifadə olunmamalıdır. Ancaq hansı silahdan istifadə olunub-olunmaması ilə bağlı heç bir qadağa yoxdur". Nazirlik sözçüsü qeyd etdi ki, Azərbaycan ərazisində olan istər havada, istər yerdə olsun, fərqi yoxdur, düşmənin qüvvələri məhv ediləcək. V.Dərgahlı bunun üçün ön cəbhədəki əsgərin xüsusi icazə almasına ehtiyac olmadığını qeyd etdi: "Müdafiə Nazirliyinin rəhbərliyin birmənalı olaraq düşmənin hərəkət edən hərbi obyektlərinin məhv edilməsi barədə qərarı var. Bu mənada yalnız mülki obyektlər istisnadır". MN əməkdaşı düşmənin vertolyotla bağlı digər iddialarını da təkzib etdi: "Əsgərlərimi görüb ki, düşmən təxribatçı hərəkətlər edir, bizim mövqelərimizə atəş açır. Bundan sonra cavab atəşi açaraq onu məhv ediblər".

***

Ermənistan Silahlı Qüvvələri işğal altındakı Azərbaycan ərazilərində keçirdikləri "Birlik-2014" təlimlərində ötən gün hava hücumundan müdafiə vasitələrindən praktik atışlar keçirib. APA ttps://apa.az/-nın Ermənistana məxsus internet saytlarına istinadən verdiyi məlumata görə, erməni silahlı birləşmələri "Osa" zenit-raket kompleksi (NATO kodu SA-8 Gecko) ilə keçirdikləri atışların fotolarını yayımlayıblar. Atışların hansı ərazidə keçirildiyi barədə məlumatlar verilməyib. Qeyd edək ki, ermənilərin açıqladığı rəsmi məlumata görə, təlimlərə 47000 nəfərlik şəxsi heyət, 2100 artilleriya sistemi, 850 zirehli texnika, 450 ədəd hava hücumundan müdafiə vasitəsi, 1600 tank əleyhinə vasitə, 260 xüsusi texnika və 4200 avtomobil texnikası cəlb olunub. Bir neçə gün əvvəlki məlumatlarda cəmi 17 minlik canlı qüvvədən və daha az hərbi texnikadan sphbət gedirdi. Görünür düşmən daha böyük rəqəmlər açıqlamaqla Azərbaycanı təhdid etməyə çalışır.

### Düşmənin qənimi -"İqla"

Qeyd edək ki, düşmənin döyüş helikopteri "İqla" daşınan zenit raket kompleksi ilə məhv edilib. Bu barədə noyabrın 13-də Müdafiə Nazirliyinin keçirdiyi tədbirdə məlumat verilib. Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində ölkədə akkreditə olunmuş 13 ölkənin hərbi attaşesinin iştirakı ilə tədbir keçirilib.

"İqla" daşınabilən zenit raket kompleksi SSRİ hərbi sənayesinin məhsuludur. Alçaqdan uçan hava hədəflərini (təyyarələr, vertolyotlar, pilotsuz təyyarələr, qanadlı raketlər) dəqiqliklə məhv etmək üçün yaradılan "İqla" 1983-cü ildən sovet ordusunda silahlanmaya alınıb. Sovet İttifaqının süqutundan sonra isə Rusiya və digər MDB ölkələrinin arsenalında bu silahdan geniş istifadə olunub. 1994-cü ildən Rusiya bu raket komplekslərini Almaniya, Suriya, Polşa, Hindistan da daxil olmaqla 30-dan artıq ölkəyə satıb. "İqla-S" raketi 6 kilometrə qədər uzaqlıqda, 10-3500 metrə qədər yüksəklikdə yerləşən hava hədəflərini məhv edir. 5 saniyəyə döyüş vəziyyətinə gətirilən "İqla" 14,2 kiloqram çəkiyə malikdir, kompleks mənfi 50 dərəcədən müsbət 50 dərəcəyə qədər dəyişən temperaturda aktivliyini saxlayır.

Beynəlxalq reaksiyalar

ABŞ ATƏT-in Minsk Qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında tərəflərə kömək göstərməkdə davam edəcək. Gün.az ABŞ Dövlət Departamentinin rəsmi saytına istinadən xəbər verir ki, bunu Dövlət Departamentin sözçüsü Cen Psaki mətbuat konfransında deyib. "Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması səylərini iki qat artırmağın zəruriliyini



diplomatik kanallar vasitəsilə hər iki tərəfə çatdırmağa çalışırıq" deyə, Psaki əlavə edib. Onun sözlərinə görə, 12 noyabrda baş verən insident bir daha atəşkəsə riayət etməyin mühümlüyünü və münaqişənin dinc yolla həllinin vacibliyini xatırladır.

İngiltərənin "The Guardian" qəzeti yazır ki, Ermənistan silahlı qüvvələrinin helikopterinin vurulması uzun müddətli münaqişənin yenidən alovlana biləcəyini göstərdi. Qəzet bu ilin avqustunda cəbhədə 14 Azərbaycan əsgərinin həlak olmasını xatırladıb və həmin insidenti 1994-cü ildə bağlanan atəşkəs sazişindən sonra ən qanlı insident kimi təqdim edib. (ANS) Azərbaycana dəstək açıqlamaları da var. Pakistanın sabiq XİN başçısı Əkram Zəki "Axı nə üçün işğalçı dövlət işğal edilmiş Azərbaycan torpaqlarında hərbi təlimlər keçirməlidir? Bu fakt ermənilərin işğalçı dövlət olduqlarını birbaşa sübut edir"deyə, bildirib.

Rusiya Azərbaycan və Ermənistanı gərginliyin artmasına aparan addımlardan çəkinməyə çağırıb. Gün.az xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Aleksandr Lukaşeviç mətbuat konfransında deyib.

"Azərbaycan Ermənistan Silahlı Qüvvələrinə aid hərbi helikopteri vurmaqla, həmsədrlər qarşısında üzərinə götürdüyü heç bir öhdəliyi pozmayıb". APA-nın məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib. O qeyd edib ki, 2012-ci ildə Azərbaycan XİN tərəfindən ATƏT-in Minsk Qrupunun həmsədrlərinə göndəril məktubda da bildirilmişdi ki, Azərbaycanın hava məkanında Ermənistana aid hərbi təyyarə və ya digər vasitələr qeydə alındığında dərhal vurulacaq.

### Mİ-24 fərqi: Azərbaycan-70, Ermənistan - 11

İndiki gərgin situasiyada hər iki ordunun gücü, imkanları, sahib olduğu texnikaya nəzər salaq.

2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 135 milyon ABŞ dolları olduğu halda, 2013-ci ildə 3,7 milyard ABŞ dolları təşkil edib. 2014-cü il üçün hərbi büdcəmiz 3 milyard 800 milyon dollar civarındadır. Ermənistan 2013-cu il dövlət büdcəsinin bütövlükdə gəliri 2,9 mlrd. dollar (Azərbaycanın yalnız hərbi büdcəsindən 900 milyon ABŞ dolları az), xərcləri isə 3,1 mlrd. dollar olub. Həmin il Ermənistan dövlət büdcəsində hərbi xərclər 495,3 mln ABŞ dollarına (149,6 mlrd. dram) çatdırıb. Azərbaycan ordusu 126.400 nəfərlik şəxsi heyətə malikdir, ehtiyatda isə 550 minlik əsgəri var. Ermənistanda 60 min əsgərə və 320 min nəfər əlavə ehtiyat qüvvəyə malikdir. Məlumatlara görə, işğal olunmuş Azərbaycan ərazilərində ermənistanlı çağırışçılarla yanaşı, 3.200 muzdlu da xidmət edir.

Azərbaycan hərbi texnikanın sayına görə də düşməni xeyli üstələyir. Ordumuzdakı Mi-24 hücum helikopterlərinin sayı 70-dir. Ermənistandakı 12 ədəd Mi-24 helikopterlərindən isə biri artıq məhv edilib. Azərbaycandan fərqli olaraq, Ermənistan ordusunda pilotsuz uçan qırıcılar yoxdur, bundan başqa, Ermənistanın hərbi sənayesi yerli silah və texnika istehsalı baxımından çox aşağı səviyyədədir.

"Dağlıq Qarabağda məskunlaşmış qondarma rejimin illik büdcəsi 150 milyon dollardır. Bu rejimin dəyəri 8-12 milyon dollar olan helikopter alması imkansızdır". Bunu axar.az-a açıqlamasında Milli Məclisin Təhlükəsizlik və Müdafiə komitəsinin sədr müavini Aydın Mirzəzadə deyib. O, Ermənistanın vurulan helikopterlə bağlı məsuliyyəti üzərindən atmağa çalışdığını bildirib: "Ermənistan ictimaiyyəti Ağdamda vurulan helikopterin guya Dağlıq Qarabağdakı işğalçı rejimə məxsus olmasına inandırmağa çalışır. Dağlıq Qarabağda məskunlaşmış qondarma rejimin illik büdcəsi 150 milyon dollardır. Bu rejimin dəyəri 8-12 milyon dollar olan helikopter alması imkansızdır".

### Türk generalın nişan aldığı düşmən

Qeyd edək ki, ötən həftə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının Xüsusi Təyinatlı Qüvvələr komandanı diviziya generalı Zekai Aksakallının Azərbaycana səfəri çərçivəsində ordu rəhbərliyi ilə görüşlər keçirdi, həmçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə cəbhə bölgəsində yerləşən hərbi birlikdə oldu. Generalın düşmənlə birbaşa təmas xəttində yerləşən bölmələrdə olması, Ermənistan tərəfindən işğal olunmuş əraziləri döyüş mövqeyindən (binoklla) müşahidə etməsi, "Türkiyə daima Azərbaycanın yanındadır" mesajını verməsi, "İstiqlal" snayper tüfənginin texniki göstəriciləri və döyüş imkanları ilə maraqlanandan sonar əlinə snayper tüfəngini götürərək işğal olunmuş əraziləri müşahidə edərək nişan alması da müzakirələrə səbəb olmuşdu. Məhz bu olayın ardınca düşmən helikopterinin məhv edilməsi diqqət çəkir. Türk generalın səfəri ilə helicopter olayı arasında əlaqə ola bilərmi?

Hərbi ekspert Azad İsazadə fərqli fikirdədir. Onun sözlərinə görə, Türkiyə-Azərbaycan hərbi təlimlərindən və türk generalın cəbhə xəttinə səfərindən sonra Ermənistanın hərbi təlimlərə başlaması cavab xarakterli təxribatdır: "Türkiyə generallarının Azərbaycana vaxtaşırı səfərləri olur və istisna etmirəm ki, bu səfərlər gərginliyi bir az da artırır, düşmən daha da aqressivləşir. Ermənilər bu təxribatla türk generalın ön cəbhəyə səfərinə cavab hazırlaya bilərdilər. Çox güman ki, bu, təxribat idi, düşmən yoxlamaq istəyirdi ki, Azərbaycan risk edib vertolyotu vuracaq, ya yox. Kadrlara baxsaq görürük ki, vertolyot bizim mövqelərə yaxınlaşandan sonra qayıtmaq istəyir, o anda da vurulur. Əslində heikopter onu idarə edənlərin səhvinə görə vuruldu. Onlar istəsəydi bir az tez manevr edərdilər. Bizimkilər məsafəni gözlədilər və düşmən təhlükəli zonaya daxil olanda atəş açıldı. Ermənilər bununla demək istəyirdi ki, "biz sərbəstik, istənilən yerə uça bilərik". Ancaq son hadisə nəticəsində onların təxribatı alınmadı".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

# QAT üzvləri Kəlbəcər girovları üçün aclıq aksiyasına başlayıb

## Aksiya iştirakçıları beynəlxalq təşkilatlara, Azərbaycan hakimiyyətinə və cəmiyyətinə müraciət qəbul ediblər

**Qarabağ Azadlıq Təşkilatının üzvləri noyabrın 14-də aclıq aksiyasına başlayıblar. Təşkilatdan "mediaforum" saytına verilən məlumata görə, aksiya ermənilərin girov saxladığı Dilqəm Əsgərov və Şahbaz Quliyevin taleyinə beynəlxalq təşkilatların göstərdiyi biganəliyə və Azərbaycan hakimiyyətinin bu məsələdə fəaliyyətsizliyinə etiraz olaraq keçirilir.**




Aksiya iştirakçıları BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqını, ayrıca olaraq ATƏT-in Minsk Qrupunu işğalçı Ermənistanın bu qanunsuz hərəkətlərinə, girovlara işgəncə verilməsinə, saxta "məhkəmə prosesi"nə dözməməyə, biganəliyə son qoyaraq günahsız insanları erməni cinayətkarlarının əlindən almağa çağırır, həmçinin Azərbaycan hakimiyyətindən girovları xilas etmək üçün ən radikal addımları atmağı tələb edir.

Aksiyaya ilk olaraq Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı, təşkilatın İdarə Heyətinin üzvü Nəsib Cəfərov, Ali Məclisin üzvləri Tahir Bayramov, Rəhman Cəfərov və digərləri qoşulublar.

Girov Dilqəm Əsgərovun qardaşı Sahib Əsgərov, qardaşı arvadı Cəmilə Musayeva, döyüş yoldaşı Sevindik Məmmədov və digərləri aksiya iştirakçılarına baş çəkiblər.

Həkim Zöhrab Şirinov aclıq edənlərin sağlamlıq durumunu yoxlayıb.

Aksiya iştirakçıları beynəlxalq təşkilatlara, Azərbaycan hakimiyyətinə və cəmiyyətinə müraciət qəbul ediblər. Müraciətdə bu tələblər əksini tapıb:

**1.** BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, Qırmızı Xaç




Komitəsinin rəhbərləri azərbaycanlı girovlarla bağlı məsələni təcili müzakirəyə çıxarmalı, girovların Azərbaycana qaytarılması üçün təsirli addımlar atmalıdır.

**2.** ATƏT-in Minsk Qrupunun həmsədrləri 22 illik mənasız və nəticəsiz fəaliyyətdən sonra, heç olmasa indi bir iş görməli, məsələyə ciddi müdaxilə etməlidir.

**3.** İslam Əməkdaşlıq Təşkilatı azərbaycanlı girovlarla bağlı təcili müzakirələr keçirməli, təsirli tədbirlər görməli, quruma daxil olan ölkələrin işğalçı Ermənistanla bütün əlaqələri kəsməsinə dair qərar qəbul etməlidir.

**4.** Noyabrın 12-də cəbhə xəttində vurulan hərbi helikopterdəki ermənilərin meyitlərinin yalnız azərbaycanlı girovlar azad edildikdən sonra geri qaytarılmasına imkan verilə bilər.

**5.** Azərbaycan hakimiyyəti işğalçı Ermənistanla danışıqları dayandırmalı, girovların azad edilməsi üçün lokal hərbi əməliyyat keçirməli, sonra isə torpaqlarımızın azad edilməsi üçün genişmiqyaslı hərbi əməliyyatlara başlamalıdır.

Xatırladaq ki, oktyabrın 27-də işğalçı Dağlıq Qarabağ rejimi Kəlbəcərdə ermənilərin əlinə keçmiş azərbaycanlılar Şahbaz Quliyev və Dilqəm Əsgərovu mühakimə etməyə başlayıb. İşğalçı rejim bu iki azərbaycanlını iyul ayında girov götürüb. Daha bir azərbaycanlı - Həsən Həsənov öldürülüb. Həsən Həsənovun nəşi qarşı tərəfdən oktyabrın 2-də alınıb, oktyabrın 4-ü Bakıda dəfn edilib.

**Noyabrın 12-də Azərbaycan ordusu işğal olunmuş ərazilərdə döyüş uçuşları keçirən Ermənistan Silahlı Qüvvələrinə məxsus Mi-24 hərbi helikopterini məhv edib. Nəticədə döyüş helikopterinin Ermənistan Hərbi Hava Qüvvələrinin zabitlərindən ibarət ekipaj üzvləri (ümumilikdə 3 nəfər) məhv olub.**

# Ev dustağı olan şirkət rəhbəri şəhərdə gəzir

## Vidadi İsgəndərli deyir ki, "Amay" tikinti şirkətinin rəhbəri Əli Nağıyevin adından sui-istifadə edərək vətəndaşları aldadıb

**Bakıda üzərində cinayət işi olan dələduz "Amay" tikinti şirkətinin rəhbəri azadlıqda gəzir. Hüquq müdafiəçisi Vidadi İsgəndərlinin "Yeni Müsavat"a verdiyi məlumata görə, "Amay" rəhbəri Qasım Hüseynovla bağlı Ağır Cinayətlər Məhkəməsində iş gedir. Ancaq ev dustaqlığına buraxılan şirkət rəhbəri nə prosesdə iştirak edir, nə də aldatdığı payçıların mənimsədiyi pulu geri qaytarır. V.İsgəndərlinin sözlərinə görə, Q.Hüseynov özünü Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəis müavini Əli Nağıyevin xalası oğlu kimi təqdim edib. Bu təqdimatla vətəndaşlardan 200 min, 350 min və daha sonra 500 min manat alıb: "Bu pulun qarşılığında rəhbəri olduğu "Amay" firmasının Ayna Sultanova heykəli yaxınlığında tikdiyi binalardan mənzillər vəd edib. Ancaq sonradan məlum olub ki, vətəndaşları aldadaraq pullarını mənimsəyib, heç bir mənzildən söhbət gedə bilməz".**

Hüquq müdafiəçisinə aldadılan payçılardan biri - Zamiq Məmmədov müraciət edib: "Qasım Hüseynov bu vətəndaşa qarşı da dələduzluq edib. Ondan 70 min manat alıb, "Amay" firmasının tikdiyi binadakı mənzilin sənədini verib.

Hüquq - mühafizə orqanlarına müraciətdən sonra iş araşdırıldı. Aydın oldu ki, Qasım Hüseynov daha əvvəl Türkiyə vətəndaşı olan bir qadından 500 min, digər iki vətəndaşdan ayrı-ayrılıqda 200 min manat alaraq onları aldadıb.

Bu vətəndaşların şikayəti əsasında Səbayel Rayon Polis İdarəsində baş müstəntiq Ziya Əliyevin icraatında cinayət işi olub. Səbayel rayon Məhkəməsi onun haqqında üç aylıq həbs qəti-imkan tədbiri seçib. Firma rəhbəri həbsdə olduğu və istintaq getdiyi müddətdə iş apelyasiya məhkəməsinə göndərilib. Dələduzluq ittihamı ilə tutulan Qasım Hüseynov barədə Apelyasiya Məhkəməsi qərar çıxarıb və onu ə məhkəmə zalından azad edib".

**V.İsgəndərli qeyd etdi ki, ona müraciət edən Zamiq Məmmədovun işi ilə bağlı Nizami rayon Məhkəməsinə müraciət edib:** "Apelyasiya məhkəməsi bu adam haqda qərarı ev dustaqlığı ilə əvəz edib. Hazırda iş Ağır Cinayətlər Məhkəməsində gedir.

İş hakim Ramella Allahverdiyevanın icraatındadır. Qasım Hüseynov nə məhkəməyə gedir, nə üzə çıxır. Guya ev dustağıdır, amma sərbəst şəkildə azadlıqda gəzir. Bizim də Nizami rayon Məhkəməsinə müraciətimiz olub. Ancaq 4 aylıq axtarışlardan sonra tutulan Qasım Hüseynovla bağlı apelyasiyanın çıxardığı qanunsuz qərarı Nizami rayon Məhkəməsi təkrarladı.


Vidadi İsgəndərli

Hakim Elnur Nuriyev onu zaldan açıb buraxıb. Nizami rayon prokurorluğu isə məhkəmənin bu qərarını protest edib. Yəni, həm Baş Prokurorluq, həm Daxili İşlər Nazirliyinin mövqeyi budur ki, bu dələduz şirkət müdiri həbs edilsin. Ancaq məhkəmələr fəmidanı tapdalayıb, qanunsuz qərar çıxarıblar".

**Hüquq müdafiəçisi ölkə başçısına, baş prokurora, ədliyyə nazirinə müraciət olunduğunu qeyd etdi:** "Qasım Hüseynovun həbsinin ev dustaqlığına dəyişdirilməsi qanunsuzdur. Biz məhkəmənin qərarından apelyasiya şikayəti vermişik.

Bizdə olan son məlumata görə, artıq prokurorluq cinayət işini apelyasiya məhkəməsinə göndərəcək. Sözsüz ki, prokurorluğun vəsatətləri sevindirici haldır. Əgər apelyasiya məhkəməsi onu bu dəfə də buraxsa, artıq məhkəmə sisteminin korrupsiya yuvasına çevrildiyinin şahidi olacağıq. Çünki dələduzluq əməli törətmiş şəxsi minimum 6 il cəza gözləyir.

Necə olur ki, üç ay cəza çəkdiyi halda istintaqın ortasında apelyasiya məhkəməsi onu azad edir? Bu sual Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədova ünvanlanır. Biz ümid edirik ki, apelyasiya bu işə ədalətli baxacaq".

❑ E.SALAMOĞLU

# Dörd hərbi komissar işdən çıxarıldı

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 4 rayon şöbəsinin rəisi işdən çıxarılıb.**

APA xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Arzu Rəhimov müvafiq əmr imzalayıb.Əmrə əsasən, xidmətin İmişli və Saatlı rayon şöbələrinin rəisləri yaş həddi ilə əlaqədar təqaüdə göndəriliblər. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir və Gəncənin Kəpəz rayon şöbələrinin rəisləri isə tutduqları vəzifədən azad edilərək sərəncama götürülüblər.

# Vurulan erməni vertolyotu və demokratiyanın bərqərar olunması



**Azər RƏŞİDOĞLU**

**Son "vertolyot olayı" bu millətin qələbəyə necə təşnə olduğunu bir daha sübuta yetirdi. Bu millət qələbə istəyir. Ona imkan verilsə, qalib olacaq, qəddini düzəldəcək, torpağını azad edəcək, eyni zamanda, demokratiyanı bərqərar edəcək.**

"Qarabağ" futbol klubunun oyununu 30 min azarkeş ayaq üstə izləyirdi. Döyüşdə məğlub olan xalq qələbəyə tamarzı qaldığını bununla nümayiş etdirirdi.

Artıq 20 ildir ki, bizləri məğlubiyyətimizlə barışmağa, ağlamağa, matəm saxlamağa, daima yasda olmağa vadar ediblər. Artıq 20 ildir ki, millət öz məğlubiyyəti ilə barışdırılıb. Qisas hüququ əlindən alınan millətə yalnız bir haqq tanınıb - ağlamaq və matəm saxlamaq. Alçaldıcı vəziyyətdir. Qisas və savaş barədə düşünmək əvəzinə ən yaxşı halda ağlamaq, ən pis halda isə ermənilərdən üzr istəmək haqqına sahib çıxan bir millətin sabahı parlaq ola bilməz. Bu gün kimlərsə şüurlu şəkildə millətin ruhunu sındırır. Onu miskin vəziyyətə salır. Qələbəsi olmayan, yalnız saysız-hesabsız məğlubiyyətləri olan millətlərin gələcəyi də ola bilməz.

20 il öncə Qarabağın itirilməsi və yaxud müstəqilliyimizin əldən getməsi barədə düşünə belə bilməzdik. Bu gün bu bizlərə sıradan bir məsələ təsiri bağışlayır.

Bu millətə bircə parlaq qələbə lazımdır. Bircə qələbənin həzzi torpaqların tam azad olunması ilə yanaşı demokratiyanın da bərqərar olması ilə sonuclana bilər. Qələbə qazanan milləti isə heç kəs yarı yolda saxlaya bilməz. Yəqin ki, elə bu səbəbdən də milləti matəm içində, məğlubiyyət atmosferində yaşatmaq istəyirlər.

Telekanallar mütəmadi olaraq, ağlaşmanı təbliğ edirlər. Vətənpərvərlik ruhu, milli dəyərlər nəinki təbliğ olunmur, əksinə, utanc ünvanına çevrilir.

Bütün bunlar şüurlu şəkildə həyata keçirilən siyasətdir.

Azərbaycan xalqını bu gün də birləşdirən yeganə amil Qarabağın işğal altında olmasıdır. Mövcud reallıqlar Qarabağı qaytarmağa imkan vermir. Bunu gözəl dərk edən iqtidar Qarabağı unutdurmağa çalışır. Heç də təsadüfi deyil ki, son 20 ildə vətənpərvərliyi cılız şoular əvəzləyib. Bu da təsadüfü deyil. Xalq korrupsiyaya, özbaşınalıqlara, hüquqlarının pozulmasına dözə bilər. Lakin Qarabağ əleyhinə atıla biləcək hər hansı bir addımı bağışlamayacaq və buna dözməyəcək. Azərbaycanda heç bir siyasi qüvvə Qarabağın ermənilərə verilməsini bəyan edə bilməz. Bu həmin siyasətçinin intiharı demək olardı. Bu baxımdan, Azərbaycanda ictimai rəy Qarabağ məsələsində olduqca həssasdır. Bu müstəvidə atılan istənilən addıma anındaca kəskin reaksiyalar verir.

Son 20 ildə Qarabağın qaytarılması istiqamətində heç bir əməli addım atılmadı. Elə bircə bu fakta görə insanların hazırkı iqtidardan üz çevirməsi tam məntiqidir. Lakin Qarabağ məsələsi bütövlükdə Azərbaycan cəmiyyətinin problemidir. Hakimiyyətə milli-vətənpərvər qüvvələrin gəlməsi ilə bu problemin həlli istiqamətində əməli addımlar atıla bilər. Bu isə bölgədə sabitliyin pozulması və Qərbin enerji təhlükəsizliyinin zədə alması qorxusu yaradır. Supergüclər heç bir halda Qarabağ savaşının yenidən alovlanmasına imkan vermək istəmirlər. Odur ki, indidən bu problemi həll etmək və savaş variantını bir dəfəlik gündəlikdən çıxartmaq arzusundadırlar. Əgər Azərbaycanda Qarabağ məsələsində köklü güzəştlərə gedə biləcək siyasi qüvvə mövcud olsa idi, onun iqtidara gətirilməsi siyasi güc mərkəzləri üçün cəlbedici olardı.

Azərbaycanda hər ötən il Qarabağı bizdən daha da uzaqlaşdırır. Əslində, elə bu kurs da elə buna hesablanıb.

Odur ki, bu kursa etiraz etmək lazım gəlir. Torpaqlarımızın azadlığı uğrunda savaşın başlanması başları neft pullarını yerbəyer eləməyə qarışan məmurların isti aşına soyuq su qata bilər.

Hər bir Azərbaycanlı Qarabağsız yaşayışı rəzillik hesab edir. Qarabağla bağlı emosiyalar o dərəcədə gərginləşib ki, son nəticədə xalq qəzəbi vulkan kimi püskürə bilər. Son aylar "əsgər ölümlərinə son" devizi ilə keçirilən aksiyaların da əsas hədəfi Qarabağın qaytarılmasıdır.

**Qarabağı azad edə bilməyən hakimiyyətin bu xalqı uzun müddət təmsil etmək hüququ olmayacaq. Odur ki, Qarabağda qələbə lazımdır...**

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014

# İlin sonunda əfv ərizəsi yazan siyasi məhbuslar azad edilə bilər

## Hakimiyyət sabiq səhiyyə naziri Əli İnsanovu da azad etmək istəyir



Əli İnsanov

**Dünya Azərbaycanlılarının Həmrəylik günündə - 31 dekabrda növbəti əfv fərmanı verilə bilər. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, əfv siyahısında yalnız bağışlanma üçün prezidentə müraciət edən siyasi məhbusların adları olacaq. Hazırda belə siyasi məhbusların sayı 9-dur. Onların çoxu NİDA Vətəndaş Hərəkatının həbsdəki üzvləridir.**

Qaynağımız bildirib ki, hakimiyyət sabiq səhiyyə naziri Əli İnsanovu da azad etmək istəyir. Bu barədə əvvəllər də yazılıb. Hazırda Əli İnsanovla intensiv danışıqlar getmir - lakin ona zamanında edilən təkliflər hələ də qüvvədədir. İnsanov əfv ərizəsi yazmalı, daha sonra isə müalicə adı ilə ölkədən çıxmalı, uzun müddət mühacirətdə qalmalıdır. Qeyd edək ki, hazırda eyni davranışları həbsdən prezident əfvi ilə çıxmış sabiq nazir Fərhad Əliyev həyata keçirir.

Ölkə mediasından da məlum olduğu kimi, hüquq müdafiəçisi Sahib Məmmədov keçmiş səhiyyə naziri Əli İnsanovun azadlığa buraxılacağı haqda yayılan məlumatlardan danışıb. İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun üzvü olan S.Məmmədov "Trend"ə deyib ki, Əli İnsanovun azadlığa buraxılacağı ilə bağlı yayılan məlumatların əsası yoxdur: "İşçi Qrupunda hamının məsələsi müzakirə oluna bilər, amma bununla bağlı tövsiyə verilib-verilməməsi məsələsi var. Əli İnsanov barəsində heç bir qərar qəbul etmək mümkün deyil. O, nə vaxtından əvvəl şərti azad olunmaq üçün məhkəməyə şikayət verir, nə də əfv üçün müraciət edir. Bu hüquqi prosedurlardan ən azı biri olmalıdır ki, Əli İnsanovun məsələsinə baxılsın. Olmadığı halda, onunla bağlı hökumət nə qərar qəbul edə bilər ki?" S.Məmmədov əlavə edib ki, Birgə Qrupa iki yeni üzv qəbul olunub: "Yeni üzvlərdən biri daxili işlər nazirinin müavini - Baş Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis general-leytenantı Fazil Quliyev, digəri isə hüquq müdafiəçisi Əvəz Həsənovdur".

**Ə.İnsanov siyasi motivlərlə dəmir barmaqlıqlar arxasına salınan ən stajlı məhbusdur. Oktyabrın 19-da onun həbsinin 9-cu ili tamam oldu. YAP-ın qurucularından biri olan Əli İnsanov 2005-ci ildə tutulub, iqtisadi cinayətlərdə təqsirli bilinərək 11 il müddətinə azadlıqdan məhrum edilib. 2013-cü il martın 14-də İnsanovla bağlı qərarını açıqlayan Avropa İnsan Hüquqları Məhkəməsi sabiq nazirin işgəncə və ədalətli məhkəmə hüququ üzrə iddialarını təmin edib. Qərara əsasən, Azərbaycan hökuməti İnsanova 10 min avro kompensasiya da ödəməlidir. Ötən ilin noyabrında Ali Məhkəmə Əli İnsanovun işinə dair Bakı Apelyasiya Məhkəməsi və Ali Məhkəmənin qərarlarını ləğv edib. İşə dair Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmənin qərarı dəyişdirilməyib və araşdırılmaq üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilib. Məhkəmə sabiq nazirin barəsində olan hökmün dəyişdirilmədən saxlanılması qərarını veriblər. Ə.İnsanov bu qərara "məni sındıra bilməyəcəksiniz" nidası ilə reaksiya verib.**

❑ E.MƏMMƏDƏLİYEV

# Paytaxtın "yağlı tikəsi" uğrunda mübarizə daha da qızışdı

## "Yeni Müsavat"ın yazdıqları təsdiqləndi; Abutalıbovun adamı Ziya Məmmədovun rəhbərlik etdiyi nazirlikdən soruşur: "Axı parkomatın onlara nə aidiyyəti var?"



**Nəqliyyat Nazirliyi ilə Bakı Şəhər İcra Hakimiyyəti arasında parkomatlar üstündə dava qızışıb. "Yeni Müsavat"ın ötən sayında xəbər vermişdik ki, Nəqliyyat Nazirliyi bəyan edib ki, paytaxtda ödənişli müvəqqəti duracaqlarda quraşdırılan parkomatlar nəqliyyat vasitələrinin fəaliyyətinə böyük maneə törədir.**

Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyat İdarəsinin Bakı Regional Şöbəsinin rəis müavini Əmrah Cəfərov nəqliyyatda yaranmış problemlərə görə meriyanı suçlamışdı: "Nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş cibliklər mövcuddur. Lakin onların yerində mülki avtomobillər dayanır. Həmçinin avtobuslara, taksilərə imkan verilməməsi, parklanma ilə bağlı böyük çətinliklər yaşanır. Parkomatların ucbatından parklanan nəqliyyat vasitələri az qala avtobusların içinə girir. Onların fəaliyyətinə imkan vermir". Yazıda onu da qeyd etmişdik ki, nəqliyyat naziri Ziya Məmmədovla Bakı meri Hacıbala Abutalıbov arasında münasibətlər biznes rəqabətinə görə çox "sərindir". Çünki paytaxtda bu cür "yağlı tikənin" Abutalıbovun nəzarətinə keçməsi ilə Nəqliyyat Nazirliyi barışa bilmir. Üstəlik mer şəhər təsərrüfatında nəqliyyat naziri Ziya Məmmədova aid bir sıra sahələri öz nəzarətinə alır. Bakı Şəhər İcra Hakimiyyətinin ittihamlara cavabı özünü gözlətməyib.

**"Trend"ə açıqlamasında BŞİH-in Xüsusi Təyinatlı Avtonəqliyyat İdarəsinin (XTAİ) rəisi Həsən Abdullayev deyib ki, Nəqliyyat Nazirliyinə tabe qurumların nümayəndələrinin onların ünvanına səsləndirdikləri paytaxtda ödənişli müvəqqəti duracaqlarda quraşdırılan parkomatların nəqliyyat vasitələrinin hərəkətinə maneə törətməsi, taksilərə parklanmaya imkan verilməməsi, parkomatlarla avtobus dayanacaqları arasında məsafənin az qoyulması kimi ittihamları qəbul etmir:** "Danışırlar e, amma hüquqi cəhətdən əsaslandırmaları yoxdur. Hamının fikir söyləməyə hüququ var. Amma sözü deyəndə fikirləşmək lazımdır. Axı parkomatın onlara nə aidiyyəti




var? Gəlin, çıxaq şəhərə, görək taksilər harada dayanır? Taksilərin əksəriyyəti onlar üçün yol nişanı olmayan yerlərdə dayanırlar. Axı taksi hər yerdə dayana bilməz. Heç 800 metr uzunluğunda da taksi ərazisi olar? Görmüşük ki, taksi ərazisində 7-8 avtomobil olar, çox olmaz ki. Hətta taksilərin saxladığı yerlər parkomatın quraşdırıldığı əraziyə düşəndə də biz taksi nişanına kimi məsafədə onlardan ödəniş götürmürük".

**Avtobus dayanacaqlarına gəlincə, H.Abdullayev qeyd edib ki, onlara yaxın ərazilərdə parkomatlar yoxdur:** "Bir-iki mübahisə doğuran yer ola bilər ki, o da müzakirə oluna bilər. Qanunvericilikdə göstərilir, avtobus dayanacaqları yalnız avtobuslar və ictimai nəqliyyat vasitələri üçün nəzərdə tutulub. Təbii ki, parkomat qanundan daha üstün ola bilməz. Əgər avtobus dayanacaqları parkomatların quraşdırıldığı ərazidə yerləşirsə, bu zaman parkomatlarla bağlı qaydalar yox, "Yol hərəkəti haqqında" Qanunun müddəaları əsas götürülür. Qanunu bilməmək isə avtomobil sahiblərini və sürücüləri məsuliyyətdən azad etmir. Əgər sürücü parkomatda pul ödəyib, sonra avtomobilini avtobus dayanacağında saxlayırsa, bunun bizə nə aidiyyəti var? Təbii ki, dövlət yol polisi gəlib onu cərimə edəcək. İnsanlar qanunu bilməlidirlər. Sürücü avtomobili səkidə və yolun ikinci cərgəsində də saxlayıb gedib parkomatda ödəniş edərək çek götürə bilər, amma bu, onu məsuliyyətdən azad etmir axı".

**XTAİ-nin rəisi parkomatların ərazilərdə quraşdırılması meyarlarını da açıqlayıb:** "Bəziləri deyirlər ki, məhəllələrdə də gətirib parkomat quraşdırıblar. Onların məhəllə dedikləri yerlər əslində ikinci və ya üçüncü dərəcəli yollardır. Birinci dərəcəli yollar yol arteriyaları hesab olunur və biz orada təbii ki, parkomat quraşdırırq. İkinci və üçüncü dərəcəli yollarda isə harada avtomobil sıxlığı müşahidə edilirsə, yalnız orada parkomat quraşdırılır. Axı bu vaxta kimi heç kimin həyətində parkomat quraşdırılmayıb. Biz ara küçələrdə, məsələn, Mərkəzi Univermağın yanındakı küçələrdə də parkomatlar quraşdırmışıq və orada yaşayan sakinlərə aylıq 15 manatlıq kartların alınmasını və avtomobillərini Füzuli meydanındakı yeraltı qarajda saxlamalarını təklif etmişik. Onların da çoxu gətirib saxlayır və heç bir problem də olmur. Bundan başqa, metronun "Xətai" stansiyasının arxasındakı yolda əvvəllər 2-3 cərgədə avtomobil saxlayır, süni sıxlıq və tıxac yaradırdılar. Parkomat quraşdırıldıqdan sonra indi avtomobilləri səliqə ilə yolun kənarında bir cərgədə saxlayırlar".

**H.Abdullayev yol kənarlarında avtomobil sıxlığının yaranmasında yaşayış binalarını inşa edən iş adamlarının da "rolu" olduğunu deyib:** "Binalar tikirlər. Bina sahibləri hətta balkonları da yaşayış sahəsinə daxil edib onun üçün ödəniş hesablayırlar. Amma orada yaşayan sakinlər üçün yeraltı avtomobil dayanacağı tikmirlər. Onda sürücülər də avtomobilləri yol kənarlarında saxlamağa məcbur olurlar. Nəticədə isə yollarda sıxlıq yaranır".

**Belə görünür ki, paytaxtın "yağlı tikələrindən" hesab olunan parkomatlar uğrunda savaş bununla da bitməyəcək. Bu savaşda qalibin kim olacağını çox gözləmək lazım gəlməyəcək...**

❑ Xəbər xidməti

# Müsavatdakı narazıların piket qərarına reaksiyalar...

## Kamil Xəlilbəyli "tələblərimiz partiyadakı haqsızlığa son verilməsi olacaq" deyir

**Noyabrın 15-də Müsavatın mərkəzi qərargahının qarşısında partiyadan çıxarılan üzvlər qərara etiraz olaraq, piket keçirməyi planlaşdırırlar. Piket qərarı xanım üzvü təhqir etdiyi iddia edilən Kamil Xəlilbəylinin MNTK tərəfindən partiyadan çıxarılmasından sonra gündəmə gəlib.**

Piket baş tutarsa, bu Azərbaycanda ilk hadisə olacaq. Çünki indiyə qədər belə bir hal müşahidə olunmayıb. Hər bir şəxsin etiraz etmək müstəsna hüquqlarından biridir.

**Partiyadan qovulan Kamil Xəlilbəyli** rayonda olduğunu və piket qərarında israrlı olduqlarını bildirdi: "Hazırda rayondayam. Piket barədə qayıdan kimi qərar verəcəyik. Hazırda bu istiqamətdə danışıqlar gedir. Tələblərimiz partiyadakı haqsızlığa, ikili standartlara son verilməsi və təcili qurultay çağırılması olacaq. Əsas narazılığım partiyadan çıxarılmağımla bağlı olacaq. Etiraz etmək mənim hüququmdur. Partiyadakı anarxiyaya son qoyulmalıdır. Noyabrın 17-də mətbuat konfransı keçirəcəyik. Partiyadan çıxarılmağım sifarişli qərar əsasında oldu. Başqa bir partiyaya keçmək fikrim yoxdur. Məni partiyadan çıxarıblar, amma əqidəmi əlimdən ala bilməyiblər".



Piketlə bağlı Müsavat rəhbərliyinin mövqeyini öyrəndik.

**Başqan müavini Elman Fəttah** narazıların partiya rəhbəri ilə görüşmələrində heç bir problemin olmadığını qeyd etdi: "Müsavat üzvlərinin rəhbərliklə görüşmələrində heç bir məhdudiyyət yoxdur. İstənilən zaman Müsavat başqanı və rəhbərliyi ilə görüşüb, təklif, iradlarını bildirə bilərlər. Partiyanın qərargahının qarşısında piket keçirmək hər bir üzvün hüququdur. Buna hansısa formada mane olmaq fikrimiz yoxdur. Bütövlük, birlik və sadiqlik əsas xətdir. Bu amillərə zərər gəlmədiyi halda kim necə istəyirsə, etirazını ifadə etsin. Biz daim onları dinləməyə hazırıq. Müsavat başqanı dəfələrlə hər bir narazı ilə görüşməyə hazır olduğunu bəyan edib. Bütövlükdə Müsavata qarşı atılan hər bir addım hakimiyyətin maraqlarına uyğun gəlir. Təəssüf edirəm ki, bəzi müsavatçılar bu tipli addımları atırlar. Vurulan ziyanı hesablamaq gərəkdir. Bunun üçün düşünmək lazımdır. Partiyamızın mənafeyinə zidd atılan addımlara nizamnamə çərçivəsində cavab veriləcək".

**Müsavat başqanlığına keçmiş namizəd Tural Abbaslı** atılan bu addımın cəmiyyət və müsavatçılar tərəfindən düzgün anlaşıla bilməyəcəyi ehtimallarının yüksək olduğunu bildirdi: "Piket hər bir müsavatçının hüququdur. Nizamnamə ilə qadağan olunmamış istənilən formada etiraz edə bilərlər. Amma hazırkı Azərbaycan reallığında cəmiyyət və müsavatçılar tərəfindən bu addım düzgün anlaşılmaya bilər. Çünki indiyə qədər təcrübədə belə bir hal baş verməyib. Bu baxımdan güman etmirəm ki, bu addım düzgün anlaşılacaq. Məndən bir dost kimi məsləhət almaq istəsəydilər, başqa etiraz formasının seçilməsini təklif edərdim. Amma heç kimi ittiham etmək fikrim yoxdur. Bu qərarı verənlərin içərisində kifayət qədər təcrübəsi olan insanlar var. Onlar bunun yükünü gözəl anlayırlar".

❑ Cavanşir ABBASLI




# Sərdar Cəlaloğlundan Milli Şura rəhbərliyinə sərt ittihamlar

## Sərdar Cəlaloğlu: "Oradakılar iqtidarla əməkdaşlıqdan keçib gəlmiş adamlardır"

**Noyabrın 29-da Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan partiyalar piket keçirəcək. Milli Şuranın(MŞ) mitinqlərindən sonra bu piketə birmənalı mövqe yoxdur. MŞ-da təmsil olunanlar qurumun keçirəcəyi piketi iqtidara dolayısı ilə xidmət kimi qiymətləndirirlər. Onlar təklif edirlər ki, piketdənsə, birgə mitinq keçirilsin.**

**Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Vidadi Mirkamal** "Azadlıq"a deyib ki, mübarizə əzmində olmayan insanlar onları hədəf seçməklə yalnız özlərini ifşa etmiş olurlar: "Ötən il real müxalifət birliyi - Milli Şura meydana çıxdı və bu qurumun namizədi seçkilərdə xalqın səsini aldı. Bundan sonrakı dövrdə də Milli Şura öz prinsipial mövqeyini davam etdirir və ictimaiyyətə də bəllidir ki, bu gün yeganə alternativ Milli Şuradır. Mitinqə gəlincə, bu, real mübarizə əzmində olan bir qurumun atmalı olduğu addım idi. Ölkədə insanlar şərlənərək həbs olunur, repressiyalar davam edir. Belə bir məqamda etiraz etməyib, nə vaxt mitinq keçirməliyik?".

**V.Mirkamal qeyd edib ki, siyasi mübarizə əzmində olan qüvvə hakimiyyətlə dialoqa cəhd göstərib 11 nəfərlik piket keçirmək qərarı verməzdi:** "Bu adamlar Milli Şuraya qarşı qara yaxmaları ilə özlərini ifşa edirlər və kimliklərini ortaya qoyurlar.

Artıq kimin kim olduğu aydın görünür. Bu adamlar Milli Şuranın mühüm bir məsələ ilə bağlı keçirdiyi mitinqi gözdən salmağa cəhd göstərməklə, bütün mübariz insanlara hörmətsizlik etmiş olurlar".

**ADP sədri Sərdar Cəlaloğlu** hesab edir ki, demokratik mübarizə üsullarının biri digərindən heç də üstün deyil. Onun sözlərinə görə, dünyada 160-a yaxın mübarizə üsulu müəyyən edilib: "Bunların da hamısı demokratik üsullardır və nəticə baxımından eyni effektə gətirib çıxarır. Bura daxildir - mitinq, piket, aclıq aksiyaları və başqa yollar. Hətta bir nəfərin aclıq aksiyası milyonların keçirdiyi mitinqindən üstün alınır".



**"Eyni sözləri deyirəm - mitinqin yeri üçün müraciətlər edirlər və dərhal hökumət icazə verir, deməli, hökumətin tapşırığı ilə aksiya keçirirlər"**

**S.Cəlaloğlu deyir ki, onlar Milli Şura rəhbərliyi ilə eyni ağılı bölüşmürlər:** "Biz dünyada və ölkəmizdə gedən prosesləri, regiondakı və dünyadakı konyukturanı onlardan fərqli olaraq dəyərləndirə bilirik. Məsələn, Milli Şurada olan bəziləri üçün prioritet iqtidardırsa, bizim üçün geopolitik vəziyyət əhəmiyyətli məsələdir. Mən məcbur deyiləm ki, sənin mübarizə yolunu gedəm. Bizim piketimiz liderlər səviyyəsində təşkil olunacaq və bu, daha effektli alınacaq. Bir var sıravi müxalifətçilərin iştirakı, bir də var liderlər ranqında piket olsun. Bunun effekti, reaksiyası daha böyük olur. "Qabusnamə"də yazır ki, qoyun sürüsünün qabağında şir gedirsə, bunu şir sürüsü adlandırmaq olar. Əgər şir sürüsünün qabağında qoyun gedirsə, o halda onu qoyun sürüsü saymaq lazımdır. Bu da lider və kütlə psixologiyasıdır".

**ADP liderinin fikrincə, 11 nəfərlik piket min nəfərin keçirdiyi mitinqdən həm də ləyaqətlidir:** "Çünki üzvlərimizə əziyyət vermirik, onları təzyiqlə üz-üzə qoymuruq, həbs təhlükəsinə şərait yaratmırıq. Buna yüksək qiymət vermək əvəzinə, hərə bir söz yazır, bizi iqtidarla əməkdaşlıqda ittiham edir. Biz hamının adından iradə nümayiş etdirib piket keçiririk.

Sadəcə, İctimai Palata, Milli Şura belə söz-söhbətlərə görə dağıldı. Çünki Azərbaycanda iqtidara qarşı yox, müxalifətdaxili rəqabət var. Kimsə 5 manat alır, bu, ona oxşayır ki, oğru elə bağırdı doğrunun bağrı yarıldı. Sadəcə, özlərinə şübhə edirlər. Milli Şurada olanlar iqtidarla əməkdaşlıqdan keçib gəlmiş adamlardır".

**ADP sədri 11 nəfərlik piketin keçirilməsini hökumətin "dəyirmanına su tökmək" kimi qələmə verənlərə analoji cavab verdi:** "Mən də eyni sözləri deyirəm ki, mitinqin yeri üçün müraciətlər edirlər və dərhal hökumət icazə verir.

Deməli, hökumətin tapşırığı ilə aksiya keçirirlər. Bizim piket hökumətə nə kimi kömək edəcək? Heç bir məntiqi yoxdur. Əgər birinci biz mitinq üçün icazə alsaydıq və hökumət yer versəydi, onda iqtidarla əməkdaşlıqda günahlandırmağa söz tapardılar. Birinci Milli Şuranın mitinqi olub və icazə də veriblər. Onda biz də deyirik ki, iqtidarın sözünü yerinə yetirirlər.

Biz hesab edirik ki, piket daha effektli olacaq. Milli Şuranın mitinqlərində səslənən şüarlar daha çox iqtidarla bağlıdır.

Biz konkret bir tələblə çıxacağıq - siyasi məhbusları azad edin. Mən də, Arif Hacılı da, Pənah Hüseyn də siyasi məhbus olmuşuq. İndi liderlər səviyyəsində siyasi dustaqlara azadlıq tələb edəcəyik. Bu, tarixdə ilk belə nümunədir. Ona görə də Milli Şura çaşıb qalıb, onlar üçün qərarımız şok effekti verib deyə bizə çamur atırlar".

mitinq keçirir, beynəlxalq dəstək gözləyir. Biz isə ən müxtəlif siyasi mübarizə üsullarından istifadə edirik, dəyirmi masalar keçiririk, hökumətə dialoq təklif edirik.

Milli Şurada olanların o çıxışları savadsızlıqdan, demokratiyanın, siyasətin nə olduğun bilməməkdən irəli gəlir. Sən mitinq keçirmək istəyirsən, get keçir. Mən bəyəm sənə tabeyəm, sənin qərarınla oturub-durmalıyam?".

**S.Cəlaloğlu deyib ki, kim bərkdən müxalifətçi olduğunu qışqırırsa, onun keçmişindən qaynaqlanan komplekslərdən irəli gəlir:** "Sən tez-tez deyirsənsə mən əsl müxalifətəm,

❑ **E.SALAMOĞLU**



# Ziya Məmmədovun oğlu Amerikada ziyafətdə

**Noyabrın 12-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində bu ölkədə fəaliyyət göstərən Azərbaycan-Amerika Alyansının təşəbbüsü ilə 3-cü təntənəli ziyafət mərasimi baş tutub. APA-Economics"in məlumatına görə, Endryu Mellon Auditoriyasında keçirilən və 600-dən çox qonağın qatıldığı mərasimdə ABŞ Konqresinin nümayəndələri, bu ölkədə fəaliyyət göstərən diplomatik korpus, analitik mərkəzlər, akademik və işgüzar dairələrin təmsilçiləri iştirak ediblər.**

Azərbaycan-Amerika Alyansının təşəbbüsü ilə keçirilən builki - "Azərbaycanın gözəlliyi və təbiət möcüzələri" adlı sayca 3-cü təntənəli ziyafət mərasimi Azərbaycanın təbiət və mədəniyyət gözəlliklərinin təbliğinə həsr olunub.

Ziyafət mərasimini giriş sözü ilə açan Azərbaycan-Amerika Alyansının təsisçisi və rəhbəri Anar Məmmədov qonaqları salamlayaraq, onları təntənəli ziyafət mərasimində görməkdən şad olduğunu bildirib: "Bakı və Vaşinqton iki böyük dostun - Azərbaycan və Amerikanın milli paytaxtlarıdır! Bizim mədəniyyətimiz, bizim tariximiz əsrləri əhatə edir və bizi bir-birimizdən böyük okean, iki qitənin ayırmasına baxmayaraq, ən yaxın qonşular kimi, özümüzə və bir-birimizə hörmət dəyərlərimiz eynidir".

Daha sonra çıxış edən Azərbaycanın ABŞ-dakı Fövqəladə və Səlahiyyətli Səfiri Elin Süleymanov qonaqları salamlayıb. "Bu gün Azərbaycan-Amerika Alyansının təşkil etdiyi tədbirdə iştirak edən hörmətli qonaqlarımız Vətənimiz Azərbaycanın gözəlliyi və təbiət möcüzələri ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər", - deyə səfir qeyd edib.

Mərasimdə çıxış edən ABŞ Konqresmeni, Azərbaycan-Amerika Alyansı İdarə Heyətinin sədri Den Berton Azərbaycan və ABŞ arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirib.

Təntənəli ziyafət mərasimi çərçivəsində Azərbaycan mətbəxinin beş ənənəvi yeməyindən ibarət şam süfrəsi açılıb.

Azərbaycanın tanınmış incəsənət xadimləri qonaqlara unudulmaz hisslər bəxş ediblər.

**Dövlət Rəqs Ansamblı Azərbaycanın möhtəşəm milli rəqslərini nümayiş edib.**

# Dağlıq Qarabağ problemi nə vaxt həll olacaq?



**Hüseynbala SƏLİMOV**

**Yaxın keçmişin söhbətidir. Ukraynada separatizm böhranı yenicə başlayan vaxt bir nəfər soruşdu ki, bəs bunun sonu necə olacaq? Biz də düşünmədən dedik ki, Dnestr, Abxaziya, Osetiya və Qarabağ kimi olacaq. O vaxt həmin adam qayıtdı ki, nə danışırsınız, heç Qərb buna imkan verərmi?..**

Təbii ki, onun Qərbə inamını sarsıtmaq istəmədik. Amma bu günlərdə gözümüz bir bəyanata sataşdı. Məlum olurdu ki, ukraynalı siyasətçilər ATƏT-dən şikayətlənirlər. Yerində olmasa da bu, bizə doğrusu, bir qədər gülməli göründü və dərhal da ağlımıza gəldi ki, bir görün Azərbaycan ATƏT-dən nə deyir, Azərbaycan ATƏT-in əlindən nələr çəkir?

Elə bunları düşündüyümüz məqamlarda ATƏT-in Minsk Qrupunun həmsədrlərinin münaqişə tərəflərinə-Azərbaycana və Ermənistana ismarışı səsləndi. Həmsədrlər Ermənistana (və yaxud da Dağalıq Qarabağa) məxsus helikopter vurulandan sonra münaqişə prosesində gərginliyin yarana bilməsindən "narahat" idilər...

Nə qədər qəribə olsa da, bu dəfə həmsədrlər çox operativ işləmişdilər, atəşkəs rejiminin kəskin şəkildə pozulduğu digər məqamlarda da belə operativ işləsəydilər bunu yalnız alqışlamaq olardı...

Ən maraqlısı isə odur ki, helikopter vurulmamışdan bir gün əvvəl Ermənistan parlamenti Dağlıq Qarabağın tanınması haqqındakı növbəti qanun layihəsini rədd etmişdi - 131 deputatdan yalnız səkkizi bu qanun layihəsini müsbət qarşılamışdı.

Bütün bunlar onu göstərir ki, hətta Ermənistanın özündə də siyasətdə müxtəlif qrupların çəkişməsi gedir. Ola bilsin, Dağlıq Qarabağdakı qondarma hakimiyyət bununla Ermənistandan özünün bir növ narazılığını ifadə etməyə çalışır. Amma o da var ki, bu palitrada siyasi rənglər o qədər qarışıb ki, nəyin sırf Ermənistana, nəyin isə Dağlıq Qarabağa aid olduğunu müəyyən etmək olduqca çətindir, necə deyərlər, kimin hansı məzhəbə qulluq etdiyini bilmək olmur...

Amma son vaxtlar Ermənistandakı siyasi elita Dağlıq Qarabağ hakimiyyətinə xoş gəlməyən bir neçə addım atıb. Bunlardan birini qeyd etdik.

Digəri odur ki, Ermənistan Avrasiya İttifaqına Dağlıq Qarabağsız qoşulmalı oldu. Təbii, belə bir hal, vəziyyət ən azı ultra-radikallarda müsbət rəy yarada bilməzdi...

Amma bütün bu nüanslara baxmayaraq münaqişə davam edir və Ermənistanda da ona son vermək haqqında çox az adam düşünür.

Bəs niyə bu münaqişələr davam edir? Əgər kimsə post-sovet məkanının xəritəsinə bir az diqqətlə baxsa bəlkə də mətləbi özü üçün aydınlaşdırar. Belə təsəvvür yaranır ki, Rusiya ondan uzaqlaşmaq istəyən ölkələri bir-bir cəzalandırır-Ukraynanı cəzalandırır, Gürcüstanı və Moldovanı cəzalandırır, eləcə də Azərbaycanı cəzlandırır...

Kimsə deyə bilər ki, Rusiyanı günahlandırmağa ehtiyac yoxdur, millətlərin öz müqəddəratını təyin etmək hüququ var və hər şeydə məhz elə buradan başlanır. Ola bilər. Amma dövlətlərin ərazi bütövlüyü də fundamental prinsiplərdən biri hesab edlilir axı...

Öz müqəddəratını müəyyən etmədə son hal kimi tamam ayrılmaq da nəzərdə tutulur. Amma dünyada 4000-dən çox etnos və etnik qrup var. İndi dünya nə etməlidir? Minlərlə yeni dövlət yaranmalıdırmı?...

Münaqişələr var ki, onlara həqiqətən də inanmaq olur. Amma bir sıra münaqişələr var ki, onların mahiyyətində geosiyasi tendensiyalar az qala gözə girir. Amma heç kim bunu görmək istəmir...

Ukraynadakı proseslərdə heç olmasa münasibət azacıq da olsa reallığa adekvat oldu. Heç kim nə Krımdakı, nə də ki, Şərqdəki separatistləri görmək istəmir- hamı münaqişənin səbəbi və baiskarı kimi Rusiyanı görür...

Amma digər münaqişələrə münasibətdə bu, hiss edilmir. Ona görə də "Niyə bu etnik münaqişələrin bir hissəsi belə uzanır?" sualının əslində bir sadə cavabı var: onlar Rusiya bir imperiya kimi diz çökənə qədər davam edəcək...

Nə qədər ki, Rusiya bir imperiya kimi ayaq üstündədir, onlar davam edəcək...

Nə periodik olaraq yaranan ümid qığılcımları, nə psevdo-patriotik bəyanatlar özündə real olaraq heç nəyi ifadə etməyəcək...

Bütün bunlar bəlkə də bir qədər yeknəsəq səslənir. Ona görə ki, insanların, xüsusən də azərbaycanlıların ən sevimli sualı "Bu işlərin axırı necə olacaq?" sualıdır...

**Bu sualın da cavabı var. İmperiyalar heç vaxt geri çəkilmir, onlar sadəcə, dağılırlar. Bir təskinlik verən detal var ki, hələ heç bir imperiya bu aqibətdən-dağılmaq aqibətindən qaça bilməyib. Bütün canlılar öldüyü kimi, imperiyalar da ölür- bir il gec, ya bir il tez, axır ki, "ölürlər"...**

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014

# Müəllimlərə kredit ödətdirən məktəb direktorunun adı daha bir cinayət işində

## Adəm Məmmədov: "Müvəkkilim ağır onkoloji xəstə ola-ola, belə adamların ifadələri əsasında həbs olunub"

**"Əli hər yerdən üzülən birisinə notarial qaydada borc pul verəsən, sonra həmin adam müqavilə şərtlərini pozaraq borcu qaytarmaqdan imtina etsin və səni tutub "içəri" salsınlar. Necədir? Harada baş verə bilər bu? " - vəkil Adəm Məmmədov sualına özü cavab verir. Deyir ki, Azərbaycanda onu təəccübləndirə biləcək bir qanunsuzluq qalmayıb: "Bakı şəhər sakinləri Reyhan Hüseynova, Ceyran Rüstəmova və Mətanət Gülməmmədova ayrı-ayrı vaxtlarda öz tanışları olan 12 nəfərə müxtəlif məbləğlərdə evlərini ipoteka yüklü etməklə notarial qaydada faizsiz borc pul veriblər. Bunlar Bakı şəhər sakinləri Məmmədov Bəxtiyar Lətif oğlu, Abdulov Rəşad Rafiq oğlu, Babayev Elşad Eyyub oğlu, Sadıxova Səkinə Fərrux qızı, Əliyeva Bahar Nadir qızı, Şükürova Gülnarə Aslan qızı, Kərimova Mehriban Yafəz qızı, Rəhimov Ələkbər Səftər oğlu, Murquzov Muxtar Məmmədəli oğlu, Bəkirova Sevda Mirqiyas qızı, Yaqubova Səriyyə İsa qızı və İbrahimov Xaləddin Əli oğludur. 12 nəfərdən 9-u sonradan Allahını və vicdanını danaraq aldıqları pulu qaytarmaq istəməyiblər. Yalnız 3 nəfər Bəkirova Sevda, Yaqubova Səriyyə və İbrahimov Xaləddin bu gün də etiraf edirlər ki, bu adamlardan müqaviləyə əsasən borc pul alıblar və qaytaracaqlar".**



Vəkil borca verilən pulların mənbəyini də açıqlayıb: "Həbsdə olan müvəkkilim və digər təqsirləndirilən 2 il əvvəl şəhərin 28 may küçəsində sökülən evlərinə görə kompensasiya alıblar. Həmin puldan da yaxşılıq məqsədi ilə 12 nəfərə borc veriblər. Notarial qaydada borc verənlə borc alan arasında müqavilə imzalanıb. İndi də bu 9 nəfər başda Səkinə Sadıxova qərara gəliblər ki, onlara dar gündə əl tutub pul verən 3 xanımı həbs etdirməklə pullarını həzm-rabedən keçirsinlər. Səbayel Rayon Məhkəməsi də borcu mənimsəyənlərin iddiasını təmin edib. Borc verənlərdən Rüstəmova Ceyran və Hüseynova Reyhan barəsində həbs-qətimkan tədbiri seçib və 1 saylı Bakı İstintaq Təcridxanasına göndərib. Üstəlik Bakı Şəhər Prokurorluğu İstintaq İdarəsinin müstəntiqləri nədənsə, 9 nəfərdən soruşmur ki, pul aldığınız xanımları tutdurmaqda məqsədiniz nədir? Yaxşı tutaq ki, 9 nəfərin hüquq sistemindən başı çıxmır və pulu qaytarmamaq üçün min bir dona girirlər. Bəs özlərini hüquqşünas sayan istintaq idarəsinin müstəntiqləri özlərinə bircə dəfə sual veriblərmi ki, bu boyda haqsızlığa niyə yol veririk? Bakı Şəhər Prokurorluğunun müavini Azər Əsgərov və prokurorluğun İstintaq İdarəsinin müstəntiqləri Cavid Abbasov və Asəm Səfərəliyev zərərçəkənlərlə təqsirləndirilməli olan şəxslərin yerini dəyişməklə hüquq elmində yeni "kəşf"ə imza atıblar".

**A.Məmmədov işdə adı keçən şəxslərin bir neçəsinin adlarının əvvəllər dələduzluq cinayətində keçdiyini də söyləyib:** "Muxtar Murquzovla bağlı bütün danışıqlarda onun bacısı İradə Murquzova iştirak edib. O, Xətai rayon 171 saylı orta məktəbin direktoru vəzifəsində çalışıb. Bu adam məktəbin müəllimlərinə kredit düzəltmək adı ilə dələduzluq əməlinə yol verib və buna görə də işdən azad edilib. Bununla bağlı istintaq materiallarında var. Müvəkkilim ağır onkoloji xəstə ola-ola, belə adamların ifadələri əsasında həbs olunub".

**Vəkil deyir ki, C.Rüstəmova və R.Hüseynovanın həbsi motivi Azərbaycan məhkəmə tarixində qara ləkə kimi qalacaq:** "Ceyran Rüstəmova onkoloji xəstədir. Milli Onkologiya Mərkəzi tərəfindən verilmiş epikriz də, Türkiyənin Mağusa Yaşam Xəstəxanasının qənaəti də bunu təsdiq edir. Əməliyyata ehtiyac olduğu da müvafiq sənədlərlə təsdiqlənir. Belə bir xəstəni həbs etmək qanunsuzluqla yanaşı allahsızlıqdır".

**Vəkil deyir ki, istintaq orqanı 2 qadının həbsini zərərçəkənlərdən 3-nün özlərini yandıracaqları haqda hədələrinin qarşısını almaq istəyi ilə əsaslandırıb:** "Guya "zərərçəkən"lərdən 3-ü intihar edəcəyini deyiblər. İstintaq orqanları qarşısında şərt qoyublar ki, əgər bu xanımlar həbs olunmasa özlərini öldürəcəklər. Qəribədir, deyilmi? Deməli, sabah mən gedib bir bankı yarıb yüz minlərlə pul götürərəm və məni həbs etməyə gələn istintaqçılara "özümü öldürəcəyəm" deməklə həbsdən qurtararam. Bankı soymaqla qazandığım pullarla da kef etməklə məşğul olaram. Və yaxud xoşum gəlməyən bir adamın həbsi üçün də bu üsulu seçə bilərəm. Görəsən Bakı Şəhər Prokurorluğu İstintaq İdarəsinin müstəntiqləri, başda Bakı Şəhər Prokurorunun müavini Azər Əsgərov qanunlarla işləyirlər, yoxsa hansısa şantaj və hədə ilə? Özü də istintaqçılar şantaj və hədə yolu ilə görün kimi həbs ediblər? Hazırda həbsdə olan Ceyran Rüstəmova və Reyhan Hüseynova borc verdikləri adamlar haqda pullarını qaytarmadıqlarına görə 9 epizod üzrə Abşeron, Xətai və Yasamal məhkəmələrində iddia qaldırıblar. Tam qanuni olaraq həmin məhkəmələr hər iki xanımın iddialarını əsaslı sayaraq təmin edilməsi barədə qətnamə çıxarıb. Borc alan və bunu danan 9 nəfər bununla razılaşmayıb apelyasiya və Ali Məhkəməyə də müraciət ediblər. Guya bu 2 xanım onları aldadaraq notariusda qol çəkdirib, evlərini aldadaraq girov qoydurub və həmin xanımlar onlara bir qəpik də olsun pul verməyib. Ancaq apelyasiya və Ali Məhkəmənin vicdanlı hakimləri rayon məhkəmələrinin haqlı qərarı qüvvədə saxlayıb və iddia icraya yönəlib. Deməli, həmin 9 nəfərin bu xanımlardan pul aldığı (söhbət ümumilikdə bir neçə yüz min manat puldan gedir) bütün məhkəmə instansiyalarında təsdiq olunur. Belə çıxır ki, bu məhkəmə instansiyaları Bakı Şəhər Prokurorluğu İstintaq İdarəsinin müstəntiqlərindən savadsızdırlar..."

**Vəkil deyir ki, müstəntiqlər işdə adı zərərçəkən kimi keçən Səkinə Sadıxovanın vaxtilə cəzaçəkmə müəssisəsinin rəisi işləmiş əri Fikrətlə tanışdırlar:** "Bəs bu qədər məhkəmənin çıxardığı haqlı qərarlar görəsən müstəntiqləri niyə bircə dəfə maraqlandırmadı? Bu adamlar insan taleyi ilə oynayırlar. Ceyran Rüstəmovanı açıq-aşkar ölümə məhkum edirlər".

**Vəkil baş prokuror Zakir Qaralovun tezliklə bu biabırçılığa son qoyacağına ümid etdiyini deyib:** "Bu qanunsuzluğa yol vermiş Bakı Şəhər Prokurorluğu İstintaq İdarəsinin müstəntiqləri layiqli cəzalarını alacaqlar. O müstəntiqlər ki, haqsız həbs etdikləri Ceyran Rüstəmova və Reyhan Hüseynovanın ev dustaqlığına buraxılmaması üçün qarşı tərəfi məhkəməyə dəvət edərək məsləhət verib ki, hay-küy salsınlar, onların evlərini də guya geri qaytaracaq. Hörmətli baş prokuror Zakir Qaralovun peşəkarlığına, səmimiyyətinə və qanunların aliliyinə hörmətlə yanaşmasına inandığımızdan məsələnin qanuni yoluna həll ediləcəyinə də şübhə etmirəm".

❑ E.MƏMMƏDƏLİYEV

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon: (050) 3885035**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS
English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

YENİ MÜSAVAT
N 280 (5989) 15 noyabr 2014

# İrana bağlılıqla ittiham olunan Nardarandan reportaj...



## “İmam Hüseyn İranın deyil, hər bir müsəlmanın imamıdır”

**Hər il Məhərrəm ayının 10-cu günü, Aşura günü gələndə bütün diqqətlər Bakının Nardaran kəndinə yönəlir. Əksər media orqanları, televiziyalar məhz bu kənddəki əzadarlıq məclislərini işıqlandırır, kimi tənqid edir, kimisə sadəcə yayımlayır.**

Cəmiyyətdə necə qiymətləndirilməsindən asılı olmayaraq, əminliklə demək olar ki, Nardaran kəndində İslam dini Azərbaycanın digər bölgələrindən fərqli şəkildə yaşanır.

Bu il də Nardaran kəndinin adı Aşura məclisləri ilə bağlı xüsusi hallandırıldı. Mətbuatda Aşura məclisində İran bayrağının dalğalanması, İrandan xüsusi sinə vuranların gətirilməsi haqqında xəbərlər yer aldı. Hətta bu məsələ müvafiq dövlət qurumları səviyyəsində müzakirə olundu. Bundan əvvəl də ictimai rəydə Nardaran kəndinin İrana bağlı olması, bu dövlətin təsiri altında olması və sair haqqında iddialar var idi. Bəs, həqiqətdə Nardaranda vəziyyət necədir? Kənddə İran bayrağı asılıbmı? Bu kəndi İrana bağlayan hansı cəhətlər var, yoxsa bütün bunlar sadəcə illuziyadır? Cəmiyyətdə yaranan bu suallara aydınlıq gətirmək üçün “Yeni Müsavat” qəzetinin əməkdaşları Nardaran kəndinə üz tutub.

Nardaran kəndi ilə Bakının mərkəzini birləşdirən yeganə ictimai nəqliyyat vasitəsi 189 saylı marşrut avtobusudur. Metronun “Koroğlu” stansiyasının yaxınlığındakı dayanacaqda biz də bu avtobusa əyləşib Nardarana üz tutduq. Elə avtobusa minən kimi, bu marşrutun məhz Nardarana getdiyini ifadə edən məqamlar gözümüzdən qaçmadı. Başında araqçın olan avtobus sürücüsü ilk baxışdan dindarlara məxsus görkəmi ilə diqqət çəkirdi. Avtobusun hər tərəfinə yapışdırılan dua və dini kəlamlar, “Hər gün Aşura, hər yer Kərbəla” şüarı da bu nəqliyyat vasitəsinin məhz din ocağına doğru yol aldığını bildirirdi.

Avtobus Nardaran kəndinin içərisinə doğru irəlilədikcə, yolboyu üzərində “Ya Hüseyn” yazılmış bayraqlar, divarlarda İslam peyğəmbəri Həzrəti Məhəmmədin (ə) və şiələrin 12 imamının hədisləri bu kənddəki ab-hava haqqında təəssürat yaradan ilkin göstəricilər idi.

Yolboyu qarşımıza çıxan qadınların demək olar ki, hamısı qara çadraya bürünüb. Nardaran Azərbaycanda qadınların kütləvi şəkildə çadraya büründüyü yeganə bölgədir. Məhz bu fakt Nardaranın İranla müqayisə edilməsi üçün əsas yaradan amillərdəndir.

Nardaran kəndinin tarixinə gəlincə, yerli sakinlər bunu 7-ci imam Museyi-Kazımın (ə) qızı Rəhimə xanımın (ə) buraya gəlişi ilə hesablayırlar. Bu hesabla Nardaran kəndinin 1300 ildən çox yaşı var. Hazırda kənd sakinlərinin sayı 9 mindən çoxdur. İlk baxışdan yolboyu sıralanan birmərtəbəli evlər, köhnə hasarlar bu kəndin camaatının maddi durumu ilə bağlı təəssürat yaradır. Nardaranın mərkəzi küçələrində çoxmərtəbəli, dəbdəbəli evlərə rast gəlmədik. İnsanların əksəriyyətinin qapısında Sovet istehsalı olan “Vaz 2106" , ”Vaz 2107" markalı avtomobillər dayanıb. Küçələrdə səssizlik hökm sürür. Tək-tək hallarda qara çadralı qadınlar və dükan-bazarın qarşısında toplaşmış kişilərə rast gəlmək olar.

Nardaranda kəndin mərkəzi küçələrini birləşdirən meydanlar da İslam peyğəmbərinin və 14 məsumun adını daşıyır. Kəndin ən böyük meydanı olan “İmam Hüseyn” meydanında qara bayraqlarla yanaşı Azərbaycan bayrağı da dalğalanır. Divarlarda müqəddəs kəlamlarla yanaşı milli qəhrəman Mübariz İbrahimovun da şəkli vurulub. Digər meydanlar “Məhəmməd peyğəmbər”, “İmam Əli”, “Fatimeyi Zəhra”, “İmam Həsən” və digər müqəddəslərin adını daşıyır.

Yol boyu rəngli boyalarla müqəddəs kəlamların yazıldığı divarlar bizi Nardaran pirinə -Rəhimə xanım ziyarətgahına doğru aparır.

189 saylı marşrut avtobusunun son dayanacağı xalq arasında Nardaran piri kimi tanınan Rəhimə xanım ziyarətgahıdır. Ziyarətgah ərazisinə görə, Bakının ən böyük məscidlərindən biridir. Cümə günü olması səbəbindən ziyarətə gələnlərin də sayı çox idi. Burada ilk baxışdan yerlilərlə və kənardan gələn ziyarətçiləri fərqləndirmək mümkündür.

Orada bizi Rəhimə xanım ziyarətgahına rəhbərlik edən Hacı Ədalət Əlizadə qarşıladı. Məscidin tarixi, Nardaran kəndinin özəllikləri haqqında danışan müsahibim gəlişimin məqsədini bilən kimi söhbəti uzatmadan birbaşa İran məsələsinə keçdi: “Nardaran kəndinin tarixi qədimdir. Bizim qədimdən gələn ənənələrimiz var və bu gün də ona sadiq qalmışıq. O cümlədən də Bakı kəndlərinin içində bizim kəndimiz ən dindar kənddir. Ona görə bizi cürbəcür qüvvələrə bağlamağa çalışırlar. İddialar var ki, Nardaran İrandan idarə olunur, burada İran bayrağı asılıb və sair. Bura Aşura gününün ən gözəl keçirildiyi yerdir. Həmin gün Nardarana gələnlərin arasında müxbirlər, mətbuat nümayəndələri də var idi. Ancaq onlar gedib olmayan şeyləri də Nardaranın adından yazırlar. Biz istərdik ki, bura gələn mətbuat adamları gedib qəzetdə, televiziyada dəqiq məlumatlar versinlər. Biz niyə nəyisə İrandan götürməliyik? Azərbaycanın İslam dini ilə bağlı heç kimə ehtiyacı yoxdur. Ən gözəl din də bizdədir. 70 il Sovet hökumətinin təzyiqləri altında sınmadı bu din. Biz bunu yaşatdıq, indi niyə gedib İrandan din gətirək? Sadəcə məsələ odur ki, hər bur namaz qılan bir müştəhidə təqlid etməlidir. Bu vacibdir. Azərbaycanda bu cür müştəhidlər yoxdur, bu səbəbdən biz də İranda yaşayan ayətullahlara təqlid edirik. Əgər Azərbaycanda olsa idi, öz müştəhidlərimizə təqlid edərdik. Ancaq bizi hər sahədə İrana aid etmək yanlışdır. Əgər hər dindar İrana bağlı olsa idi, onda Suriya, İraq və digərləri də İrana bağlıdır deyərdilər.

Nardaranın bütün divarlarında peyğəmbərimizin, imamlarımızın kəlamları yazılıb. Hamısını latın əlifbası ilə yazmışıq ki, gənclər oxuyub maariflənsinlər, tərbiyələnsinlər.

Bəziləri deyir ki, divarlara İran şüarları yazıblar, xeyr bu peyğəmbərin və imamların kəlamlarıdır. Bunlar bütün bəşəriyyətə aiddir, təkcə İrana yox. Mən bəzi telekanallardan xahiş edirəm ki, bizim haqqımızda yalan məlumat verməsinlər.

Mətbuatda məlumat getdi ki, bura İrandan sinə vuranlar gətirilib. Ancaq belə bir fakt olmayıb. Bizdə sinə vuran yoxdur məgər? Biz yüzillərdir İmam Hüseynə əza saxlamışıq, bu gün də saxlayırıq, bunu bizə heç kim qadağan edə bilməz. Bayraq məsələsinə gəlincə, burada İran dövlətinin bayrağı heç zaman asılmayıb. Bu bayraqlar hamısı “Ya Hüseyn” yazılan bayraqlardır, qara bayraqlar Məhərrəm ayı səbəbilə asılıb. Məhərrəm və Səfər ayları çıxandan sonra qara bayraqlar da yığılacaq. İmam Hüseyn (ə) İranının deyil, hər bir müsəlmanın imamıdır. İmam Hüseyn tərəfdarı olduğu üçün kimisə hansısa dövlətə bağlamaq düzgün deyil".

Hacı Ədalətlə müsahibəni yekunlaşdırıb sakinlərlə söhbət etməyə çalışırıq. Deyirlər ki, Nardaran kəndinin özəllikləri Aşura günü mərasimlərinin keçirilməsi ilə bitmir. İnsanlar gündəlik həyatında da şəriət qaydalarına ciddi riayət edirlər. Nardaranda spirtli içki içmək qadağandır. Heç bir ərzaq dükanında və ya başqa yerdə spirtli içkilər satılmır. Küçədə içkili insan görəndə onu dərhal uzaqlaşdırırlar ki, heç kim görməsin. Toylarda birmənalı olaraq spirtli içki verilmir. İnsanlar daha çox dini toylara üstünlük verirlər, ancaq çal-çağırlı toy edənlər də az deyil.



Nardaran kəndinin qadınları küçəyə başı açıq çıxmazlar. Əksəriyyəti baş örtüsü kimi qara çadradan istifadə edən qadınlar 12-13 yaşlarından başlayaraq tam şəkildə hicaba keçirlər. Nardaran küçələrində nadir hallarda başı açıq qadına rast gəlinir, bu da o deməkdir ki, o hansısa evə kənardan qonaq gəlib. Ancaq sakinlər qonağa hörmət xatirinə bu cür hallara göz yumurlar. Həmsöhbətlərim deyir ki, Nardaranda qızların təhsildən uzaqlaşdırılması haqqında deyilənlər yalandır, burada ali məktəblərdə oxuyan qızlar da var və hər kəs onlara rəğbət bəsləyir. Elm öyrənməyin İslamda da bəyənildiyini deyən Nardaran camaatı övladlarına təhsil verməyə çalışdıqlarını bildirdilər.



Nardaran sakinləri ilə söhbət zamanı onların hökumət nümayəndələri ilə münasibətlərini də soruşduq. Etiraf etdilər ki, kommunal xərclərin ödənilməsi ilə bağlı məmurlarla mübahisələri olur. Bunun da səbəbi odur ki, kənd camaatı işsizdir, maddi durumları aşağıdır. Kommunal borclarını vaxtında ödəmədiklərinə görə, kəndin qazı, işığı kəsilir və bu da insanlarda narazılıq yaradır.



Onu da qeyd edək ki, Nardaranda hələ də böyük-kiçik münasibətləri qorunub saxlanır. Nardaran ağsaqqallar vasitəsilə idarə olunur, onların sözü hər kəs üçün keçərli sayılır. Hər hansı məsələ haqqında danışmaq üçün ilk söz ağsaqqala verilir, sonra onun məsləhəti ilə kimsə söz ala bilər.

## Hacı Nuhbala Rəhimov: “Kimin əlində sənədi-sübutu və cəsarəti varsa biz onunla müzakirə etməyə hazırıq”

Sakinlər bizə müsahibə verərkən də bu qaydaya riayət etdilər. Növbəti müsahibimiz Rəhimə xanım ziyarətgahının axundu Hacı Nuhbala Rəhimov oldu.

Mətbuatın yazdığı qeyri-dəqiq informasiyalardan narazı qalan axund bizi görərkən də münasibətini gizlətmədi: “Bu kənd də Azərbaycanın bir bölgəsidir. Ancaq buranı fərqi odur ki, Nardaranda Əhli-beyt nümayəndəsi olan Həzrəti Rəhimə xanımın nuru parlayır, insanları mömindir, Allaha və peyğəmbərinə, öz mili dəyərlərinə bağlıdırlar. Bizim kəndin yeganə özəlliyi odur ki, biz öz dəyərlərimizə köklü surətdə bağlıyıq. Biz Avropaya inteqrasiya adı altında dinimizdən imtina etməmişik. Bu gün Avropa dəyərlərini çılpaqlıq kimi qəbul edirlər. Tolerantlıqdan danışanlar özləri buna əməl etmirlər. Bu çox əsassız sözdür ki, Nardaran haradansa idarə olunur. Ona qalsa, çox insanlar haqqında şayiələr dolaşır, hətta yüksək vəzifəli şəxslər haqqında da çox sözlər deyirlər. Kiminsə əlində Nardaranla bağlı hər hansı fakt varsa, bunu hüquq-mühafizə orqanlarına təqdim etsinlər. ”Ya Hüseyn" kəlməsini İranda, İraqda, Səudiyyə Ərəbistanında, Suriyada, Pakistanda, Türkiyədə və başqa İslam torpaqlarında səsləndirirlər. Bu o deməkdi ki, hansı tərəfdə daha güclü səslənirsə, biz həmin tərəfin adamı olmalıyıq? Kimin əlində sənədi-sübutu və cəsarəti varsa biz onunla müzakirə etməyə hazırıq. Bu məsələyə dövlət orqanları da müdaxilə etməlidir və bu fikirləri səsləndirən şəxsləri cəzalandırmalıdır. Çünki, bu cür əsassız ittihamlar onlar üçün səslənə bilər. Bu insanların məqsədi böhtanın, iftiranın qarşısını almaqdır, yoxsa qarışıqlıq salmaqdır? Nardaran camaatı bu sualın cavabını tapa bilmir".




**Nardaran kəndində işimizi yekunlaşdırıb qayıdırıq. 189 saylı avtobus Nardaran pirindən qayıdan ziyarətçilərlə doludur. Avtobus Nardaran kəndindən uzaqlaşdıqca, çadralı qadınlar, divarlardakı şüarlar, qara bayraqlar da azalır. Geridə qalan və öndən gələn mənzərə insanda müqayisə üçün imkan yaradır. Müqayisənin nəticəsi isə insana görə dəyişir.**

❑ **Nəgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

Son səhifə

*N 280 (5989) 15 noyabr 2014*




## 91 yaşlı qadın öldü, 11 saat sonra morqda dirildi

Polşada 91 yaşlı bir qadının öldüyü elan ediləndən və morqa aparılandan 11 saat sonra yaşadığı ortaya çıxıb. "Milliyet" qəzeti BBC-ə istinadən xəbər verir ki, ailə həkimi tərəfindən həyata keçirilən müayinə zamanı Canina Kolkiyeviçin öldüyü üzə çıxsa da, xəstəxana işçiləri yaşlı qadının morqda keçirdiyi 11 saatın sonunda hərəkət etdiyini görüb. Hadisə Polşanın Ostrov Lyubelski şəhərində meydana gəlib. Yaşlı qadının bacısı oğlu Cisennik Vsxodni səhər evə gələndə xalasının nəfəs almadığını və ürəyinin dayandığını görən kimi xəstəxanaya müraciət edib. Həkim qadını müayinə edəndən sonra onun dünyasını dəyişdiyini açıqlayıb. Dərhal morqa aparılan qadın üçün iki gün sonra cənazə tədbirinin düzənlənməsi ilə bağlı hazırlıqlara başlanıb. 91 yaşlı qadın xəstəxanada diriləndən sonra evinə göndərilib. Üşüməkdən şikayət edən qadın bir boşqab isti şorba və şirniyyat yeyəndən sonra yenidən isinib. Qadının ailəsi və həkimi baş vermiş hadisə qarşısında heyrət keçirib. Polis hadisə ilə bağlı araşdırmalara başlayıb. Yaşlı qadının həkimi isə bu olaydan şok keçirdiyini deyib: "Qadın nəfəs almırdı, bürün həyat funksiyaları dayanmışdı. Mən nə edə bilərdim ki?"

## İlan özünə qəsd etdi

Avstraliyanın Kerns şəhərində yarım metr uzunluğunda olan qəhvəyi rəngli ilan evlərdən birinin yaxınlığında ölü tapılıb. Çağırış nəticəsində hadisə yerinə gələn xilasetmə xidməti aşkarlayıb ki, ilan özü özünü dişləyərək məhv olub. Mütəxəssis öncə ilanın hansısa zədə alması, ardınca zədə aldığı yeri dişləməsindən şübhələnib. Ekspertin ehtimalına görə, ilanın ölümünə hər hansı kənar zədənin olmadığı aydınlaşıb. İlanın bu cinsinə daha çox Şərqi İndoneziyada və Yeni Qvineyada, Avstraliyada rast gəlmək olur. Onlar daha çox ağaclarda gecə həyat tərzi keçirirlər. Qəhvəyi ilanın dişləməsi insan üçün təhlükəli olmasa da, onların öz həyatına ciddi problem yaradır.



## Atasının cəsədindən şkaf düzəltdi



İngiltərədə Nathan Robinson adlı bir nəfər atasını öldürdükdən sonra cəsədini hissələrə ayırıb, televizor ştativi kimi istifadə etməkdə ittiham olunur. İddiaya görə, Robinson 158 kilo ağırlığındakı atasını öldürdükdən sonra cəsədini hissələrə ayırıb və onları plastik qablara qoyub. Sonra da üst-üstə qoyduğu saxlama qablarını televizor ştativi olaraq istifadə edib. Öldürülən ata Vilyam Spillerin hissələri 2013-cü ilin iyun ayında Bournemout şəhərindəki bir mənzildə tapılmışdı. 28 yaşlı Natan Robinson isə atasını planlı şəkildə öldürmədiyini, sadəcə qəza nəticəsində ölümə səbəb olduğunu deyib. Prokurorluq isə iddia edir ki, cinayət keçən ay ata-bala arasında pul ucbatından baş verib. Prokuror Nigel Likey isə bildirib ki, Nathan taksi sürücüsü olan atasını birgə yaşadıqları evdə öldürəndən sonra onun meyitini iri bıçaq və mişarla ayrı-ayrı hissələrə ayırıb. Polislər 1.67 boyundakı Spilerin cəsəd parçalarını plastik saxlama qablarında paketlənmiş şəkildə, başını isə sənədlərin yerləşdiyi şkafın içindən tapıb. Oğlu içində atasının cəsəd hissələri olan plastik qabları üst-üstə qoyub televizor ştativi düzəldib. Qonşuları isə bildirib ki, hadisə günü onların evindən dava-dalaş səsləri gəlib və qurban oğluna "səni həyatım boyu bəsləməyimi gözləyirsən" deyə sual edib. Daha sonra isə yuxarı mərtəbədən qan axdığını görərək aydınlaşdırmaq üçün ora çıxıb və Robinsonun çox rahat, sakit olduğunu müşahidə edib. Prokuror Likey isə qatil övladın atasının pulundan ən azı 7.750 sterlinq götürdüyünü, öləndən sonra atasının cib telefonuna gələn mesajları da cavabladığını bildirib.






**QOÇ** - Fəaliyyət göstərdiyiniz obyektlərdə mümkün qədər mübahisələrdən qaçın. Əks təqdirdə iş qrafikiniz pozulacaq. Ulduzlar qarşı tərəfin obyektiv fikirlərinə hörmətlə yanaşmağı tövsiyə edir.



**BUĞA** - Bütün vacib planlarınızı günün birinci yarısına təyin edin, xüsusən də əgər bu, iş və maliyyə ilə bağlıdırsa. Nahardan sonrakı müddətdə isə daha çox neytrallıq nümayiş etdirin.



**ƏKİZLƏR** - Daxili səsinizə qulaq asın. Düşünməyin ki, hər şeyin sonudur. Əgər bunu bacarsanız, təxminən saat 12-dən etibarən proseslərin müsbətə doğru dəyişməsinin şahidi olacaqsınız.



**XƏRÇƏNG** - Günün ümumi mənzərəsi qənaətbəxş olduğundan nəzərdə tutduğunuz işlərin böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Bu istiqamətdə sizə köməklik göstərənlər də olacaq.



**ŞİR** - Fəaliyyətinizdə mövcud olan boşluqları doldurmaq üçün mütləq təcrübəli, həm də etibarlı insanların məsləhətlərindən yararlanın. Unutmayın ki, "qara zolağ"ın sonuna çatmısınız.



**QIZ** - İttiham və giley-güzarınızı bir tərəfə atın. İndiki çətin mərhələdə bu hal heç bir müsbət nəticə verən deyil. Danışmaqdansa enerjinizi toparlayıb yarımçıq işlərinizə davam edin.



**TƏRƏZİ** - Bu gözəl təqvimdə hər kəslə duyğusal davranın. Kiminsə qəlbini qırmağa, zəhmətini aşağılamağa çalışmayın. Saat 16-19 aralığında olduqca uğurlu mərhələdən keçəcəksiniz.



**ƏQRƏB** - Bürcünüzdə aktivləşən planetlər sizə primitiv görünən bəzi məsələlərin aktivləşməsinə səbəb olacaq. Amma gərək özünüz də fəal olasınız. Doğmalarınızla münasibətləri qaydasına salın.



**OXATAN** - Nəzərinizə çatdıraq ki, bu gün planlarınız kosmik sürətlə reallığa yaxınlaşacaq. Etibar etdiyiniz adamların dəstəyindən də yararlanmağa çalışmalısınız. Uzaq yola şıxmaq fikrinə düşməyin.



**OĞLAQ** - Səhər saatlarından ovqatınız bir qədər aşağı olsa da, saat 11-dən sonra hər hansı gərginliyin şahidi olmayacaqsınız. Bu gün aldığınız bütün işgüzar təklifləri qəbul edin.



**SUTÖKƏN** - Həftə ərzində görəcəyiniz bütün işləri nahara qədər qətiləşdirin. Əks təqdirdə sonra buna vaxt tapmayacaqsınız. Bu gün səfərə çıxmaq, pul riski etmək uğursuzdur.



**BALIQLAR** - Sizi indiki passiv nöqtədən tərpədə bilən adamlarla rastlaşacaqsınız. Bu səbəbdən ünsiyyətdə olduğunuz hər kəslə mülayim davranın. Bütün astroloji mənbələr qurtulacağınızı bildirir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Xalda xərçəng olduğunu yoxlayan telefon



Bir qrup dermatoloq və riyaziyyatçı şübhəli görünən xal ləkə və digər dəri problemlərinin xərçəng olub-olmadığını yoxlayan üsul hazırlayıb. Ağıllı telefonlarda tətbiq olunan bu üsul 90 faiz doğru nəticə verir. 4.99 dollar qiymətlə bazara təqdim edilən bu sistem 4000 şəkil və 500 canlı dermatoloji müayinənin nəticələri nəzərə alınaraq inkişaf etdirilib. Mütəxəssislər problemli hissənin şəklini görəndən sonra risk faktorunu hesablayan tətbiqetməni həyata keçirirlər. Bununla yanaşı, yeni sistem dermatoloji müayinənin yerini vermədiyi üçün dermatoloqlar ilk növbədə ciddi tibbi müayinədən keçmənin vacibliyini vurğulayır: "Məlum sistemin həqiqət payı yüksək olduğu üçün ordan nəticələri öyrənənlər dərhal həkimə müraciət edirlər. Bu mənada testin əvəzi yoxdur".

**Səhifəni hazırladı: SELCAN**


Təsìsçì: Rauf ARİFOĞLU
Baş redaktorun bìrìncì müavìnì: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Azərbaycan" nəşrìyyatında çap edilìb. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksiyanın mövqeyì uyğun gəlməyə bìlər.

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lìsenzìya N: B 114
SAYI: 5.100